KHAZAR REVIEW

№ 361 Aprel 2017

# XƏZƏR XƏBƏR



AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org
























**Mətn səh. 12-13-də**

# İÇİNDƏKİLƏR


Universitet xəbərləri . . . . . 4

Xəzər Universitetinin nümayəndəsi 20 - ci Avrasiya sammitində . . . . . 8

Sumqayıt Məktəblilərinin Mədəniyyət Festivalının qala konserti . . . . . 12

328 nömrəli məktəbin yuxarı sinif şagirdləri Xəzər Universitetində . . . . . 14

Xalq artisti Ramiz Quliyev ilə üz-üzə . . . . . 18

Kanadaya getmək istəyən varmı? Professor o gözəl ölkədən danışır (professor Hamlet İsaxanlı ilə müsahibə). . . . . 20

Azərbaycan IV Beynəlxalq Psixologiya Konfransı. . . . . 24

"Molla Pənah Vaqif və Azərbaycan realizmi" mövzusunda elmi sessiya . . . . . 34

Хазар в лицах . . . . . 40

*Hamlet İsaxanlı.* Azərbaycanın iki yolu və Azərbaycan kimliyi haqqında (Tadeuş Svyatoçovskinin xatirəsinə). . . . . 50

Xalq rəssamı Altay Hacıyevin yubiley sərgisi . . . . . 52

Xəzər Universitetinin nümayəndələri AESOR layihəsinin görüşündə . . . . . 54

*Alice Park.* The Richest Americans Live 10 Years Longer Than the Poorest . . . . . 57

"Dünya" xəbərləri . . . . . 58

*Vurğun Əyyub.* "Həpsi rəngidir" şeiri . . . . . 60

*Amanda MacMillan.* Here's How to be Less Tired after Work . . . . . 65

Xəzər Universiteti Multimedia mərkəzi təqdim edir . . . . . 66

*Cek London.* İnsanı öldürmək... . . . . . 68

World's Most Visited Tourist Attractions . . . . . 76



1995-ci ilin yanvarından nəşr olunur

Təsisçi:
Xəzər Universiteti

Baş redaktor:
Hamlet İsaxanlı

Baş redaktor müavini:
Əlirza Balayev

Redaksiya heyəti:
Camal Mustafayev
Əjdər Ağayev
Alla Axundova
Şahin Fazil
Knyaz Aslan

İngilis dilində materialların redaktoru:
Zəmirə Qurbanova

Kompüter tərtibatçısı:
Gözəl Həbibova

Foto:
Multimedia Mərkəzi



Address:
41 Mahsati str., Baku
(near the "Neftchilar" metro)
Tel.: (+99412) 323 93 13
(+99412) 421 10 93 (209)
GSM: (+99450) 321 31 69
Faks: (+99412) 493 93 79
E-mail: xazarxabar@khazar.org



Certificate: 376
Index: 67178
Copies: 3000

It has been published since January 1995

Founder:
Khazar University

Editor-in-chief:
Hamlet Isaxanli

Associate editor:
Alirza Balayev

Editorial member:
Jamal Mustafayev
Aidar Aghayev
Alla Akhundova
Shahin Fazil
Knyaz Aslan

Editor of English Texts:
Zamira Gurbanova

Computer graphics:
Gozal Habibova

Photo:
Multimedia Centre





## PROFESSOR HAMLET İSAXANLI "QONAQ MÜHAZİRƏÇİLƏR SEMİNARLARI"NDA

Aprelin 3-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı "Potensial məktəb direktorlarına məktəbin idarə edilməsi üzrə təlim kursu"nda "Qonaq mühazirəçilər seminarları"nın qonağı oldu. H.İsaxanlı "Təhsildə idarəetmə: nəzəriyyə və təcrübə" mövzusunda seminar keçirdi.

Xəzər Universitetinin quruluşu və idarə edilməsi təcrübəsindən başlanan seminar potensial və mövcud məktəb direktorları üçün həm uğurlu idarəetmə, həm də uğurlu liderlik təcrübəsini özündə əks etdirdi. Seminarda "öyrənmənin və öyrətmənin yaşı olmadığı", "daima dəyişikliyə açıq və hazır olma"nın əhəmiyyəti vurğulanaraq, təcrübədən irəli gələn "öyrənilmiş bilik" konsepti ətrafında müzakirələr aparıldı.

Muzakirələrin sonunda professor Hamlet İsaxanlı iştirakçıların suallarını cavablandırdı.

Qeyd edək ki, "Potensial məktəb direktorlarına məktəbin idarə edilməsi üzrə təlim kursu" artıq üç ildir Xəzər Universitetində davam edir.

## PROFESSOR HAMLET ISAKHANLI IN THE "SEMINARS OF GUEST LECTURERS"

On April 3, the founder of Khazar University and the chair of the Board of Directors and Trustees, Prof. Hamlet Isakhanli visited the "Seminars of Guest Lecturers" within the project of "Training for potential school directors on school's management". Prof. H.Isakhanli delivered a seminar on the topic "Management at School: theory and practice".

The seminar starting with Khazar University's structure and management reflected successful management and leadership experience for both potential and existing school directors. The importance of "There is no age limit for learning and teaching", "Always being ready and open for changes" was emphasized and discussions were held on the concept of "acquired knowledge" through experience.

At the end of the session Prof. H. Isakhanli answered the participants' questions.

We also notice that "The Training Course of Managing the School for Potential School Directors" is continuously held by Khazar University for three years.



## KOLUMBİYANIN AZƏRBAYCANDAKI SƏFİRİ XƏZƏR UNİVERSİTETİNDƏ

Aprelin 5-də Kolumbiyanın Azərbaycandakı səfiri Marta Galindo Pena Xəzər Universitetində qonaq oldu və rektor Dr. Hassan Niknafs ilə görüşdü. Görüşdə universitetin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Turan Cəfərova və koordinator Günay Fərzəliyeva iştirak edirdilər. Görüş Beynəlxalq Əlaqələr Ofisi tərəfindən təşkil olunmuşdu.

Xəzər Universitetinin rektoru Dr. Hassan Niknafs Kolumbiya səfirliyi və Kolumbiyadakı universitetlərlə yaxın əməkdaşlıq qurmaqla bağlı dərin marağını bildirdi. O, həmçinin kolumbiyalı tələbələri Xəzər Universitetinin beynəlxalq tələbələr üçün təklif olunan proqramlarında görməkdən məmnunluq duyacağını bildirdi.

Beynəlxalq əlaqələr şöbəsinin müdiri Turan Cəfərova 2017-2018-ci tədris ili üçün açıq olan beynəlxalq qəbul haqqında məlumat verdi və Xəzər Universitetinin promo materiallarını səfirə təqdim etdi.

Səfir görkəmli Kolumbiya yazıçısı və Nobel mükafatçısı Qabriel Qarsiya Markesin kitabını rektora hədiyyə etdi.

Qeyd olundu ki, beynəlxalq qəbul və Xəzər Universiteti Beynəlxalq Təqaüd Proqramı bütün xarici vətəndaşlar üçün açıqdır. Potensial tələbələr (bakalavr, magistr və doktorantura tələbələri) universitetin dörd fakültəsinə müraciət edə bilərlər.

## MEETING WITH AMBASSADOR OF COLOMBIA AT KHAZAR UNIVERSITY

On April 5, Ambassador of Colombia Mrs. Marta Galindo Pena visited Khazar University and met with the Rector, Dr. Hassan Niknafs, Director of the International Affairs Office Turan Jafarova, and Coordinator Gunay Farzaliyeva. The meeting was organized by the International Affairs Office and took place in the Neftchilar campus of the University.

Rector of Khazar University, Dr. Hassan Niknafs expressed a strong interest in close collaboration with the Embassy of Colombia and universities in Colombia. He also stressed that Khazar University was very interested in accepting students from Colombia to programs offered by Khazar University to international degree-seeking students.

Ms. Turan Jafarova, Director of the International Affairs Office, provided information about the admission for the 2017-2018 academic year and presented promotional materials of Khazar University to the Ambassador.

The ambassador presented a book by the prominent Colombian novelist and Nobel Prize winner Gabriel Garcia Marquez to the rector.

Admission and the Khazar University International Scholarship Program are now open to nationals of all countries for potential students, both graduate (Master and PhD) and undergraduate (Bachelor), at all four schools of the university.





## AVRASİYA BİLİK MƏRKƏZİ "TƏLİMÇİLƏR ÜÇÜN TƏLİM" KEÇİRDİ

Aprelin 3-dən 5-dək Avrasiya Bilik Mərkəzi Xəzər Universitetində "Təlimçilər üçün təlim" keçirdi. Təlimdə Qazaxıstan, Qırğızıstan, Tacikistan, Ukrayna və Azərbaycandan ümumilikdə 15 nəfər iştirak edirdi.

İştirakçılar xüsusi təlimçilərin köməyi ilə təlim keçirməyin metod və yolları, habelə uğurlu təlim taktikasının özəllikləri ilə tanış oldular.

Təlimdə xüsusi bacarıqları aprobasiya etmək üçün hasilat sənayesi mövzuları tətbiq edildi.

Təlimin sonunda iştirakçılar fərdi təqdimat edərək, qazandıqları bacarıqları nümayiş etdirdilər. İsveçrə Əməkdaşlıq Təşkilatının Cənubi Qafqaz üzrə direktor müavini Simone Haberli və Avrasiya Bilik Mərkəzinin direktoru İnqilab Əhmədov iştirakçılara təlimi uğurla başa çatdırdıqlarına görə sertifikat təqdim etdilər.

## EURASIA HUB HELD A "TRAINING FOR TRAINERS"

Eurasia Hub has held a 'Training of Trainers' on 3-5 April, at Khazar University in Baku, Azerbaijan. The training provided 15 participants from Azerbaijan, Kazakhstan, Kyrgyzstan, Tajikistan and Ukraine with knowledge, tools and skills on training processes and methods.

Thus, a selected team of successful Hub alumni from previous trainings had an opportunity to improve skills in delivering hands-on trainings on extractive industries. Several participants mentioned that they would have to conduct trainings on the related subjects in near future and given that attending the training was highly useful. At the end of the training Simone Haeberli, Deputy Regional Director of Swiss Cooperation Office in the South Caucasus and Ingilab Ahmadov, Director of Eurasia Hub awarded the participants with certificates.



## SİLVİA ZİMMERMAN DEL CASTİLLO İLƏ GÖRÜŞ

Aprelin 6-da Azərbaycan Yazıçılar Birliyində argentinalı yazıçı və *La Nación*-nın daimi əməkdaşı Silvia Zimmerman del Castillo ilə görüş keçirildi. Görüşdə Latın Amerikası ölkələrinin Azərbaycandakı səfirləri və Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, yazıçı, professor Hamlet İsaxanlı da iştirak edirdilər.

Silvia Zimmerman del Castillo argentinalı yazıçı Xorxe Luis Borxesin (*Jorge Luis Borges*) ədəbi karyerası haqqında nitq söylədi.

Professor İsaxanlı Borxesin əsərlərinin bəzi aspektləri - onun yazılarında sufi mövzusu, Averroes (Ibn Rushd) haqqında qısa hekayəsi və heykayənin psixoloji və fəlsəfi cəhətləri haqqında danışdı.

## MEETİNG WİTH SİLVİA ZİMMERMAN DEL CASTİLLO

On April 6, a meeting with Silvia Zimmerman del Castillo, Argentine writer and permanent collaborator at *La Nación*, was held at the office of the Union of Azerbaijani Writers. The meeting was attended by the ambassadors of Latin American countries to Azerbaijan, Azerbaijani writers and people of art. Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, was also present at the meeting.

Silvia Zimmerman del Castillo gave a talk about Argentine author Jorge Luis Borges's literary career. Prof. Isaxanli spoke about some aspects of Borges' oeuvres – Sufi theme in his writings, his short story about Averroes (Ibn Rushd), and the psychological and philosophical dimensions of the story.

## PROFESSOR HAMLET İSAXANLI ARGENTİNALI YAZIÇI İLƏ GÖRÜŞDÜ
## PROFESSOR HAMLET ISAKHANLI MET WITH ARGENTINIAN WRITER



Aprelin 10-da Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı argentinalı yazıçı Xorxe Luis Borxesin (Jorge Luis Borges) tələbəsi, həmçinin, Roma klubunun Argentina filialının Direktorlar Şurasının və İdarə Heyətinin üzvü Silvia Zimmerman ilə görüşdü. Görüşdə Argentina və Azərbaycan arasında mədəniyyət əlaqələrinin inkişafı və Xəzər Universitetinin bu işdə rolu müzakirə olundu.

Görüşdə, həmçinin, Argentina səfirliyinin əməkdaşı, konsul Eduardo Cavallero və Xəzər Universitetinin Beynəlxalq Əlaqələr Ofisinin direktoru Turan Cəfərova da iştirak etdilər. Azərbaycan və Argentinanın ali təhsil müəssisələri arasında əməkdaşlıq müzakirə olunan mövzulardan biri idi.

On April 10, Founder of Khazar University and the Chairman of its Board of Directors and Trustees Prof. Hamlet Isakhanli met with Ms. Silvia Zimmerman, an Argentinian writer, student of the famous Argentinian writer Jorge Luis Borges. Ms. Zimmerman is also a board member of the Argentinian Chapter of the club of Rome. During the meeting, development of cultural ties between Argentina and Azerbaijan and the role of Khazar University in it were discussed.

Consul Mr. Eduardo Cavallero and Ms. Turan Jafarova, Director of the International Affairs Office of Khazar University also participated in the meeting and talked about partnership between universities in Argentina and Azerbaijan.



# XƏZƏR UNİVERSİTETİNİN NÜMAYƏNDƏSİ 20-Cİ AVRASİYA SAMMİTİNDƏ

Aprelin 4-dən 6-dək İstanbulda dünyanın 44 ölkəsindən altı yüz nəfərə yaxın nümayəndənin, o cümlədən beynəlxalq təşkilatların təmsilçilərinin, bir sıra ölkələrin prezidentləri və sabiq prezidentlərinin iştirakı ilə 20-ci Avrasiya İqtisadi Sammiti keçirilmişdir. Zirvə toplantısında Xəzər Universitetini İctimai Əlaqələr və Media üzrə direktor Əlövsət Əmirbəyli təmsil etmiş və o, sammitin katibliyinə seçilmişdir.

Sammiti Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Mərkəzinin (Türkiyə) prezidenti Prof.Dr. Akkan Suver açmış, Qara dəniz İqtisadi əlaqələr Parlamentlərarası Assambleyasının (KEIPA) Baş katibi Asəf Hacıyev, İstanbul valisi Vasip Şahin və digərləri açılış nitqləri ilə çıxış etmiş, toplantının fəxri qonaqları - BMT-nin nümayəndəsi Nasir Abdulaziz Al-Nasser, Albaniya Prezidenti Bujar Nishani, Bosniya və Herseqovina Prezidenti Mladen İvaniç, ŞKTC-nin Prezidenti Mustafa Akıncı, Makedoniya Prezidenti Gjorge İvanov, Türkiyə Respublikası Baş nazirinin müavini Mehmet Şimşek toplantı iştirakçılarını salamlamış və 20-ci Avrasiya İqtisadi Zirvəsinin işinə uğurlar arzulamışlar. Azərbaycan Prezidenti İlham Əliyevin təbrik məktubunu Diasporla İş üzrə Komitənin sədri Nazim İbrahimov oxumuşdur.

Toplantının rəsmi açılışından sonra dinləmələrə başlanılmış, geniş müzakirələr aparılmışdır. Azərbaycan Respublikası Milli Məclisinin sədr müavini Valeh Ələsgərov, Azərbaycan Respublikasının energetika naziri Natiq Əliyev, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini Salman Nuriyev çıxış etmişlər.

Sammitdə dünyada yaranmış iqtisadi problemlər, müharibələr və qaçqınlarla bağlı dərin narahatlıq bildirilmiş, Birləşmiş Millətlər Təşkilatına və beynəlxalq qurumlara müraciətlər qəbul olunmuşdur.

İştirakçılar üçün verilmiş ziyafətin konsert hissəsində Azərbaycan Respublikasının Xalq artisti Samir Cəfərov çıxış etmişdir .

# KHAZAR UNIVERSITY REPRESENTATIVE AT XX EURASIA SUMMIT

AVRASYA EKONOMİ ZİRVESİ
EURASIAN ECONOMIC SUMMIT
WOW ISTANBUL
WOW Istanbul Hotel & Convention Center - APRIL 4-6, 2017

From April 4 to 6, in Istanbul XX Eurasia Economy Summit was held with the participation of nearly 600 representatives from 44 countries, international organization members, presidents and ex-presidents of some countries. In the summit Khazar University Public Relation and Media director Alovsat Amirbeyli represented our university and was chosen the secretary of the summit.

Opening speech was delivered by the president of Marmara Group Strategic and Social Research Center (Turkey), Dr. Akkan Suvyer. General Secretary of Interparliamentary Assembly Black Sea Economic Relations, Asef Hajiyev, Mayor of Istanbul, Vasip Shahin represented their opening speech followingly. Honored guests; UN representative, Naser Abdulaziz Al-Nasser, the president of Albania, Bujar Nishani, the president of Bosnia and Hersogovinia, Mladen Iyanich, the president of TRNC ( Turkish Republic of Northern Cyprus), Mustafa Akinci, the president of Macedonia, Gjorge Ivanov, Turkish Republic Deputy Prime Minister, Mehmet Shimshek greeted the participants and wished success for XX Eurasia Economy Summit. The chair of the Committee of Work with Diaspora, Nazim Ibrahimov read Azerbaijani President Ilham Aliyev's letter of congratulation.

After the official opening ceremony sessions started and discussions were held. Deputy Chairman of Milli Majlis of Azerbaijan Republic, Valeh Alasgarov, Energy Minister, Natiq Aliyev, Chairman of the State Committee for Work with Religious Organizations, Mubariz Gurbanli, Deputy head of the Caucasus Clerical Office, Salman Nuriyev delivered their speeches. In the summit, concerns were expressed related to world's economic problems, war and refugees, and also appeals were made to UN and international organizations.

Samir Jafarov, people's artist performed in the concert within the banquet organized for participants

# "XƏZƏR"Ə TƏŞƏKKÜR MƏKTUBU

Marmara Grubu Vakfı
İstanbul

MARMARA GRUBU STRATEJİK VE SOSYAL ARAŞTIRMALAR VAKFI

**Sayın Alovsat AMİRBEYLİ**
**Hazar Üniversitesi Genel Sekreteri**
**Bakü-Azerbaycan**

**Saygıdeğer Amirbeyli, Değerli Hocam,**

Yüksek katılımınızla gerçekleştirdiğimiz 20. Avrasya Ekonomi Zirvesi'ni başarıyla nihayete erdirmenin sevinci içerisindeyiz.

Katılımınız için size minnettarız.

Takdir buyurursunuz ki; mütevazı bir sivil toplum kuruluşu için, aralıksız on dokuz yıldır bir etkinliğe ev sahipliği yapmak ve bunu artan nitelikli bir katılımla sürdürülebilir kılmak, ancak bizim gayretlerimiz kadar sizin de gösterdiğiniz ilgi ve birliktelik duygusuyla gerçekleştirilebilmektedir.

Bir defa daha şahsım ve Marmara Grubu Vakfı'nı oluşturan arkadaşlarım adına teşekkürlerimizi sunarken, gelecek yıl 21. Avrasya Ekonomi Zirvesi'nde birlikte olabilmek ümidiyle şükranlarımızı sunuyoruz.

En içten saygılarımızla,

**Dr. Akkan SUVER**
**Genel Başkan**

8 Nişan 2017



## ABDULLAH GÜL UNİVERSİTETİNİN REKTORU XƏZƏR UNİVERSİTETİNDƏ

Aprelin 11-də Türkiyə Cümhuriyyəti Abdullah Gül Universitetinin rektoru Pr.Dr. İhsan Sabuncuoğlu Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə görüşdü. Bu iki universitet arasında gələcəkdə iş birliyinin qurulması qərara alındı. Görüşdə Xəzər Universitetinin rektoru Dr. Hassan Niknafs və İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli də iştirak edirdilər.

## ABDULLAH GUL UNIVERSITY RECTOR AT KHAZAR UNIVERSITY

On April 11, Prof. Dr. Ihsan Sabuncuoghlu, the rector of Abdullah Gul University, Turkey met Khazar University's founder and the Chair of the Board of Directors and Trustees, Prof. Hamlet Isakhanli. The decision was made on establishing future cooperation between these two universities. Khazar University's rector Dr. Hassan Niknafs and the director of Public Relations and Media, Alovsat Amirbeyli also took part in the meeting.

*Qeyd edək ki, "Hürriyet" qəzeti 12 aprel 2017-ci il tarixli nömrəsində Pr.Dr. İhsan Sabuncuoğlunun Azərbaycana işgüzar səfəri haqqında geniş xəbər dərc etmiş, Türkməneli İş birliyi Vəqfinin Avrasiya Araşdırmaları Mərkəzi həmin xəbəri öz saytında yerləşdirmişdir. Onu oxucularımıza təqdim edirik.*

Hürriyet

## AGÜ'DEN AZERBAYCAN'DA ANLAŞMA

**Serda Özçelik**

AGÜ Azerbaycan Dışişleri Bakanlığı bünyesinde kurulan bir üniversiteyle anlaşma imzaladı. Buna göre, her iki üniversite bilişim teknolojisi, yönetim bilimleri, öğrenci ve akademisyen değişimi, ortak programlar gibi birçok alanda işbirliği yapacak ve ortak projeler üretecek.

Abdullah Gül Üniversitesi (AGÜ), Azerbaycan Dışişleri Bakanlığı bünyesinde kurulan uluslararası ilişkiler üniversitesi olan ADA Üniversitesi ile kapsamlı bir anlaşma imzaladı. Bakü Devlet Üniversitesi ve Hazar Üniversitesi ile de işbirliği için görüşmeler sürüyor. Abdullah Gül Üniversitesi Rektörü Prof. Dr. İhsan Sabuncuoğlu, 11. Cumhurbaşkanı Abdullah Gül ile gittiği Azerbaycan'da, Ada Üniversitesi (Azerbaycan Diplomatik Akademisi), Bakü Devlet Üniversitesi ve Hazar Üniversitesi'nde temaslarda bulundu. Bu sırada, temel amacı Azerbaycan dış işlerinde diplomatik kariyer için uzmanlar hazırlamak olan ADA Üniversitesi ile AGÜ arasında kapsamlı bir işbirliği anlaşması imzalandı. Rektör Prof. Dr. İhsan Sabuncuoğlu ile ADA Üniversitesi Rektörü Prof. Dr. Hafiz Pashayev arasındaki protokole göre, her iki üniversite bilişim teknolojisi, yönetim bilimleri, öğrenci ve akademisyen değişimi, ortak programlar gibi birçok alanda işbirliği yapacak ve ortak projeler üretecek.

Prof. Dr. Sabuncuoğlu, Bakü Devlet Üniversitesi ve Hazar Üniversitesi'ni de ziyaret etti. Bakü Devlet Üniversitesi'nde Rektör Yardımcısı Prof. Dr. İrada Nuraddin Aliyeva, Hazar Üniversitesi'nde de Başkan Prof. Dr. Hamlet Isakhanli ile bir araya gelen Sabuncuoğlu, işbirliği görüşmelerinde bulundu. Görüşmelerin ardından Bakü Devlet ve Hazar üniversiteleriyle de anlaşma yapılması bekleniyor.

*http://avim.org.tr/tr/Bulten/AGU-DEN-AZERBAYCAN-DA-ANLASMA?slid=SlE0EPG0thKQGsWqnuy1U5xJreY&utm_campaign=Avim+G%C3%83%C2%BCnl%C3%83%C2%BCk+B%C3%83%C2%BClten+-+Daily+Bulletin+-+2142&utm_content=SlE0EPG0thKQGsWqnuy1U5xJreY&utm_medium=email&utm_source=sendloop.com&utm_term=Avim+G%C3%83%C2%BCnl%C3%83%C2%BCk+B%C3%83%C2%BClten+-*



## KUALA LUMPUR UNİVERSİTETİNİN NÜMAYƏNDƏLƏRİ "XƏZƏR"DƏ

Aprelin 11-də Kuala Lumpur Universitetinin nümayəndələri Xəzər Universitetində oldular. Görüş Xəzər Universitetin "Neftçilər" kampusunda keçirildi.

Kuala Lumpur Universitetinin nümayəndələri Akademik işlər və texnologiya üzrə vitse-prezident professor Dato Dr. Azanam Şah Haşim və fakültə dekanı, kampus rəhbəri Dr. Şairul İzvan Bin Safie idilər. Kuala Lumpur Universiteti Malayziyanın aparıcı özəl texniki universitetlərindən biridir.

Xəzər Universitetini isə universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, rektor Dr. Hassan Niknafs və Beynəlxalq Əlaqələr Ofisinin direktoru Turan Cəfərova təmsil edirdilər.

Görüş zamanı qarşılıqlı fəaliyyət, xüsusilə də mühəndislik sahəsində əməkdaşlıq məsələləri müzakirə olundu. Görüşdə universitetlər arasında Anlaşma Memorandumunun imzalanması qərara alındı.

## REPRESENTATIVES OF UNIVERSITY OF KUALA LUMPUR AT KHAZAR UNIVERSITY



On April 11, representatives of the University of Kuala Lumpur visited Khazar University. The meeting took place at the Nefcthiler campus.

Representatives of the University of Kuala Lumpur included Prof. Dato Dr. Azanam Shah Hashim, Deputy President (Academic and Technology) and Associate Professor Dr. Sairul Izwan Bin Safie, Dean and Head of Campus. University of Kuala Lumpur is one of the leading private technical universities in Malaysia.

Khazar University was represented by the Founder and Chairman of the Board of Directors and Trustees, Prof. Hamlet Isakhanli, Rector Dr. Hassan Niknafs, and Turan Jafarova, Director of International Affairs Office.

Areas of mutual collaboration, especially in the field of engineering was discussed. It was decided to sign a Memorandum of Understanding between the two universities.





# SUMQAYIT MƏKTƏBLİLƏRİNİN MƏDƏNİYYƏT FESTİVALININ QALA KONSERTİ

Aprelin 11-də Sumqayıt Dövlət Dram teatrında Sumqayıt Şəhər İcra Hakimiyyətinin, Sumqayıt Regional Mədəniyyət İdarəsinin, Sumqayıt Şəhər Təhsil İdarəsinin və Xəzər Universieti Sumqayıt "Dünya" məktəbinin təşkilatçılığı ilə Sumqayıt Məktəblilərinin Mədəniyyət Festivalının qala konserti keçirildi.

Qala konsertdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı və Sumqayıt İcra Hakimiyyəti başçısının müavini Teymur Səmədov salona toplaşanları salamlayaraq bildirdilər ki, Sumqayıt Məktəblilərinin Mədəniyyət Festivalı sumqayıtlıların həyatında mühüm hadisədir. Sonra onlar festivalın qaliblərini təbrik etdilər və onlara qiymətli hədiyyələr təqdim etdilər.

"Dünya" məktəbinin təsisçisi Nailəxanım İsayeva, Xəzər Universitetinin İctimai Əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli, Sumqayıt Regional Mədəniyyət İdarəsinin rəisi Mehman Şükürov, Sumqayıt Təhsil Şöbəsinin müdiri Nizami Namazov, "Dünya" məktəbinin müdiri Mərufə Mədətli və Sumqayıt "Dünya" məktəbinin müdiri Münəvvər Bayramova II və III yerləri tutanlara sertifikat və hədiyyələr verdilər.

Gecənin bədii hissəsində qaliblər maraqlı proqramla çıxış etdilər.

Sonda şəhər rəhbərliyi tərəfindən Məktəblilərin Mədəniyyət Festivalını hər il keçirtmək qərara alındı.

(*Jurnalın üz qabığındakı fotoşəkil mətnə aiddir*).







# GALA CONCERT FOR CULTURAL FESTİVAL OF DUNYA SCHOOL'S SUMGAYİT BRANCH

On April 11, Gala concert for the Cultural Festival of Sumgayit school children was held in Sumgayit State Drama Theater with the coordination of Executive Power of Sumgayit City, Sumgayit Regional Department of Culture, Sumgait City Department of Education and Khazar University's affiliate Dunya School's Sumgayit branch.

Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, and Teymur Samedov, Deputy Head of Sumgayit City Executive Power, welcomed the participants of the concert and emphasized that Cultural Festival of Sumgayit school children is an important event in the life of the people of Sumgayit. Then they congratulated the 1st place winners of the festival and awarded them with valuable prizes.

Nailakhanim Isayeva, founder of Dunya School; Alovsat Amirbeyli, Director for Public Relations and Media; Mehman Shukurov, Head of Sumgayit Regional Department of Culture; Nizami Namazov, Head of Sumgayit City Department of Education; Marufe Madatli, Dunya School Director, and Munavar Bayramli, Dunya School's Sumgayit branch director awared the 2nd and 3r place winners with certificates and prizes.

At the end of the event the winners introduced interesting performances.

Executive Power of Sumgayit City decided to hold Culture Festival every year.





# 328 NÖMRƏLİ MƏKTƏBİN YUXARI SİNİF ŞAGİRDLƏRİ XƏZƏR UNİVERSİTETİNDƏ



Aprelin 12-də Xəzər Universiteti Azərbaycan dili və ədəbiyyat departamentinin təşəbbüsü ilə Bakının Nizami rayonundakı 328 nömrəli məktəbinin yuxarı sinif şagirdlərinin universitetlə tanış olması məqsədilə "Açıq qapı günləri" çərçivəsində tədbir keçirildi.

Məktəblilər departamentlər, dərs otaqları, laboratoriyalar və kitabxana ilə tanış olduqdan sonra Mərmər zalda universitetin təqdimatı ilə bağlı videoçarxa baxdılar.



Sonra Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı universitet, ixtisaslar, təhsil şərtləri və s. barədə şagirdlərə məlumat verdi, onların suallarını cavablandırdı.

Tədbirin sonunda məktəbin direktoru Asif Nəbiyev univeritetin rəhbərliyinə və tədbirin təşkilatçılarına göstərdikləri diqqət və qonaqpərvərliyə görə təşəkkürünü bildirərək, Xəzər Universiteti ilə məktəb arasında əlaqələrin daha da sıxlaşdırılması və genişləndirilməsi ilə bağlı arzularını bildirdi.









# HIGH CLASS STUDENTS OF SCHOOL 328 IN NIZAMI DISTRICT VISIT KHAZAR UNIVERSITY







On April 12, the high class students of school 328 in Nizami District of Baku visited our university in the framework of 'open doors' events initiated by the Azerbaijanian Language and Literature department.

The schoolchildren, after having attended classrooms, laboratories, and library, watched the video presentation of our university in the Marble hall.

Then professor hamlet Isakhanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, informed the students about the university, specialists, conditions of education and so on., and answered their questions. At the end of the event, Asif Nabiyev, the school director expressed his gratitude to the university authority,Hamlet Isakhanli, and the organisers of the event for rendered hospitality and wished the relations between Khazar University and the school be consolidated and expanded.





# XƏZƏR UNİVERSİTETİNİN 2 QRANTI ƏDLİYYƏ NAZİRLİYİNDƏ QEYDİYYATA ALINMADI...

Xəzər Universiteti geniş beynəlxalq əlaqələri və uğurlu layihələri ilə tək Azərbaycanda deyil, geniş regionda tanınmışdır. Universitetin bütün fəaliyyəti boyu, xüsusən də son 10 ildə beynəlxalq əlaqələr sahəsində əldə etdiyi uğurların bir istiqaməti də onun qazandığı beynəlxalq qrantlardır. Xəzər Universiteti, həm tərəfdaş universitet olaraq, həm də koordinator olaraq bir sıra nüfuzlu qrantlar qazanmış, tək öz inkişafı üçün deyil, Azərbaycanın digər universitetlərinin də inkişafına töhfə vermişdir. Xüsusən də, son bir neçə ildə, mütəmadi olaraq, Avropa Komissiyasının qrantlarını ala bilmiş, onları təhsil sistemimizdə gedən islahatlara, müəllimlərin təkmilləşdirilməsinə, tələbə mübadilə proqramlarının həyata keçirilməsinə sərf etməyə çalışmışdır.

Bütün bunlara baxmayaraq, son bir neçə ildə Azərbaycan təhsilinin inkişafı baxımından böyük əhəmiyyət kəsb edən iki böyük layihənin Ədliyyə Nazirliyi tərəfindən qeydiyyata alınmaması nəticəsində ölkəmizə daxil olan xeyli vəsait Avropaya geri çağırılaraq, digər ölkələrin universitetlərinə verilmişdir (?). Qeyd edək ki, 2015-2017-ci illərdə Azərbaycandan Avropa Komissiyası layihələrinin koordinatoru olan tək ali məktəb Xəzər Universiteti olmuşdur.

Belə ki, 2015-ci ildə Avropa Komissiyasının Təhsil, Audiovizual və Mədəniyyət üzrə İcraçı Agentliyinin elan etdiyi "ERASMUS+" proqramı üzrə qazandığımız **"Universitetlərdə Tələbə Ombudsmanı Ofisinin Yaradılması"** layihəsi (ümumi dəyəri 579 min avrodur), Ədliyyə Nazirliyində qeydiyyata alınmadığı üçün, Azərbaycandan alınaraq Gürcüstan Respublikasının Akaki Tsereteli Universitetinə verildi.

2016-cı ildə eyni proqram çərçivəsində qazanılmış **"Azərbaycan Universitetlərində Təlim və Tədris Proseslərinin Təkmilləşdirilməsi"** layihəsi də (ümumi dəyəri 909 min avrodur) Ədliyyə Nazirliyində qeydiyyata alınmadığı üçün, aprel ayında yenə Azərbaycandan alınaraq, başqa bir Avropa universitetinə - İspaniyanın Universitat Politècnica de València universitetinə verildi.

Böyük təəssüf hissi ilə qeyd edirik ki, yuxarıda adı çəkilən hər iki qrantın qeydiyyata alınması ilə bağlı bütün lazımi sənədlər vaxtlı-vaxtında Ədliyyə Nazirliyinə təqdim edilməsinə baxmayaraq, nazirlik bu məsələyə laqeyd və qərəzli yanaşmış, qrantın koordinatoru olan Xəzər Universiteti qeydiyyata alınmamış, Xəzər Universitetinin qranta cəlb etdiyi digər Azərbaycan universitetləri isə qeydiyyata alınmışdır (qəribə deyilmi?). Nəticədə Azərbaycan təhsili üçün cəlb etdiyimiz **1 milyon 488 min avro dəyəri olan vəsait digər Avropa ölkələrinə verilmiş**, üstəlik, "sizdə ölkəyə təhsil üçün vəsait gəlməsini istəmirlər" fikri formalaşır və gələcəkdə ölkəmizə yeni maliyyə vəsaitlərinin cəlbi çətinləşir...

# TWO GRANTS OF KHAZAR UNIVERSITY WERE NOT REGISTERED AT THE MINISTRY OF JUSTICE

Khazar University is well known for its extensive international linkages in Azerbaijan as well as in the wider region. One of the contributors to well-established international relations is the number of grants Khazar University received for the last 10 years. Khazar University received numerous grants with high impact on its development as well as that of other Azerbaijani universities. Specifically, grants constantly received for the last several years were spent on teacher development, student exchange programs, and in general, on the reforms of the education system.

For the past two years two important projects for the Azerbaijani education system were transferred to other European universities due to the reason that they were not registered at the Ministry of Justice. It is worth to mention that Khazar University was the only grant coordinating university supported by the European Commission for 2015-2017.

In 2015, the grant for the project entitled "Advocacy Establishment for Students through Ombudsman Position" with a budget of 579 000 Euros gained from the ERASMUS + programme of the European Commission was transferred to Akaki Tsereteli University of Georgia.

In 2016, the grant for the "Promoting Excellence in Teaching and Learning at Azerbaijani Universities" project with a budget of 909 000 Euros was transferred to Universitat Politechnica de Valencia of Spain.

We regret to inform that both projects were not registered by the Ministry of Justice even though proper documents were timely submitted. The discriminatory attitude of the Ministry of Justice becomes obvious when all other partners involved by Khazar University are registered (isn't it strange?). Thus, 1 488 000 Euros attracted for the development of education in Azerbaijan was transferred to European universities, and consequently opinion that "there is no will to gain money for improvement of your education in Azerbaijan" is formulated and attracting new funds is becoming very complicated.

## PROFESSOR HAMLET İSAXANLI TƏLTİF EDİLDİ

Aprelin 14-də TÜRKSOY – Beynəlxalq Türk Mədəniyyət Təşkilatının Baş katibi professor Düsen Kaseinov Azərbaycan Atatürk Mərkəzində Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə görüşdü.

Düsen Kaseinov professor Hamlet İsaxanlıya "Azerbaycan, Kazakistan, Kırgızistan, Özbekistan Cumhuriyetlerinin ve Türkmenistan'ın bağımsızlıklarının 25 Yılı anısına" medalını təqdim etdi.

## PROFESSOR HAMLET ISAKHANLI WAS AWARDED

On April 14, Professor Dusen Kaseinov, the chairman of TURKSOY– The International Organization of Turkic Culture met with Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees.

Hamlet Isakhanli was awarded a medal- "In commemoration of the 25th Anniversary of the Independence of Azerbaijan, Kazakhstan, Kyrgyzstan, Uzbekistan and Turkmenistan "by Dusen Kuseinov.




## PROFESSOR HAMLET İSAXANLI BEYNƏLXALQ KONFRANSDA ÇIXIŞ ETDİ

Aprelin 17-də Bakı Slavyan Universitetində "Postsovet Azərbaycanında milli-mədəni kimlik" mövzusunda beynəlxalq konfrans keçirildi.

Konfransın açılış və plenar sessiyalarında Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı iştirak etdi.

Fasilədən sonrakı paneli idarə edən professor Hamlet İsaxanlı "Azərbaycan milli kimliyinin tarixi mərhələləri" adlı məruzə ilə çıxış etdi.

## PROFESSOR HAMLET ISAXANLI AT THE INTERNATİONAL CONFERENCE

On April 17, international conference ,entitled "National and Cultural Identity in the Post-Soviet Azerbaijan" was held at Baku Slavic University. Professor Hamlet Isaxanli, the founder of Khazar University and chairman of its Board of Directors and Trustees also took part in opening and plenary sessions of the conference. Professor Hamlet Isakhanli conducted the panel after a break and made a presentation on "Historical Stages of the National Identity of Azerbaijan".

## PROFESSOR HAMLET İSAXANLININ "ELM ÜÇBUCAĞI" VERİLİŞİNİN NÖVBƏTİ BURAXILIŞI

Aprelin 23-də İctimai TV-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının "Elm üçbucağı" verilişinin növbəti buraxılışı yayımlandı.

Verilişin budəfəki buraxılışı "Elmin inkişafında müxtəlif təşkilatların rolu (tarix boyu və yaxın zamanlarda)" mövzusuna həsr olunmuşdu. Verilişdə Xəzər Universitetinin müəllim və əməkdaşları iştirak edirdilər.

## ROUTINE BROADCAST OF PROFESSOR HAMLET ISAKHANLIS "TRIANGLE OF SCIENCE" PROGRAM

On April 23, the lecture of Professor Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, was broadcast on his "Triangle of Science" Program on Public TV. The lecture was entitled "The Role of Various Organizations in the Development of Science" (Throughout the history and in the near future). Professional staff and teachers of Khazar University participated in the program.



# XALQ ARTİSTİ RAMİZ QULİYEV İLƏ ÜZ - ÜZƏ





Aprelin 14-də Xəzər Universitetinin "Dünya" konsert salonunda universitetin "Üz-üzə" layihəsi çərçivəsində Azərbaycan ifaçılıq sənətinin görkəmli simalarından biri, tar dünyasının canlı əfsanəsi, Xalq artisti, professor Ramiz Quliyevin 70 illiyinə həsr olunmuş "Səslən, tarım" adlı yaradıcılıq gecəsi keçirildi.

Tədbirin əvvəlində musiqişünas Nərgiz Kərimova sənətkarın həyat və yaradıcılığını işıqlandırdı. Onun geniş və əhatəli, fotoslaydlarla müşayiət olunan çıxışında Ramiz Quliyevin çoxşaxəli fəaliyyəti bir daha göz önündə canlandı. Sonra Xalq artisti Ramiz Quliyev səhnəyə dəvət olundu və konsert proqramı başlandı. Konsertdə Qara Qarayev, Tofiq Quliyev, Qəmbər Hüseynli, Vasif Adıgözəlov, Sərdar Fərəcov, həmçinin Anton Rubenşteyn, Frans Şubert, Vittorio Monti və Mikis Teodorakisin əsərləri ifa olundu. Xəzər Uuniversitetinin Kamera orkestrinin müşayiəti ilə keçən konserti dinləyicilər böyük maraqla izlədilər.

Konsert proqramı görkəmli tarzən haqqında filmin nümayişi və çıxışlarla müşayiət olundu.







Asəf Zeynallı adına Musiqi Kollecinin direktoru, Əməkdar incəsənət xadimi Nazim Kazımov, Xəzər Universitetinin Musiqi və incəsənət departamentinin müdiri, pianoçu, dosent Zülfiyyə Sadıqova, Bəstəkarlar İttifaqının katibi, Əməkdar incəsənət xadimi Sərdar Fərəcov və Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı çıxış etdilər.

N. Kazımov Ramiz Quliyevin ifaçılıq sənətinin xüsusiyyətləri haqqında danışdı. Z. Sadıqova Ramiz Quliyevlə bağlı xatirələrini dinləyicilərlə bölüşdü. On beş il öncə təşkilatçılıq etdiyi Ramiz Quliyevin 55 illiyi ilə bağlı yaradıcılıq gecəsini xatırladı və həmin tədbirdən görüntülər təqdim etdi. S. Fərəcov çıxışında Azərbaycan musiqi ifaçılığında Ramiz Quliyevi Üzeyir Hacıbəyli ənənəsinin davamçısı kimi səciyyələndirdi. H. İsaxanlı Ramiz Quliyevin geniş diapozona malik ifaçılıq sənətinin xarici ölkələrdə də tanındığını və yüksək dəyərləndirildiyini qeyd etdi.

Çıxış edənlər görkəmli sənətkarı yetmiş illik yubileyi münasibətilə təbrik etdilər, ona yeni yaradıcılıq uğurları arzuladılar, təbrik məktubları və gül dəstələri təqdim etdilər.

Tədbirin sonunda Xalq artisti Ramiz Quliyev çıxış edərək, onun yaradıcılıq gecəsinin təşkilinə görə Xəzər Universitetinin rəhbərliyinə və iştirakçılara təşəkkürünü bildirdi.





# KANADAYA GETMƏK İSTƏYƏN VARMI? PROFESSOR O GÖZƏL ÖLKƏDƏN DANIŞIR

*2017-ci il aprelin 12-də "Şərq" qəzetinin internet səhifəsində Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə müsahibə yayımlanmışdır. Müsahibəni oxucularımıza təqdim edirik.*

Dünyanın ən əsrarəngiz və ən təmiz ölkələrindən biri olan Kanada bir çoxumuzun xəyallarında olan, ən çox gedib görmək istədiyimiz ölkələrdən biridir. Bu ölkə yaşamaq üçün ən ideal ölkələrdən biri olmaqla yanaşı, təhsil üçün də ən ideal ölkələrdəndir. Kanada dünyada ekoloji cəhətdən ən təmiz ölkələrdən birincisidir desək, yanılmarıq. Bu ölkə həm də dünyada "insan kapitalının" paytaxtı sayılır. Burada işsizlik problemi demək olar ki, yoxdur.Son illərdə xaricdə yaşamağı və işləməyi, eyni zamanda təhsil almağı üstün tutan azərbaycanlıların seçimlərində də Kanada ön sırada duran ölkələrdəndir. Bəs insanları Kanadaya cəlb edən əsas xüsusiyyətlər və ya bu ölkəni cazibədar edən nədir?

**Sherg.az-ın bu sualını Xəzər Universitetinin təsisçisi, professor Hamlet İsaxanlı cavablandırıb. O bildirib ki, Kanada hələ Sovet dövründə ən çox getdiyi ölkə olmaqla yanaşı, həm də ən yaxşı tanıdığı ölkələrdən biridir:**

"Kanada həmişə emiqrantları cəlb edən ölkə olub. Azərbaycanlılar isə sadəcə son illər bu ölkəyə çox maraq göstərir. "Hara getmək olar?" sualı ətrafında araşdırma aparanların siyahısının ilk pillələrində Kanada durur. Cəlbedici, maraqlı yerlər Şimali Amerikadır, Avropa ölkələridir. Amerika Birləşmiş Ştatlarından fərqli olaraq Kanadaya daha çox maraq olmasının səbəbi yeni gələnlərə qarşı qanunların digər ölkələrə baxdıqda qat-qat yaxşı olmasıdır. Xüsusilə təhsil dalınca gedənlərə işləməyə icazə verilir.

İkinci bir tərəfdən Amerika prezidenti Donald Tramp müsəlman ölkələrindən bir çox insanların gəlməsinə qadağa qoydu. Bundan fərqli olaraq Kanada qərar çıxardıb qaydaları bir qədər yumşaltdı ki, Amerika müsəlmanları buraxmırsa, Kanada onları qəbul edəcək. Kanada həm qanunvericiliyə, həm yeni gələnlərə şərait yaradılmasına görə ən gözəl ölkələrdən biridir. Azlıqlara qarşı münasibət yaxşıdır, təzyiq yoxdur. Azərbaycanlılar, xüsusilə İran azərbaycanlıları Kanadada çox məskunlaşıb, yaşayırlar. Məsələn, Torontoda, deyilənə görə, 40 minə qədər azərbaycanlı yaşayır. Onların özlərinin qəzetləri, televiziyaları, radioları, nəşriyyatları fəaliyyət göstərir. Sənət adamları var, universitetlərdə xeyli professorlar çalışır".

**Kanadaya dəfələrlə səyahət etdiyini deyən H.İsaxanlı bu ölkənin cox yüksək inkişaf etmiş olduğunu xatırladıb. Onun sözlərinə görə, xarici ölkələr içərisində Kanada və Avstraliyanın bu ölkələrə gələnlərə, o cümlədən, tələbələrə qarşı qanunları çox yaxşıdır:**

"Orada insan tək qalmır, müəyyən kömək üçün proqramlar var. İnkişaf etmiş ölkə olduğuna görə burada maaşlar da çox yüksəkdir. Çox yaxşı universitetlər fəaliyyət göstərir. Ona görə də, insanlar üçün bu ölkə cəlbedicidir.

Kanada təhlükəsizlik baxımından da Amerikaya nisbətən daha əlverişlidir. Hətta ən təhlükəsiz ölkələrdən biridir.

Təhsil Kanada dövlətinin əsas diqqətində olan sahələrdəndir. Burada təhsilə dövlət tərəfindən böyük diqqət vardır. Ali təhsil müəssisələri tədris proqramlarının genişliyi və dərinliyi baxımından fərqlənir. Universitetlər də daxil olmaqla, əyalət və ərazilər üzrə müvafiq dövlət orqanları təhsilin bütün səviyyələrinə cavabdehdir. İngilisdilli ölkələr sırasında Kanada təhsil almaq üçün, yaşamaq üçün ən ideal ölkələrdəndir (Kanadada fransız dili də rəsmi dildir). Burada yaşamaq digər ingilsdilli ölkələrə nisbətdə ucuz başa gəlir.

Təhsil sahəsində də həmçinin, təhsil haqları digər ingilisdilli ölkələrlə müqayisədə aşağıdır. Kanadada təxminən 70 universitet fəaliyyət göstərir. Məsələn, Oksford, Kembric, Harvard kimi dünyaca məşhur universitetlərin siyahısında Toronto universitetinin də adı çəkilir. Eləcə də Kanadanın digər universi-

tetlərində təhsil yüksək səviyyədədir.

Digər ingilisdilli ölkələrlə müqayisədə, açıq immiqrasiya siyasətinin mövcudluğu ali məktəbləri bitirən əcnəbilərin Kanadada qalıb işləməsi üçün geniş üfüqlər açır.

İnsan oxumaq istəyirsə, universitet ona kifayət qədər kömək edir. Sadəcə, universitetlər yaxşı universitetlərdir, hər tələbə bilir ki, burada mütləq ciddi oxumaq lazımdır".

**Kanadada dini tolerantlığa gəldikdə isə, professor deyib ki, bu ölkədə dini və ya etnik azlıqlara təzyiq yoxdur. Çünki ölkə özü emiqrantlar ölkəsidir:**

"Kanadanın yerli əhalisi çox azdır. Üstəlik, ölkədə iki rəsmi dil var: fransız və ingilis dilləri. Kanada fransızların və ingilislərin qurduğu ölkədir. Buna görə də, tolerantlıq kifayət qədər yüksəkdir.

Emiqrantlara vətəndaşlıq, əlbəttə, birdən-birə verilmir. Başqa ölkələrdə olduğu kimi, Kanadaya da gedib, müəyyən müddət yaşamaq, işləmək, özünü sübut etmək lazımdır. Ondan sonra emiqrantlar vətəndaşlıq əldə edə bilərlər".

**Sonda Kanada haqqında maraqlı məlumatları təqdim edirik:**

*Kanada, Rusiyadan sonra dünyanın ən geniş torpaqlara sahib ikinci ölkəsidir.*

*Dünyanın ən kiçik həbsxanası Rodney Ontario Kanadada yerləşir. Bu həbsxana 24.3 kvadrat metrdir.*

*United Nation Human Development Index'ə görə Kanada dünyanın ən yüksək həyat standartlarına sahib ölkəsidir.*

*Kanada, dünyanın ən təhsilli ölkəsidir. Əhalisinin yarısından çoxu ən azı universitet məzunudur.*

*Kanadada olan göllərin sayı, dünyanın digər hissəsində olan göllərin ümumi sayından daha çoxdur.*

*- Şimal-qərbi Kanadadakı yol işarələri qütb ayısı şəklindədir.*

*Hər il Milad zamanı 1 milyon məktub Şaxta Babaya çatdırılması üçün Kanadaya göndərilir.*

*ABŞ və Kanada arasındakı sərhəd dünyanın iki ölkə arasındakı ən uzun quru sərhədidir.*

*Sovetlər Birliyi və ABŞ-dan sonra kosmosa çıxan üçüncü ölkə Kanadadır. 1962-ci ildə Kanadanın kosmos proqramı dünyanın ən inkişaf etmiş proqramı olaraq tanınırdı.*

*http://www.sherg.az/site/id-29292/Kanadaya_getmək_istəyən_varmi?-__Professor_o_gözəl_ölkədən_danışır*





## RUMINİYANIN AZƏRBAYCANDAKI SƏFİRİ SİYASİ ELM VƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏR DEPARTAMENTİNDƏ

Aprelin 18-də Ruminiyanın Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Dan İanku Xəzər Universitetinin Siyasi elm və beynəlxalq münasibətlər departamentində qonaq oldu.

Səfir İanku cari ilin mayında təşkil olunması nəzərdə tutulan Ruminiya-Azərbaycan Təhsil Forumu ilə bağlı məlumat verdi.

Siyasi elm və beynəlxalq münasibətlər departamentinin müdiri, Avropaya İnteqrasiya üzrə Jan Monne Kürsüsü mükafatı laureatı, fəlsəfə doktoru Muxtar Hacızadə Xəzər Universitetinin dərəcə proqramları haqqında məlumat verdi. O, həmçinin Ruminiya universitetlərinin tələbələrinin Xəzər Universiteti Təqaüd proqramı ilə bağlı məlumatlandırmasını da səfirdən xahiş etdi. Görüş iştirakçıları tərəfindən akademik və tələbə mübadiləsinin əhəmiyyəti xüsusilə vurğulandı. Səfirliyin diplomatik müşaviri Mihaela İanku və departamentin koordinatoru Elmar Mustafayev də görüşdə iştirak edirdilər.

## ROMANIAN AMBASSADOR TO AZERBAIJAN VISITS THE DEPARTMENT OF POLITICAL SCIENCE AND INTERNATIONAL RELATIONS

On April 18, H.E. Mr. Dan Iancu Ambassador Extraordinary and Plenipotentiary of Romania to Azerbaijan paid a courtesy visit to the Department of Political Science and International Relations of Khazar University.

The ambassador Iancu gave information about the forthcoming Romanian-Azerbaijani Education Forum to be organized in May. Dr. Mukhtar Hajizada, Jean Monnet Chair and the Head of the Department informed the ambassador about the degree programs offered by the university. He also asked the ambassador to distribute the information about the Khazar University Scholarship program among the Romanian university students. The necessity of academic and student exchanges was mentioned by the meeting participants. The Diplomatic Counselor of the Embassy Mrs. Mihaela Iancu and the Coordinator of the Department Mr. Elmar Mustafayev also took part in the meeting.



# MEETING WITH THE AMBASSADOR OF IRAQ

On April 21, Rector of Khazar University Dr. Hassan Niknafs and Director of International Affairs Office Turan Jafarova visited the Embassy of Iraq where they had a meeting with the Ambassador Extraordinary and Plenipotentiary of Iraq to the Azerbaijan Republic Dr. Fadhil Awad Jebur AL-Shuwai. Mr. Al Hashimi Yousuf, president of the Centre for Assistance in Rendering of Treatment and Educational Services, an agency providing educational consultancy and services, also participated in the meeting.

The Ambassador emphasized the role of Khazar University as one of the leading universities in the country and expressed his gratitude for the work it does educating students from Iraq. The Ambassador referred to the decision of the Ministry of Higher Education and Scientific Research of Iraq from August of 2016 about the recognition of several universities in Azerbaijan and stressed that he personally recommended Khazar as one of the best universities in Azerbaijan providing high quality education. The Ambassador also stressed that recognition of some of other local universities had been revoked due to their low performance and negative practice. Rector of Khazar Universiry, Dr. Hassan Niknafs thanked the Ambassador fort the trust and emphasized that Khazar University was committed to preparing high-quality specialists.

Meeting participants also discussed recruitment of Iraqi students and formalizing the cooperation between the Embassy and Khazar University by signing a Memorandum of Understanding (MoU). The Centre for Assistance in Rendering of Treatment and Educational Services will be the implementing partner of the collaboration spelled out in the MoU.

The Ambassador invited the representatives of Khazar University to a ceremony during which a special award recognizing achievements of Khazar University will be presented. The ceremony will take place on April 27, 2017.







# AZƏRBAYCAN IV BEYNƏLXALQ PSİXOLOGİYA KONFRANSI







Aprelin 22-23-də Xəzər Universitetinin "Neftçilər" korpusunda universitetin Psixologiya departamentinin və Psixoloji Xidmət Mərkəzinin təşkilatçılığı ilə ənənəvi Azərbaycan IV Beynəlxalq Psixologiya Konfransı keçirildi. Konfransda respublikanın müxtəlif bölgələrindən olan mütəxəssislərlə yanaşı, sahəyə maraq göstərən şəxslər də iştirak edirdilər. Konfransa olan bu maraq nəzəriyyə ilə praktikanın bir arada olması ilə sıx bağlı idi

Aprelin 22-də konfransın rəsmi açılışı oldu və məruzələr dinlənildi. Aprelin 23-də isə iştirakçılar əvvəlcədən müəyyən olunmuş vorkşoplarda iştirak etdilər.

Humanitar və sosial elmlər fakültəsinin dekan müavini, Xəzər Psixoloji Xidmət Mərkəzinin direktoru Mələk Kərimova konfransı açıq elan edərək, sözü Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlıya verdi. O, iştirakçıları salamlayaraq, konfransın əhəmiyyətindən danışdı.

Konfrans zamanı yerli və Türkiyədən dəvət olunmuş psixoloqlar və psixiatrlar çıxış edərək, psixologiyanın müxtəlif sahələrini əhatə edən mövzular haqqında məlumat verdilər.

Konfransda İstanbul Bilgi Universitetindən Dos. Dr. Aytən Zara, Sultan Qaboos Universitetinin (Oman) Məktəbəqədər Uşaqların Təhsili kafedrasının müdiri, UNESKO-nun müşaviri Pr.Dr. Ali Kemal Tekin, Hasan Kalyoncu Universitetinin prorektoru, Qara Dəniz Texnik Universitetində akademik fəaliyyət göstərən Pr.Dr. Yaşar Özbay və Antalya Fərdi Terapiya Tibb Mərkəzində psixiatriya üzrə ekspert Pr.Dr. Burhanettin Kaya iştirak edirdilər.

Dos. Dr. Aytən Zara konfransa 6 nəfərdən ibarət "World Human Relief" komandası ilə qatılmışdı. Bu komandanın üzvləri Dilan Bozdağ, Seher Tarhan, Esra Zırhlıoğlu, Tuğçe Merve Aytac, Narlı Yıldız, Kader Tarhan maraqlı çıxış etdilər.

Konfransda uşaqlarda aqressiv, antisosial, emosional və asılı davranış pozuntularının səbəbləri və aradan qaldırılması yolları, pozitiv ailə inkişafı və dayanıqlılıq, uşaqlara qarşı cinsi təcavüz və istismar, travma və onunla əlaqədar pozuntulara qarşı EMDR metodundan istifadə edilməsi haqqında müzakirələr aparıldı.

Konfransın sonunda hər bir iştirakçıya sertifikat verildi

Konfrans iştirakçılarına Xəzər Universitetinin Musiqi və incəsənət departamentinin hazırladığı konsert proqramı təqdim olundu.



# IV INTERNATIONAL CONFERENCE ON PSYCHOLOGY



On April 22-23, IV International Conference on Psychology was held at "Nefchiler" campus of Khazar University with the coordination of the University's Psychology Department and Psychological Counseling Center. Participants included specialists from various regions of the country and people who are interested in the related field. The conference was attractive to many participants because of the tightly interwoven practical and theoretical knowledge it offers.

On April 22, the conference's official opening was held and lectures were presented. On April 23, the participants took part in the workshops.

Melek Karimova, Assistant Dean of the School of Humanities and Social Sciences as well as Director of Khazar Psychological Services Center, opened the conference and gave the floor to Professor Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees. Then Prof. Dr. Ali Kemal Tekin from Oman took the floor. During the conference, lectures were presented by local and Turkish guest psychologists and psychiatrists who spoke about various fields of psychology. Conference participants included Assistant Professor Dr. Ayten Zara, Istanbul Bilgi University; Pr.Dr. Ali Kemal Tekin, Sultan Qaboos University, Head of the Department of Early Childhood Education, UNESCO Consultant; Pr.Dr. Yashar Ozbay, Vice-rector of Hasan Kalyoncu University, academician at Black Sea Technical University and Pr. Dr. Burhanettin Kaya, an expert on psychiatry in Medical Center for Individual Therapy in Antalya. Associated Prof. Dr. Ayten Zara participated in the conference with a 6- people team called "World Human Relief". The members of this team Dilan Bozdagh, Seher Tarhan, Esra Zirhlioghlu, Tugce Merve Aytac, Narli Yildiz, and Kader Tarhan delivered their speeches.

The topics discussed during the conference included causes and ways of preventing aggressive, antisocial, emotional behavioral disorders in children, positive development and stability of family, sexual abuse and exploitation of children, trauma and using EMDR methods in disorders associated with it.

At the end of the conference, all the participants were awarded a certificate.

A concert program by Department of Music and Fine Arts was introduced to the conference participants.



## MARMARA GRUPU VƏQFİNİN BAŞ DİREKTORU XƏZƏR UNİVERSİTETİNDƏ

Aprelin 24-də Türkiyə Marmara Grupu Vəqfinin Baş direktoru Prof. Dr. Akkan Suver Xəzər Universitetinin qonağı oldu. Universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı onu səmimi salamlayaraq, universitet haqqında geniş məlumat verdi. A. Suver Xəzər Universitetində olmaqdan məmnunluq duyduğunu bildirdi. H.İsaxanlı qonağa universitetin tarixindən bəhs edən "Xəzərin sorağında" kitabını hədiyyə etdi. Tərəflər Azərbaycan və Türkiyə arasında siyasi və mədəni əlaqələr tarixi və qarşılıqlı maraq kəsb edən digər məsələlər haqqında müzakirə apardılar.

Görüşdə universitetin Direktorlar və Qəyyumlar Şurasının müşaviri, "Dünya" məktəbinin təsisçisi Nailəxanım İsayeva, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli də iştirak etdilər.

## GENERAL DIRECTOR OF MARMARA GROUP FOUNDATION AT KHAZAR UNIVERSITY

On April 24, Prof. Dr. Akkan Suver, General Manager of Marmara Group Foundation visited Khazar University. After greeting Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, gave thorough information about the university to Marmara Group Foundation General Manager. Akkan Suver expressed his satisfaction with his visit to Khazar University. Hamlet Isakhanli presented to the guest the book "In Search of Khazar "which deals with the history of Khazar University. The history of political and cultural relations between Azerbaijan and Turkey, and other issues of mutual interest were covered during the meeting.

Nailakhanim Isayeva, Advisor to the Chairman and Founder of "Dunya" school and Alovsat Amirbayli , Director of Public Relations and Media, also participated in the meeting.

# Təbrik Edirik !

## "XƏZƏR"DƏ YUBİLEY MƏRASİMİ

## JUBILEE EVENT AT KHAZAR



Aprelin 24-də Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müdiri, tarix elmləri üzrə fəlsəfə doktoru, universitet fəaliyyətə başlayandan burada çalışan Roza Arazovanın 70 illiyi münasibətilə yubiley tədbiri keçirildi.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı çıxış edərək, ötən illər ərzində Roza Arazovanın yüksək səviyyəli tarixçi kadrların hazırlanmasında, departamentin gənc müəllimlərin əsl peşəkar kimi yetişməsində misilsiz xidmətlərindən, tələbələrə böyük diqqətlə yanaşı, həm də ciddi tələbkarlıqla yanaşmasından, səriştəli pedaqoq, səmimi, qayğıkeş bir insan kimi universitet kollektivinin dərin hörmətini qazanmasından danışdı, yubilyarı təbrik edərək, ona uzun ömür və fəaliyyətində uğurlar arzuladı.

Xəzər Universitetinin rektoru Hassan Niknafs, Akademik işlər üzrə prorektor Məhəmməd Nuriyev, İdarəetmə və tələbə işləri üzrə prorektor İsaxan İsaxanlı, "Dünya" məktəbinin təsisçisi Nailəxanım İsayeva, Humanitar və sosial elmlər fakültəsinin dekanı Cabir Xəlilov, baş müəllim Firəngiz Nəsirova, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli də yubilyara öz təbriklərini və ürək sözlərini çatdırdılar..

Tədbirin sonunda Roza Arazova yubiley tədbirinin təşkilinə görə universitet rəhbərliyinə və iştirakçılara təşəkkürünü bildirdi.

On April 24, 70th jubilee event of Roza Arazova, Head of the Department of History and Archeology at Khazar University, was held. Roza Arazova has been working at Khazar University since the very start of the university.

Prof. Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, delivered a speech emphasizing Roza Arazova's immense effort on training high-level historians for years, and on growth of young teachers of the department as professionals, her attitude toward the students with all her strictness and great care, her winning the hearts of her colleagues as an experienced pedagogue, sincere and attentive person. The Founder adressed his congratulations to Roza Arazova and wished her long life and success in her career.

Hassan Niknafs, Rector of Khazar University; Mahammad Nuriyev, Vice-rector of Academic Affairs; Isakhan Isakhanli, Vice-rector of Management and Student Affairs; Nailakhanim Isayeva, the Founderof "Dunya" school; Jabir Khalilov, the Dean of Humanities and Social Sciences Faculty; Firangiz Nasirova, Head teacher; Alovsat Amirbeyli, the Director of Public Relations and Media congratulated Roza Arazova and expressed their heartfelt words.

At the end, Roza Arazova expressed her gratitude to the management and participiants for organizing the event.



## REKTOR HASSAN NİKNAFS RUMINİYANIN AZƏRBAYCANDAKI SƏFİRİ İLƏ GÖRÜŞDÜ

Aprelin 26-da Xəzər Universitetinin rektoru Dr. Hassan Niknafs Rumıniyanın Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri cənab Dan İanku və Rumıniyanın Qadınlar və Kişilər Arasında Bərabər İmkanlar üzrə Milli Agentliyinin nümayəndəsi PhD Aurora Martin ilə görüşdü.

Görüşdən sonra PhD Martin "Qlobalizasiya və insan alveri" mövzusunda məruzə ilə çıxış etdi. Təqdimat Siyasi elm və beynəlxalq münasibətlər departamentinin təşkil etdiyi Jan Monne Avropa seminarlar silsiləsinin növbəti tədbiri idi.

## RECTOR HASSAN NIKNAFS MEETS WITH AMBASSADOR OF ROMANIA TO AZERBAIJAN

On 26 April, Dr. Hassan Niknafs, the rector of Khazar University met with Mr. Dan Ianku, Ambassador Extraordinary and Plenipotentiary of Romania to Azerbaijan and PhD Aurora Martin, the representative of National Agency of Romania on Equal Opportunities Between Women and Men. After the meeting, PhD Martin gave a presentation on "Globalization and human trafficking". The presentation was the latest event in the series of Jean Monnet European seminars held by the Department of Political Science and International Relations.






# HERE SEMINAR ON STUDENTS IN FOCUS

Development Director of Khazar University, Raziya Isayeva participated in HERE Seminar: Students in Higher Education Policy Reform. The Seminar was devoted to the Student Engagement, and major discussions were around the Student as partners in higher education governance and quality assurance. Key speakers of the seminar were Fernando Galan, European Students' Union (ESU); Sean O'Reilly, Irish Survey of Student Engagement Project; Jyri Lahdesmaa, Board Member, National Union of University Students in Finland; Eve Lewis, Director of SPARQS; Mayaan Hagage, Isreali Students' Union.

The seminar has involved all the participants from 27 different countries into the discussions by breaking down them by the topics. The first break-out was on Enabling Students in University Governance, the second one Students in Quality Assurance, and the third one was on Students in National Reform Process. All these discussions were first based on the thoughts and ideas on the topics and then participants finalized by it by recommendations what might be done to improve the situation at national, institutional and individual levels.

The seminar was hosted by NARXOZ University, Almaty, Kazakhstan on April 5-6, 2017. The seminar ended with many new ideas of cooperation, training and development programs within different regions.

## PROFESSOR HAMLET İSAXANLI ATV-NİN "KEÇMİŞƏ BAXANDA" VERİLİŞİNDƏ

Aprelin 2-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar şurasının sədri professor Hamlet İsaxanlı ATV-nin "Keçmişə baxanda" verilişinin qonağı oldu və aparıcı Günay Firudin qızının suallarını cavablandırdı. O həm təbiət elmləri, həm də humanitar və sosial elmlər sahəsindəki yaradıcılığı, beynəlxalq fəaliyyəti, təbiətlə ünsiyyəti, poetik yaradıcılığı və həyatının bəzi məqamları barəsində danışdı.

## PROFESSOR HAMLET ISAXANLI ON "IN RETROSPECT" PROGRAM ON ATV

On April 2, Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, was a guest on the "Reflecting on the Past" program of ATV. The program was hosted by Gunay Firudin qizi – Prof. Isaxanli answered her questions. He spoke about his scientific research and research in the humanities, his international activities, memories of his life, administrative tasks, his spiritual relationship to Nature and poetry.

FireWorks
HUMAN RESOURCES MANAGEMENT

## "FIREWORKS" ŞİRKƏTİ XƏZƏR UNİVERSİTETİNDƏ TƏLİM KEÇİRDİ

Aprelin 3-də "Fireworks" İnsan Resursları Şirkəti tərəfindən Siyasi elm və beynəlxaq münasibətlər departamentinin tələbələri üçün peşəkar rezyume hazırlamağın və iş müsahibəsindən uğurla keçməyin yolları haqqında təlim keçirildi. Təlimdə tələbələrin CV-lərinə fərdi şəkildə rəy bildirən "Fireworks" əməkdaşları onlara iş müsahibəsi zamanı davranış qaydaları haqqında da məlumat verdilər.

Qeyd edək ki, təlim 2017-ci il fevralın 27-dən etibarən departament tərəfindən davam etdirilən İşgüzarlıq və Peşəkar Bacarıqların İnkişafı üçün Təlim Proqramının tərkib hissəsi olaraq keçirilmişdir.

## "FIREWORKS" COMPANY HOLDS TRAINING AT KHAZAR UNIVERSITY

On April 3, "Fireworks" Human Resource Company held the training for the students of the Department of Political Science and International Relations on writing a professional resume and how to pass a job interview successfully. In the training, the employees of "Fireworks" company commented on the students' CVs individually and informed them about the code of behavior in job interviews.

The event was held within the framework of the ongoing Training Program of Developing Professional and Business Skills in the department beginning from February 27, 2017.

Azad fikirli jurnalistlərin qəzeti!
Gündəm Xəbər
Gündəlik müstəqil ictimai-siyasi qəzet

## ƏRƏBLƏR AZƏRBAYCANA HƏM DƏ XƏZƏR UNİVERSİTETİNİN TƏLƏBƏSİ OLMAQ ÜÇÜN GƏLİRLƏR

Aprelin 9-da jurnalist Gülər Abbasovanın son illər ərəb ölkələrindən Azərbaycana müxtəlif məqsədlərlə gələnlərlə bağlı apardığı araşdırma müxtəlif media səhifələrində yayımlanmışdır. Araşdırmada Azərbaycana gələn ərəblər arasında Xəzər Universitetini təhsil almaq üçün seçənlər də yer alırlar.

Araşdırmanı bu linklər vasitəsilə oxumaq olar:

*http://xeber365.com/haber-r-b-olk-l-rind-n-az-rbaycana-g-l-nl-rin-hekay-tl-ri-5472.html*

*http://gundemxeber.az/olke/29451-ereb-olkelerinden-azerbaycana-niye-gelirler-arashdrma.html*

## THE ARABS VISITING AZERBAIJAN, ALSO PURSUE THE GOAL OF BECOMING STUDENTS AT KHAZAR UNIVERSITY

On April 9, the research on the goals of visitors to Azerbaijan from Arabic countries, conducted by the journalist Gular Abbasova, was introduced on the media. Among the interviewed Arabs there are also those who chose Khazar University for getting education. The research is available through the following links:

*http://xeber365.com/haber-r-b-olk-l-rind-n-az-rbaycana-g-l-nl-rin-hekay-tl-ri-5472.html*

*http://gundemxeber.az/olke/29451-ereb-olkelerinden-azerbaycana-niye-gelirler-arashdrma.html*

# VTU - NUN NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

VIT UNIVERSITY
(Estd. u/s 3 of UGC Act 1956)
VELLORE ■ CHENNAI

Aprelin 11-də Vellor Texnologiya Universitetinin (VTU, Hindistan) Beynəlxalq Əlaqələr Ofisinin direktor müavini Xəzər Universitetində olub, universitetin rektoru Dr. Hassan Niknafs və Beynəlxalq Əlaqələr Ofisinin direktoru Turan Cəfərova ilə görüşdü.

Dr. R. Seenivasan Xəzər Universiteti ilə tələbə və müəllim mübadiləsi, qısamüddətli yay və qış proqramları, birgə tədqiqat və dərəcə proqramları, eləcə də qarşılıqlı maraq kəsb edən digər sahələrdə əməkdaşlıq etmək niyyətini ifadə etdi.

Qeyd üdək ki, Vellor Texnologiya Universiteti Hindistanın Vellor şəhərində 1984-cü ildə yaradılmış özəl universitetdir.

# MEETING WITH VIT UNIVERSITY

On April 11, a representative of the VIT University (India) visited Khazar University's Neftchiler campus and met with the Rector, Dr. Hassan Niknafs and Director of the International Affairs Office Ms. Turan Jafarova.

Dr. R. Seenivasan, Assistant Director of International Relations, expressed his interest in collaborating with Khazar University in student and faculty exchange, organizing short-term summer and winter programs, joint research and degree programs as well as in other areas of mutual interest.

VIT (Vellore Institute of Technology) is a private university in Vellore, India, which was established in 1984.

# XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞLARI BEYNƏLXALQ SİMPOZİUMDA

Aprelin 10-dan 13-dək Türkiyənin Qazi Universitetində Türkiyə Cumhuriyyəti Baş Nazirliyi Atatürk Mədəniyyət, Dil və Tarix Qurumu, Türk Tarix Qurumu və Qazi Universitetinin birgə əməkdaşlığı ilə "Beynəlxalq Pr. Dr. Halil İnalcık Tarix və Tarixçilik Simpoziumu" təşkil edilmişdi.

Simpoziumda Xəzər Universitetinin əməkdaşları da iştirak edirdilər. Dillər və mədəniyyətlər departamentinin dosenti Elnurə Əzizova "Milli tarix yazıçılığında dəyişkənlik və davamlılıq: Sovet və Postsovet Azərbaycan tarixçiliyində Türkiyə, İran və Rusiya alqısının qarşılıqlı analizi (Tarix dərslikləri çərçivəsində)", həmin departamentin dosent əvəzi Zivər Hüseynli "XVI yüzil Səfəvi qaynaqlarında türk kimliyinə dair bir incələmə" adlı məruzələrlə çıxış etdilər.

Simpoziumun sonunda bütün iştirakçılara sertifikat təqdim olundu.




# KHAZAR STAFF MEMBERS IN THE INTERNATIONAL SYMPOSIUM

2017 April 10-13, "The International Symposium on Prof. Halil Inalcık History and Historiography" was organized at Gazi University, Turkey in joint cooperation with Prime Ministry Higher Institution of Ataturk Culture, Language and History, Turkish Historical Society and Gazi University.

Representatives of Khazar university also took part in the symposium. Elnura Azizova, PhD in theology, associate professor of the Department of Languages and Civilizations of University gave a presentation on "Volatility and Continuity in National History Writing: mutual analysis on perception of Turkey, Iran, Russia in Soviet and Post-Soviet Azerbaijan (in the framework of history books). Zivar Huseynli, PhD in Philology, acting associate professor of the department also made a speech on "An Overview of the Turkish Identity in the Sixteenth Century Safavid Sources"

At the end of the symposium, all participants were given certificates.




## "XƏZƏR"İN DOKTORANTININ MƏQALƏSİ AMERİKA VƏ RUSİYADA ÇAP OLUNUB

2017-ci ilin martında Xəzər Universiteti Humanitar və sosial elmlər fakültəsinin dekan köməkçisi, universitetin doktorantı Validə Kərimovanın "Language Ethics: Linguo Psychology And Psycholinguistics; Analysis of The Language With Psychological Problems" ("Dil etikası: Linqvopsixologiya və psixolinqvistika. Dilin psixoloji problemlərlə təhlili") adlı məqaləsi Amerikanın "Science Publishing Group" nəşriyyat evinin "Psychology and Behavioral Sciences" adlı elmi jurnalında, "Развитие иностранных языков как способ общественной дипломатии" (Xarici dillərin inkişafı ictimai diplomatiya vasitəsi kimi) adlı məqaləsi isə Rusiyanın Tatarıstan Respuvlikasının Kazan şəhərində "Молодой ученый" adlı elmi jurnalın 14-cü sayında çap edilmişdir.

Birinci məqalədə psixolinqvistika məktəb və istiqamətlərindən, ikinci məqalədə (https://moluch.ru/archive/148/41511/) müasir dövrdə xarici dillərin hansı məqsədlərlə istifadə edilməsindən əhatəli bəhs olunmuşdur.

## PHD STUDENT OF KHAZAR UNIVERSITY PUBLISHES ARTICLE IN AMERICA AND RUSSIA

In March 2017, the article of Valida Kerimova, PhD candidate and Dean's assistant of School of Humanities and Social Sciences at Khazar University, entitled "Language Ethics: Linguo Psychology and Psycholinguistics; Analysis of The Language with Psychological Problems" was published in the scientific journal "Psychology and Behavioral Sciences" by the publishing house "Science Publishing Group". Another article authored by Valide Karimova, "Развитие иностранных языков как способ общественной дипломатии" was published in 14th issue of the scientific journal "Молодой ученый" printed in Kazan, Tatarstan (Russian Federation).

The first article deals with schools and directions in psycholinguistics (https://moluch.ru/archive/148/41511/), while the second one with language usage aims in contemporary world.




## PROFESSOR`S INTERVIEW FOR NEWSPAPER "SHERG"

On April 12, an interview with Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, was published on the official website of the newspaper "Sherg".

The full version of the interview is available at the following link:

*http://www.sherg.az/site/id-29292/Kanadaya_getmək_istəyən_varmi?-__Professor_o_gözəl_ölkədən_danışır*





## SEMİNAR: "XARİCİ DİL DƏRSLƏRİNDƏ İNTERAKTİV TƏLİM METODLARI"

Aprelin 14-15-də Xəzər Universitetinin İnkişaf Mərkəsinin və Estoniyanın OÜ Lingatore təşkilatının birgə əməkdaşlığı ilə məşhur "English Language Portfolio" proqramı əsasında "Xarici dil dərslərində interaktiv təlim metodları" mövzusunda seminar keçirildi. Seminarda Xəzər Universitetinin, digər universitetlərin və liseylərin ingilis dili müəllimləri iştirak edirdilər.

Seminarı giriş sözü ilə universitetin rektoru Dr.Hassan Niknafs açaraq, seminar iştirakçılarına uğurlar arzuladı.

Qeyd edək ki, seminar ali və orta məktəblərdə dərs deyən ingilis dili müəllimləri və xarici dil dərslərinin tədrisi ilə maraqlanan digər şəxslər üçün təşkil olunmuşdu. Seminarda praktik nümunələr və rollu oyunlar əsasında müəllimlərə konkret, praktik fəal tədris metodlarının tətbiq edilməsi yolları, müxtəlif mövzulara və həmçinin, yaş həddinə uyğunlaşdırılmış fəal tədris metodları və digər metodlar öyrədildi. Həmçinin, filmlərdən dərs prosesində istifadənin əhəmiyyəti və yolları göstərildi.

Seminarın sonunda iştirakçılara sertifikat təqdim olundu. Həmçinin, Xəzər Universiteti tərəfindən estoniyalı təlimçilərə hədiyyələr verildi və qonaqlar Xəzər Universitetinin "Dünya" konsert salonunda xalq artisti, professor, tarzən "Ramiz Quliyev ilə üz-üzə" adlı görüş-konsertdə iştirak etdilər.

## WORKSHOP ON «INTERACTIVE TRAINING METHODS IN FOREIGN LANGUAGE CLASSES»

On April 14-15, a workshop, entitled "Interactive Teaching Methods In Foreign Language Classes " was held in a partnership with Khazar University Development Center and Estonia OÜ Lingator on the basis of famous "English Language Portfolio" program. Teachers of Khazar University and other universities and lyceums took part in the workshop. Dr. Hassan Niknafs, President of Khazar University, made the opening speech and wished success to all the participants.

It should be noted that the workshop was intended for university and high school English teachers and those interested in teaching foreign languages. The ways of applying specific, practical active teaching methods based on practical examples and role- plays, active teaching methods on various topics, as well as ones adjusted to age limit were covered in the workshop.The importance and techniques of using movies during lessons were also introduced.

At the end of the workshop, certificates were presented to the participants. Estonian trainers were given gifts by Khazar University as well, and they participated in the meeting- concert entitled "Face-to-face with Ramiz Guliyev," People's Artist of Azerbaijan, professor, tar player, at Khazar University "Dunya" concert hall.




# "XƏZƏR XƏBƏR"İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU

## "MOLLA PƏNAH VAQİF VƏ AZƏRBAYCAN REALİZMİ" MÖVZUSUNDA ELMİ SESSİYA

Aprelin 7-də AMEA Nizami adına Ədəbiyyat İnstitutunda görkəmli Azərbaycan şairi və ictimai xadim Molla Pənah Vaqifin anadan olmasının 300 illiyinə həsr olunmuş "Molla Pənah Vaqif və Azərbaycan realizmi" mövzusunda elmi sessiya keçirilib.

AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli sessiyanı giriş sözü ilə açaraq bildirib ki, bugünki sessiya Molla Pənah Vaqifin 300 illik yubileyinin keçirilməsi haqqında Respublika Prezidentinin 12 yanvar 2017-ci il tarixli Sərəncamına müvafiq olaraq təşkil edilib. Molla Pənah Vaqifin həyat və yaradıcılığını müasir baxış istiqamətindən şərh edən akademik İsa Həbibbəyli Prezident sərəncamını, həmçinin şairin adının YUNESKO-nun "2016–2017-ci illər üçün görkəmli şəxslərin və əlamətdar hadisələrin yubileyləri proqramı"na daxil edilməsini Azərbaycan ədəbiyyatına verilən yüksək dəyər olduğunu qeyd edib. Söyləyib ki, TÜRKSOY tərəfindən də 2017-ci il "Vaqif ili" elan edilib. Akademik İsa Həbibbəyli onu da qeyd edib ki, Prezidentin Sərəncamına uyğun olaraq respublikada keçiriləcək tədbirlərə Nizami adına Ədəbiyyat İnstitutunun keçirdiyi bu sessiya ilə başlanılır.

Sonra institutun Erkən yeni dövr Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri, filologiya elmləri doktoru Mahirə Quliyeva, XX əsr (sovet dövrü) Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Şirindil Alışanlı, institutun elmi katibi, filologiya üzrə fəlsəfə doktoru, dosent Aygün Bağırlı və Erkən yeni dövr Azərbaycan ədəbiyyatı şöbəsinin kiçik elmi işçisi Şəfəq Tağıyevanın Vaqifin yaradıcılığı ilə əlaqədar məruzələri dinlənilib.

Sessiyada Molla Pənah Vaqifin 250 illik yubiley tədbirini, eləcə də Vaqif məqbərəsinin açılşını əks etdirən sənədli film nümayiş etdirilib.



# AVROPA İTTİFAQININ BEYNƏLXALQ EKSPERTLƏRİ İLƏ GÖRÜŞ

Aprelin 20 də Nizami adına Ədəbiyyat İnstitutunun Elektron akt zalında Milli Məclisin Elm və təhsil komitəsinin üzvləri Avropa İttifaqının beynəlxalq ekspertləri ilə görüşüblər.

Milli Məclisin Elm və təhsil komitəsinin sədri, akademik İsa Həbibbəyli peşə təhsili üzrə Azərbaycan Respublikasının Qanun layihəsi üzrə işçi qrupunun üzvlərinin, aidiyyatı dövlət qurumları nümayəndələrinin, beynəlxalq əlaqələr üzrə mütəxəssislərin, təhsil ekspertlərinin iştirak etdiyi tədbiri giriş sözü ilə açaraq görülmüş işlərdən, qarşıda duran vəzifələrdən danışıb. Son illərdə Azərbaycanda elm və təhsil sahələrinin inkişafından, dövlət rəhbərliyi tərəfindən qarşıya qoyulmuş prioritet istiqamətlərdən ətraflı danışan akademik İsa Həbibbəyli bu gün ölkəmizdə peşə təhsilinə də xüsusi əhəmiyyət verildiyini diqqətə çatdırıb. Bu məqsədlə ölkə rəhbərliyi tərəfindən həyata keçirilən məqsədyönlü tədbirlərin əhəmiyyətindən danışan akademik İsa Həbibbəyli peşə təhsili üzrə Azərbaycan Respublikası Qanun layihəsinin hazırlıq mərhələsində olduğunu, bu məqsədlə işçi qrupunun üzərinə düşən vəzifələrin xüsusi önəm kəsb etdiyini bildirib. Akademik İsa Həbibbəyli həmin qanun layihəsinin hazırlanmasında müasir dünya və Avropa təcrübəsinin öyrənildiyini, eləcə də Şərq ölkələrinin mövcud modellərinin nəzərdən keçirildiyini və Azərbaycan reallıqlarının əsas kimi qəbul edildiyini diqqət mərkəzinə çatdırıb.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru Famil Mustafayev ölkəmizdə peşə təhsilinə dövlət dəstəyindən və qarşıya qoyulmuş vəzifələrdən söz açıb.

Avropa İttifaqının eksperti, Azərbaycanda Peşə təhsilinə və təliminə Avropa İttifaqının dəstəyi layihəsinin qrup rəhbəri Herman Sonneveld çıxış edərək, peşə təhsili üzrə Avropa modelindən danışıb, müasir dünya standartları haqqında məlumat verib. Sonra Avropa İttifaqının Hüquqi çərçivə üzrə baş eksperti Roger Hessel çıxış edərək, Avropa İttifaqi tərəfindən maliyyələşdirilən Azərbaycanda Peşə Təhsili və Təliminə Dəstək Layihəsini təqdim edib. Dahi Nizami Gəncəvinin "Mahir bir palançı olsa da insan, Yaxşıdır yarımçıq papaqçılıqdan" məşhur misralarını xatırladan avropalı qonaq mükəmməl peşə təhsilinin hər bir ölkənin qarşısında duran prioritet istiqamətlərdən biri olduğunu diqqətə çatdırıb.

Avropa peşə təhsilinə dərindən bələd olan, Hüquqi məsələlər üzrə uzunmüddətli mütəxəssis Firdovsi Mütəllimov və tərcüməçi, layihə köməkçisi İlkin Cəlilov görüş iştirakçılarını maraqlandıran sualları ətraflı cavablandırıblar.

Səmərəli müzakirələrdə Milli Məclisin deputatları - Elm və təhsil komitəsi sədrinin müavini, AMEA-nın müxbir üzvü Bəxtiyar Əliyev, Asim Mollazadə, Ülviyyə Ağayeva və Rəşad Həsənov mövzu üzrə fikir və mülahizələrini bildiriblər. Milli Məclisin Elm və təhsil komitəsində Peşə təhsili üzrə üşçi qrupun üzvləri, Peşə Təhsili üzrə Dövlət Agentliyinin İşəgötürənlərlə əlaqələr və peşəyönümü şöbəsinin müdiri Eldar Salahov, Peşə təhsili müəssisələrinin idarəedilməsi, keyfiyyətin təminatı və monitorinq şöbəsinin müdiri Amil Əlili, həmin şöbənin baş məsləhətçisi Məcid Bayramlı,Təhsil standartları və təhsil proqramı üzrə baş məsləhətçi İlqar Nadirov, Azərbaycan Respublikası Təhsil İnstitutunun Peşə - ixtisas təhsili şöbəsinin müdiri Rəsul Əsgərov ölkəmizdə mövcud olan peşə məktəbləri, onların hazırkı durumu, müxtəlif səpkili statistik göstəricilər və s. barədə məlumat verərək, adı çəkilən qanun layihəsi üzrə təkliflərini səsləndiriblər.

Sonda Elm və təhsil komitəsinin sədri, akademik İsa Həbibbəyli belə səmərəli müzakirələrin bundan sonrakı mərhələlərdə də uğurla davam etdiriləcəyinə əminliyini bildirib.



## AMERİKALI PROFESSOR "İCTİMAİ DANIŞIQ" MÖVZUSUNDA SEMİNAR KEÇİRDİ

Aprelin 17-ində Xəzər Universitetinin "Neftçilər" korpusunda "İctimai danışıq" mövzusunda seminar keçirildi. Seminarın qonağı Amerikanın Georgetown Universitetinin professoru Dr. Sam Potolicchio idi.

Humanitar və sosial elmlər fakültəsinin tələbələrinin iştirakı ilə gerçəkləşən seminarda iştirakçılara effektiv ictimai danışığın sirləri, siyasi kommunikasiya və nitq öncəsi həyəcanın qarşısının alınması yolları haqqında danışıldı.

Seminar ABŞ-ın Azərbaycandakı səfirliyinin təşəbbüsü ilə Xəzər Universiteti Peşə İnkişaf Mərkəzi və Beynəlxalq Əlaqələr Ofisi tərəfindən təşkil olunmuşdu.

Çıxışın ardınca Dr. Potolicchio universitetin rektoru Dr. Hassan Niknafs ilə görüşdü.

## AMERICAN PROFESSOR HOLDS WORKSHOP ON "PUBLIC SPEAKING"

On April 17, a workshop on" Public Speaking" was held at Khazar University, "Neftchiler" campus. The guest of the workshop was, Dr. Sam Potolicchio, Professor of Georgetown University, USA.

The one hour workshop, attended by the student of School of Humanities and Social Sciences, covered the following topics - the secrets of effective public speaking, political communication and ways of avoiding anxiety before speech.

The workshop was organized by Khazar University Career Development Center and Office of International Affairs with initiative of the US Embassy in Azerbaijan.

After the presentation, Dr. Potolicchio met with Hassan Niknafs, President of the University.

## PROFESSOR HAMLET İSAXANLININ İŞTİRAK ETDİYİ YUBİLEY TƏDBİRİ HAQQINDA "ANADOLU" QƏZETİNDƏ MƏQALƏ

Ankarada çıxan "Anadolu" qəzetinin 24 aprel 2017-ci il tarixli nömrəsində qəzetin köşə yazarı, eyni zamanda Azərbaycan "Respublika" qəzetinin Türkiyə təmsilçisi, Azərbaycanın Əməkdar incəsənət xadimi, Prof. Dr. Əflatun Nemətzadənin TÜRKSOY-un (Beynəlxalq Türk Mədəniyyət Təşkilatı) Baş katibi Düsen Kaseinovun 70 illik yubileyi münasibətilə Azərbaycan Atatürk Mərkəzində keçirilmiş tədbir haqqında "Düsen Ağa'ya Bakü'de 70. Yılı yubilesi" adlı geniş məqaləsi dərc olunmuşdur.

Məqalədə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının həmin tədbirdə iştirakı və çıxış etməsi, həmçinin ona Düsen Kaseinov tərəfindən "Azerbaycan, Kazakıstan, Kırgızıstan, Özbekistan Cumhuriyetlerinin ve Türkmenistan'ın bağımsızlıklarının 25. Yılı anısına" medalının təqdim olunması haqqında da yazılmışdır.

Məqaləni aşağıdakı link vasitəsilə oxumaq olar:
*http://www.anadolugazete.com.tr/dusen-agaya-bakude-70-yili-jubilesi-415yy.htm*

## PROFESSOR HABİL MƏMMƏDOV QAFQAZŞÜNASLARIN BİRİNCİ BEYNƏLXALQ FORUMUNDA

Aprelin 17-18-də AMEA Rəyasət Heyəti və Qafqazşünaslıq İnstitutunun təşkilatçılığı ilə Bakıda Qafqazşünasların Birinci Beynəlxalq Forumu keçirilmişdir.

Forumda Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin müəllimi professor Habil Məmmədov da iştirak edirdi. O, "Polşanın Cənubi Qafqaz siyasəti" mövzusunda məruzə ilə çıxış etmiş və bölmələrdən birinin iclasına sədrlik etmişdir.

## PROFESSOR HABIL MAMMADOV IN THE 1ST INTERNATIONAL FORUM OF CAUCASUS STUDIES SCHOLARS

On April 17-18, Prof. Habil Mammadov, instructor of the department of History and Archeology at Khazar University participated in the 1st International Forum of Caucasus Studies Scholars held in Baku with the coordiantion of the the Presidium of Azerbaijan National Academy of Sciences (ANAS) and the Institute of the Caucasus Studies. He gave a presentation on "Poland policy in the South Caucasus" and presided the meeting of the XII section.



## ARTICLE IN "ANADOLU" NEWSPAPER ON JUBILEE ATTENDED BY PROF. HAMLET ISAKHANLI

ANADOLU
Sessiz Çoğunluğun Gazetesi

On April 24, the article of Prof. Dr. Aflatun Nemetzadeh, columnist in "Anadolu", Turkey's representative of Azerbaijani newspaper "Republic", Honored Artist of Azerbaijan, was published in the newspaper "Anadolu". The article , entitled "Düsen Ağa´ya Bakü´de 70. Yılı yubilesi", was dedicated to the 70th jubilee of Dusen Kaseinov, Secretary-General of TURKSOY (International Organization of Turkic Culture), held in Ataturk Center in Azerbaijan.

The participation and speech of Prof. Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, in the event, as well as his being awarded a medal- "In commemoration of the 25th Anniversary of the Independence of Azerbaijan, Kazakhstan, Kyrgyzstan, Uzbekistan and Turkmenistan "by Dusen Kaseinov were covered in the article.

The full version of the article is available at the following link:

*http://www.anadolugazete.com.tr/dusen-agaya-bakude-70-yili-jubilesi-415yy.htm*

## “Gr8” ŞİRKƏTİ XƏZƏR UNİVERSİTETİNİN TƏLƏBƏLƏRİ ÜÇÜN TƏLİM KEÇİRDİ

Aprelin 17-də “GR8” şirkəti Xəzər Universiteti Siyasi elm və beynəlxalq münasibətlər departamentinin tələbələri üçün peşəkar e-mail yazma qaydaları mövzusunda təlim keçirdi. Təlim “GR8” şirkətinin həmtəsisçisi və “Fairmont Baku” otelinin təlim meneceri Aygün Novruzova tərəfindən keçirildi. İnteraktiv şəkildə keçirilən təlimdə tələbələrə əsasən e-mail yazarkən əməl olunmalı qaydalar və ən çox rast gəlinən səhvlər izah edildi.

Qeyd edək ki, sözügedən təlim Xəzər Universiteti Siyasi elm və beynəlxalq münasibətlər departamentinin təşkil etdiyi 10 həftəlik İşgüzarlıq və Peşəkar Bacarıqların İnkişafı üçün Təlim Proqramının tərkib hissəsi olaraq baş tutdu.

## TRAINING OF “GR8” COMPANY FOR KHAZAR UNIVERSITY STUDENTS

On Aprel 17, “GR8” company conducted a training session on professional e-mail writing rules for students of Political Science and International Relation Department of Khazar University. The training was conducted by Aygun Novruzova, “GR8” company co-founder and training manager of “Baku Fairmont” Hotel. The training was held interactively and covered rules that must be followed and the most common mistakes while writing an e-mail.

It should be noted that, mentioned training took place as a part of 10- week Training Program for the Development of Entrepreneurship and Professional Skills organized by Political Science and International Relation Department of Khazar University.

## “SƏSLƏN, TARIM” ADLI TƏDBİR “MƏDƏNİYYƏT”DƏ

“Mədəniyyət” qəzetinin 19-da aprel 2017-ci il tarixli nömrəsində aprelin 14-də Xəzər Universitetin “Dünya” konsert salonunda görkəmli tarzən, xalq artisti, professor Ramiz Quliyevin 70 illik yubileyinə həsr olunmuş “Səslən, tarım” adlı tədbir haqqında yazı çap olunmuşdur.

Yazı ilə “Mədəniyyət” qəzetinin 29-cu nömrəsində (№ 29 (1417) 19 aprel 2017-ci il) tanış olmaq olar.

## “PLAY, MY TAR” IN “MƏDƏNİYYƏT” NEWSPAPER

On April 19, an article was published in the newspaper “Mədəniyyət” (“Culture”) about the event held on the 14th of April at Khazar University “Dunya” concert hall devoted to the outstanding tar player, People's Artist, Prof. Ramiz Guliyev's 70th jubilee.

The article is available in the 29th edition of “Culture” newspaper (№ 29 (1417) April 19, 2017).

## MÜQAYİSƏLİ ƏDƏBİYYAT VƏ MƏDƏNİYYƏTƏ HƏSR OLUNMUŞ ELMİ - PRAKTİK KONFRANS

Aprelin 20-21-də Xəzər Universiteti və Azərbaycan Müqayisəli Ədəbiyyat Assosiasiyasının birgə təşkilaçılığı ilə universitetin “Neftçilər” korpusunda “Müqayisəli ədəbiyyat və mədəniyyət: təkrarlanan mədəniyyətlərdə prototiplər və genomlar” adlı elmi-praktik konfrans keçirildi.

Konfransı giriş sözü ilə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı açaraq, qonaqları salamladı. Azərbaycan Müqayisəli Ədəbiyyat Assosiasiyasının prezidenti professor Rəhilə Qeybullayeva qonaqlara konfrans haqqında geniş məlumat verdi. Sonra ədəbiyyat və mədəniyyətin müxtəlif sahələri ilə əlaqədar məruzələr dinlənildi. Konfransda Finlandiya, Türkiyə və Rusiyadan alimlər iştirak edirdilər.

## SCIENTIFIC AND PRACTICAL CONFERENCE ON COMPARATIVE LITERATURE AND CULTURE

On April 20-21, scientific-practical conference entitled “Comparative Literature and Culture: Prototypes in Recycling Cultures and Cultural Genomes” was held at “Nefchiler” campus of Khazar University with the coordination of Khazar University and Azerbaijan Comparative Literature Association. Professor Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, welcomed guests by opening the conference with introductory remarks. Then, Professor Rehile Geybullayeva, the president of Azerbaijan Comparative Literature Association gave detailed information to the guests about the conference. Later, lectures related to various spheres of literature and culture were presented. Scientists from Finland, Turkey and Russia took part at the conference.

# ALMAN ŞİRKƏTİNİN NÜMAYƏNDƏLƏRİ XƏZƏR UNİVERSİTETİNDƏ

ROHDE & SCHWARZ

Aprelin 5-də Almaniyanın "Rohde& Schwarz" şirkətinin səlahiyyətli nümayəndələri Xəzər Universitetində Elektronika və telekommunikasiya departamentinin qonağı oldular. Nümayəndələr şirkətləri haqqında geniş məlumat verdikdən sonra elektronika ixtisaslı bir qrup tələbənin iştirakı ilə keçirilən seminarda "Mobil rabitə şəbəkələrinin optimallaşması və testləşməsi üçün avadanlıqlar" mövzusunda məruzə ilə çıxış etdilər. Məruzə şirkətin istehsal etdiyi avadanlıqlar üzərində real şəraitə uyğun praktik olaraq təqdim edilirdi.

Gələcəkdə Elektronika və telekommunikasiya departamentində şirkət tərəfindən bu cür praktik məruzələrin davam etdirilməsi qərara alındı.

# GERMAN COMPANY REPRESENTATIVES AT KHAZAR UNIVERSITY

On April 5, plenipotentiary representatives of the "Rohde&Schwarz" German company visited Khazar University Electronics and Telecommunication Department. After giving thorough information about their company representatives delivered a lecture on the topic " Equipment for Optimization and Testing of Mobile Networks" with participation of a group of Electronics students. The lecture was introduced practically on the equipment produced by the company being adjusted to real situation.

In was decided to continue to organize such practical lectures in the Department of Electronics and Telecommunication by this company.




# COĞRAFİYA VƏ ƏTRAF MÜHİT DEPARTAMENTİNİN ƏMƏKDAŞLARI MALAYZİYADA BEYNƏLXALQ FORUMDA İŞTİRAK ETDİLƏR

Aprelin 18-19-da Xəzər Universiteti Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasov və həmin departamentin müəllimi Rövşən Kərimov Malayziyanın Kajang şəhərində keçirilən XI Kooperativ Yaşıl İnkişaf Modelləşmə Forumunda iştirak etdilər.

Forumda Rövşən Abbasov istixana qazlarının azalması məqsədi ilə "Bakı şəhərində nəqliyyatın optimallaşdırılması" tədqiqatının nəticəsi haqqında məlumat verdi.

# FACULTY MEMBERS OF DEPARTMENT OF GEOGRAPHY AND ENVIRONMENT AT INTERNATIONAL FORUM IN MALAYSIA

On April 18- 19, Rovshan Abbasov, Head of Department of Geography and Environment of Khazar University and the teacher of the mentioned department Rovshan Karimov took part at the 11th Cooperative Green Growth Modeling Forum held in Kajang, Malaysia.

Rovshan Abbasov made a presentation on the outcomes of the research work on «The optimization of transport in Baku to reduce greenhouse gases»

# ХАЗАР В ЛИЦАХ



*Уважаемые читатели!*

*Хочу представить вашему вниманию отрывки из готовящейся к изданию книги в стихах «Хазар в лицах», где я написала образы любимых и уважаемых всеми людей, которые стали символами Хазара.*

*Они посвятили четверть века своей жизни университету, пройдя через все этапы его становления и завоевали ему известность в Азербайджане и за его пределами.*

*Надеюсь, что вы получите удовольствие от поэтических образов и будете солидарны со мной в оценке их значимости и заслуг.*

*Я также надеюсь, что искренность автора, с которой созданы все образы, не пройдёт мимо вашего внимания.*

**Л. М. Гамидова,**

*Старший преподаватель*
*Департамента Английского*
*Языка и Литературы*

## ПРЕДИСЛОВИЕ

Мои родные, близкие, друзья,
Осмелилась я написать Ваши портреты.
Я исходила из любви, добра,
Копившегося в сердце четверть века.

Я знаю, я не Пушкин, не Шекспир,
Не Лермонтов, не Байрон,
Не Есенин,
Но кто же лучше есть чем я,
Кто сможет смело сделать это?

Мы прожили довольно много дней,
Друг друга критикуя и спасая.
Делили радость всех удачных дней,
Победы вкус все вместе ощущая.
Когда случалася беда,
На разногласья невзирая,
Вставали рядом как один
Под знамя нашего Хазара.

Нас закалил и сохранил
Наш адмирал глубин мятежных,
Он вёл нас сквозь туман и даль,
Сквозь ливней шквал
К «Мысу Надежды».

Мы положились на него,
Свою судьбу ему вверяя,
С тех пор мы преданы ему,
Его указы исполняя.

Наш адмирал никто другой, как
Мистер Гамлет Роковой,
Судьба направила его
На поиск нового причала,
Откуда должен он начать
Путь просвещения сначала.

С тех пор мы, якорь опустив,
Так и стоим на том причале,
И наши образы сплелись
В единый аромат свечи,
Дорогу мысли освещая.

Вот всё, что я хочу сказать
О Вас и о себе частично,
В тех образах, что написала я,
Где Вы все часть, а я частичка...

# ГАМЛЕТ МУЕЛЛИМ



Сошлись однажды мудрецы
Посостязаться в красноречье,
Повспоминать своих коллег
С времён расцвета Междуречья.

Все мудрецы как на подбор
Достойны чести и почёта,
Труды их мир познал давно,
Заслугам их воистину нет счёта.

О чём же говорили мудрецы при встрече?
Конечно же о роли мудрости на свете,
О том, что нужно ли глупцу
Отдаться в руки мудрецу,
Поскольку думает глупец,
Что он и так полу-мудрец?

Ведь обнаружив, что талант и истина
Им не подвластны,
Становится невежды так опасны!
Готовы меч вонзить таланту в спину,
Талант наивен, ведь открыт он всему миру,
Талант несёт в себе желание творить,
Глубины истины постичь, всех просветить,
Талант стремится к совершенству,
А не к жеманному кокетству,
Что очень свойственно глупцам,
Поющим гимны всем лжецам...

Как часто умный человек
Сознательно невежде потакает,
Ведь очень часто рой невежд
Талантливую мысль свергает,
И чтобы выжить средь невежд
И защитить науку,
Невежду нужно научить
Распознавать величие Творца,
Пройдя через старание и муку...

Нет большей казни мудрецу
Оказывать почёт глупцу,
На просвещение глупца
Уйдёт пол жизни мудреца,
Но утешеньем мудреца
Стать может ненависть глупца,
Который так и норовит
Глупцом провозгласить Творца!

Нет худшей доли мудрецу
Обречь себя на муки,
Взирая сверху на глупца,
Гнобящего науки...

Но целью схода мудрецов
Была наследника проблема,
Который был бы одарён
Уменьем сочетать науки смело,
Который зелье мог бы предложить
От зависти к таланту и уму
И приобщить невежд к труду...

Наука побеждать сложна,
Порой безжалостна она,
Чтоб доказать, кто прав и почему
Под силу только пылкому уму...

В пылу раздумий, споров и надежд
Все мудрецы охотно согласились,
Что уж пришла пора уму такому быть,
И, как знамению,
В Хазарском ареале объявиться.
Свои надежды мудрецы подробно обсудили
И бремя претворить их в жизнь
На Вас, наш Pater Noster, возложили.

Вы их избранник потому,
Что можете трудиться,
Что цену знаете уму
И как умом распорядиться,
Что просветительская роль
Изрядно Вам подходит,
Поэтому благословенный дух
С небес на Вас снисходит.

Но выбор мудрецов суров,
Их предписанья жёстки:
Реформой мысли и души
Обязаны Вы превзойти
Своих предшественников хлёстко.

Как высшей касты ученик,
Вы справились с задачей чётко,
Внедрили Вы в образование модель,
Способную вовлечь сердца
В процесс познания нелёгкий.

Ваша метода уже многих обучила,
Пути науку познавать открыла,
И много молодых сердец
Наполнила восторгом
От счастья понимать взаимосвязь
Между умом и долгом.

Пройдёт ещё немного лет
И станет ясно,
Что быть у Вас в долгу –
Это прекрасно,

Долг красен платежом,
Как всем известно,
И отдавать Вам долг умом –
Это прелестно!

Себя Вы посвятили просвещенью,
Вы математики певец
И словарей крёстный отец.
Вы философской мысли видный реформатор,
И поэтический оратор,
Вы симбиоз искусства и науки
Вы Ренессанс,
Нас спасший от духовной скуки,
Вы гений мысли и пера,
Вы наша слава,
Вам – Ура!

## НАИЛЕ ХАНУМ



Как много в имени Наиля
Для всех нас в нём переплелось,
Как много черт, характеристик
Нам разглядеть всем удалось:
Мила, приветлива, красива
Естественностью своих глаз,
Всегда одета элегантно
Без вычурности напоказ,
Всё в меру, всё так лаконично
Всё говорит о вкусе личном,
Спокойна, сдержана, этична,
К пустому звуку безразлична...
Последовательна, терпелива
Решительна, когда необходимо,
Умеет ставить цель, и сколько нужно ждать
Достаточно мудра, чтоб срочно всё менять!
Всегда внимительна к тому, кто
Поступает по уму,
Не верит нести тех, кто хочет
Вымолить хвалу.

При всей мечтательности духа,
Умеет трезво рассуждать,
Не любит часто вспоминать

О былых спорах и ошибках,
Предпочитает промолчать,
Пока вокруг все спорят пылко
Прощать умеет, поощрять,
Когда на то есть предпосылка.

Не балуя людей опекою напрасной,
Она поможет лишь тогда,
Когда действительно беда,
И сделает все то, что в её власти.

Не склонна поддаваться страсти
Паниковать из-за напасти,
Всё выстроит в покорный ряд,
Затем проверит, все ли целы части.

Опора мужу своему
Во всех его деяньях, –
Всегда внимательна
К его труднейшим начинаньям.

При встрече со своей судьбой,
Звезда ей путь определила,
Что быть ей феей деловой
Своего мужа и кумира.

"Mən sadəcə sevdim səni",
Чуть позже она скажет,
Её мелодия любви
На время лавры пожинать укажет.

Окинув взором всё,
Что им обоим удалось свершить,
"Mən sadəcə sevdim səni"
Ей Гамлет скажет,
И их мелодия любви
В любой счастливый или сложный час
Это уверенно докажет!

*(продолжение следует)*



## TƏLƏBƏLƏR YƏHUDİ VƏ XRİSTİAN DİNLƏRİNƏ MƏXSUS KONFESSİYALARIN MƏBƏDLƏRİNDƏ

Aprelin 1-2 - də Xəzər Universiteti Dillər və mədəniyyətlər departamentinin müəllimi dosent Elnurə Əzizovanın rəhbərliyi ilə universitetin tələbələri "Dünya dinlərini yaxından tanıyaq" adlı proqram çərçivəsində Azərbaycandakı Yəhudi və Xristian dinlərinə məxsus konfessiyaların məbədlərində oldular.

Tələbələr aprelin 1-də Avropa və Gürcüstan yəhudiləri sinaqoqunda Şabat mərasimində iştirak etdilər. Mərasimdən sonra din xadimi Rabai Şneor tələbələrin suallarını cavablandırdı. Aprelin 2-də isə tələbələr Bakirə Müqəddəs Məryəm kilsəsində Evharistiya ayinində iştirak etdlər. Ayinin sonunda din xadimi Vladimir tələbələri maraqlandıran məsələləri aydınlaşdırdı.

Hər iki məbəddə tələbələr Azərbaycanda dini tolerantlıq və müxtəlifliklərin birlikdə yaşaması mövzularına dini icmaların yanaşmasına dair diskussiya apardılar.

## STUDENTS IN JEWISH AND CHRISTIAN CONFESSION TEMPLES

On April 1-2 Khazar students visited Christian and Jewish confession temples within the project "Knowing World Religions Closer" under Elnura Azizova's guidance, the assistant professor, teacher, at The Department of Cultures and Languages.

On April 1, students too part in Shabat ceremony in the synagogue of European and Georgian jews. After the ceremony priest Rabai Shneor answered students' questions. On April 2, the students participated in Eucharist ritual in Virgin Mary Church.

At the end of the ceremony priest Vladimir shade light upon the issues our students were interested in. In both of the temples the students discussed religious tolerance and the attitude of religious communities towards coexistence of diversities in Azerbaijan.

## İSLAMABAD TEXNOLOGİYA UNİVERSİTETİNİN PROFESSORU "XƏZƏR"İN TƏLƏBƏLƏRİNƏ MÜHAZİRƏ OXUDU

Aprelin 3-də Xəzər Universiteti Coğrafiya və ətraf mühit departamentinin təşəbbüsü ilə İslamabad Texnologiya Universitetinin professoru Shanza Ejaz "Davamlı inkişafın məqsədləri və kompüter texnologiyaları" mövzusunda webnar mühazirə oxudu. Mühazirədə Təhsil fakültəsi coğrafiya ixtisasının tələbələri iştirak edirdilər.

Sonda Professor Ejaz tələbələrin suallarını cavablandırdı.

## PROFESSOR OF ISLAMABAD TECHNOLOGY UNIVERSITY DELIVERS A LECTURE AT KHAZAR.

On April 3, with the initiative of the Department of Geography and Environment, Khazar University Shanza Ejaz, a professor from Islamabad Technology University delivered a Webinar on the topic "The Aims of Sustainable Development and Computer Technologies". The students of the faculty of Education majoring in Geography took part in the lecture.

At the end of the session, Prof. Shanza Ejaz answered the students' questions.

## "STRATEGİYA NƏDİR?" MÖVZUSUNDA SEMİNAR

## SEMINAR ON "WHAT IS STRATEGY?"





Aprelin 4-də Xəzər Universitetində Karyera mərkəzinin təşkilatçılığı ilə SPE layihəsi çərçivəsində "Startegiya nədir?" mövzusunda seminar keçirildi. Seminarda Halliburton şirkətinin nümayəndəsi Xatirə Mikayılova çıxış etdi.

Uğurlu strategiyanın rolu və əhəmiyyətindən bəhs edən məruzəçi seminardan sonra tələbələrə müxtəlif qrup tapşırıqları verdi.

Sonda tələbələrin çoxsaylı sualları cavablandırıldı.

Khazar University Career Center organized seminar on "What is Strategy?"

Mrs. Khatira Mikayilova, Material Control Specialist at Halliburton in Azerbaijan, delivered a speech on "What is strategy?" for students of Khazar University. The meeting took place on the Neftchilar Campus of the university.

The representatives of Halliburton then organized quick teamwork games to engage Khazar University students. The teamwork tasks were about the brands with best success strategies.

A question and answer session followed.

# XƏZƏR UNİVERSİTETİNİN MÜƏLLİMİ EKSPERT ŞURASININ ELMİ KATİBİ TƏYİN OLUNDU

Xəzər Universiteti Azərbaycan dili və ədəbiyyat departametinin müəllimi fəlsəfə doktoru dosent Sevinc Ağayeva Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Kommisiyasının Filologiya elmləri üzrə Ekspert Şurasının elmi katibi təyin olunmuşdur.

# "MÜHASİBATLIQ VƏ MALİYYƏ SAHƏSİNDƏ KARYERA" MÖVZUSUNDA TƏLİM

# THE TRAINING ON "CAREER IN ACCOUNTANCY AND FINANCE"





Aprelin 5-də Xəzər Universiteti Karyera mərkəzinin təşkilatçılığı ilə "Mühasibatlıq və maliyyə sahəsində karyera" mövzusunda təlim keçirildi. Təlimçi PCOB Group şirkətinin təsisçisi və direktoru Orxan Yusifov tələbələrə rezyume hazırlamaq, təsirli niyət məktublarının sirri, peşəkar müsahibəyə hazırlıq, işi harada və necə axtarmalı və ACCA dərsləri haqqında məlumat verdi.

Təlimdə İqtisadiyyat və menecment fakültəsinin tələbələri və məzunları iştirak edirdilər. İnteraktiv formada keçən təlimdə tələbələrin çoxsaylı sualları cavablandırıldı.

Təlimin sonunda ilk müraciət edən 6 tələbə sınaq işi müsahibəsində iştirak etdi.

On April 5, the training was held on the topic "The Career in Accountancy and Finance" at Khazar Universiy Career Development Center. The trainer, the PCOB Group company founder and director Orkhan Yusifov gave the students information about making resumes, the secret of strong motivation letters, preparation for a professional job interview, where and how to find a job and ACCA lessons.

The students and graduates of the faculty of Economy and Management participated in the training. A number of students' questions were answered during the interactive tarining session.

At the end of the training, 6 students who applied first, participated in trial job interview.

# "XƏZƏR"İN DEPARTAMENT MÜDİRİNƏ DOSENT DİPLOMU TƏQDİM OLUNDU

Aprelin 27-də Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasında Xəzər Universiteti Dillər və mədəniyyətlər departamentinin müdiri, ilahiyyat üzrə fəlsəfə doktoru Elnurə Əzizovaya dosent diplomu təqdim olundu.

Qeyd edək ki, Ali Attestasiya Komissiyasının 10 mart 2017-ci il tarixli qərarı ilə E. Əzizovaya Dillər və mədəniyyətlər kafedrası üzrə dosent elmi adı verilmişdi.



# MÜƏLLİMLİK SƏADƏTİNİ YAŞAYAN VƏ YAŞADAN İNSAN

*Əziz müəllimim Roza Arazovanın yubileyi münasibətilə*

... Dərs ili yenicə başlamışdı, birinci kurs tələbələrinin ən ağır vaxtları idi, məktəb partasından təzəcə ayrılmış uşaqlar üçün birdən-birə qədim dünya tarixinin sirlərinə yiyələnmək, arxeologiyanın maraqlı olduğu qədər də çətin xüsusiyyətlərini öyrənmək heç də asan deyildi.

Məhz belə bir vaxtda Roza müəllimlə ilk tanışlığımız başladı. Müəllimimiz elə ilk dərslərindən tədris etdiyi fənləri tələbələrə sevdirə bildi və biz Roza müəllimin timsalında nəinki fənləri, müəllimliyi də sevdik.

Çox maraqlıdır ki, Roza müəllim yaxşı oxuyan, çalışqan tələbələrlə bərabər tənbəllərin də hafizəsindən silinməyib. Universitetdə sonralar lətifəyə çevrilmiş bir hadisəni xatırlamaq istəyirəm. Qıtlıq illərində müəllimlərin də "dadına çatan" bir tələbə vardı, o vaxt dükanlarda tapılmayan süd məhsullarını zavoddan çıxarıb gətirərdi. Bir gün bu "qoçaq" imtahan ərəfəsində Roza müəllimə öz "xidmətini" təklif edir, Roza müəllim də "get suallarını öyrən, gəl" deyir, mədəni surətdə başa salır ki, heç nə kar etməz, oxumalısan.

Tələbə əlacsız qalıb hazırlaşmalı olur. İmtahandan bir xeyli sonra Roza müəllim bu tələbəyə pul verir ki, bir yaşlı qadın üçün kəsmik gətirsin. Amma o kəsmik hələ də gəlib çıxmayıb. Bu hadisədən sonra hamı zarafatla deyirdi ki, Roza xanım bəlkə də yeganə müəllimdir ki, pulunu verib tələbəyə dərs öyrədir.

Hərdən tələbəlik illərimiz eyni dövrə təsadüf edən tanışlarımızla rastlaşanda belə, hər kəsin ilk sualı "Roza müəllimi görməmisən?" olur. Hamı birinci onu soruşur, çünki Roza Arazova qəlblərdə əsl müəllim kimi yurd salan, yaşayan insanlardandır.

Tələbə vaxtı öz aramızda Roza müəllimdən söhbət açanda, onun ən birinci keyfiyyəti kimi insanpərvərliyi və vətənpərvərliyindən danışardıq. Əslində, bu keyfiyyətlər hər bir müəllimə xas olmalıdır, təəssüf ki, 80-ci illərdə belə keyfiyyətli insanlara çox az rast gəlinirdi, xüsusilə də ali məktəb divarları arasında.

Roza müəllim hər bir tələbəyə yetkin bir şəxsiyyət kimi yanaşardı, hamının dərdini öz dərdi bilərdi, can yandırardı, tələbələrin problemlərini həll etməyə çalışardı, lazım gəlsə, buna görə bütün pillələrə ayaq döyərdi, kömək alıncayadək əl çəkməzdi, amma özü üçün kimsəyə ağız açmağı qüruruna sığışdırmazdı. Azərbaycan qadınına xas olan bütün dəyərləri biz onda görüb, onda sevdik. Olduqca nəzakətli, səliqəli, diqqətli, qayğıkeş, mehriban olduğu qədər də tələbkar bir insan idi Roza müəllim. Biz, sözün əsl mənasında, müəllim olmağı onun şəxsi nümunəsi əsasında öyrəndik və əbəs yerə deyil ki, bizim çoxumuz onu özümüzün həyat müəllimi hesab edirik.

Neçə illəri arxada qoyub artıq bir yerdə çalışırıq Roza müəllimlə. Daha müəllim-tələbə münasibətini geridə qoyub, həmkarlıq münasibətindəyik. Mənim gözlərimin qabağında Xəzər

Universiteti qurulub, böyüyüb, bu gününə qovuşub və onu quranlardan biri də Roza xanımdır. Roza xanım kimi entuziast insanların çiyinlərində çəkilir bu dünyanın yükü. Xəzər Universiteti ilə, "Dünya" məktəbi ilə əməkdaşlıq illəri mənə Roza xanımı bir insan kimi bir daha yaxından tanımaq imkanı verdi. Mən artıq onun öz ətrafı - dostları, həmkarları, ailəsinin bu böyük qəlbli insana verdiyi dəyəri gördüm və bir də onun şahidi oldum ki, nə keçən illər, nə hadisələr Roza xanımın bir zərrə də dəyişməsinə səbəb olmamışdır. Yenə həmin qayğıkeşlik, həmin tələbkarlıq.

Roza xanımı digərlərindən fərqləndirən keyfiyyətlərindən əsası özünə qarşı hədsiz tələbkar və hədsiz təvazökar olmasıdır. Roza müəllim indi də illərin təcrübəsinə baxmayaraq, bütün dərslərə həmən həvəslə, həmən vəchlə girir, hələ bu vaxtadək bir tələbə deyə bilməz ki, hansısa bir mövzunu Roza müəllim həvəssiz, sadəcə dərs xatirinə keçdi.

Bu böyük müəllim hər dərsini yenidən dəfələrlə yaşayır və məhz buna görə də, tələbələrin yaddaşında silinməz iz qoyur. Axı Roza xanım özü də böyük alim, müəllim, məşhur Azərbaycan tarixçisi Süleyman Əliyarlının sevimli tələbəsi olub. İş elə gətirdi ki, mən BDU-da Süleyman müəllimin rəhbərlik etdiyi kafedrada çalışırdım və həmin illərdə Xəzər Unuversiteti bu böyük alimin 70 illik yubileyinə ev sahibliyi etdi və bu yubileyə mən Xəzər Universitetinin əməkdaşı kimi qatıldım. Roza xanımın Süleyman müəllimə olan ehtiramı, sədaqəti həsədə layiqdir desəm, yanılmaram. Böyük sevgi, qayğı, şəfqət - Roza xanımın ürəyindən gələn hisslər gözlərindəydi... O gözləri mən bir də S.Əliyarlının qəbri üstdə gördüm - sonsuz kədər, sonsuz hüzn ...Gözlər ürəyin aynasıdır deyirlər, Roza xanımın gözləri bəlkə də belə aynaların ən şəffafıdır.

Roza xanım gözəl alimdir - ciddi, vicdanlı. Arxeoloq olmaq hər kişinin bacardığı iş deyil, Roza xanımsa qadın olaraq çöl qazıntılarında Q.İsmayılzadə, İ.Nərimanov kimi dövrümüzün ən məşhur arxeoloqları ilə birgə iştirak etmiş, tədqiqat aparmışdır. Hərdən söhbət əsnasında Roza xanımın o zamanlar tanınmış arxeoloq Massonun dəvəti ilə Leninqradda doktorluq işini davam etdirə bilməməsindən söz düşəndə yarıgerçək, yarızarafat deyirəm ki, "yaxşı ki, getmədiniz, bəs bizim gənclərimiz heyif deyil? Belə müəllimi itirərdik". Amma bu sözdə bir həqiqət var . Alimliyini düşünüb, gələcəyini hər kəs qura bilər, böyük kəşflər edib dünya elminə yenilik də gətirmək olar, amma ömrünü şam kimi əridib yeni nəsillər yetişdirmək ancaq müəllimin şərəfli yoludur - sizin seçdiyiniz yol, əziz müəllimim!

Roza xanım gözəl dostdur. Onun dostlarının sırasında eləsi yoxdur ki, cəmiyyətimizin problemləri onları narahat etməsin, Roza xanımın dostları da özü kimi genişürəkli, vicdanlı, qayğıkeşdirlər. Roza xanım elə bir insandır ki, onunla ünsiyyətdən sonra bu gözəl insan sənin həyatının bir parçasına çevrilir, hər şeydə onu görmək, məsləhətini eşitmək, bölüşmək istəyirsən. Dostluq üçün bundan daha vacib nə ola bilər ki?! Tarix və arxeologiya departamentində bu günədək çalışmış bütün müəllimlərin övladları Roza xanımın övladlarıdır. Roza xanım onlara "xəzərlilər" deyir, elə bir bayram yoxdur ki, Roza nənə "xəzərli" nəvələrini yada salıb, onlar üçün hədiyyə hazırlamasın, evə zəng edəndə belə uşaqlar Roza nənəylə danışmaq üçün növbəyə durur, dərdini bölüşür, bəzən heç bizə növbə çatmır, ümid qalır "email"-ə.

Bu yaxınlarda Roza xanımın ad gününü qeyd etmək üçün müəllimlərlə birgə departamentdə toplaşmışdıq. Roza xanımı təbrik üçün Xəzər Universitetinin digər departamentlərinin müəllimləri, tələbələr sanki bəhsə girmişdilər, biri-birindən gözəl çiçək dəstələri, hər kəsin səmimi sözləri, hətta texniki heyət işçiləri də geri qalmamışdı.

Elə təzəcə yığışmışdıq, tanımadığımız bir kişi əlində iri bir gül dəstəsi, böyük bir tort yaxınlaşdı, Roza xanımı təbrik etdi. Roza xanım da təəccüblə "çox sağ olun, amma siz kimsiniz, mən tanımadım axı?" deyə soruşdu. "Roza müəllimə, bu bir sürprizdir" - dedi həmin adam. Sonra artıq süfrə arxasında əyləşəndə məlum oldu ki, İsmayıl bəy Roza xanımın ilk tələbələrindəndir. O özünü təqdim edərkən söylədi ki, Roza xanım, siz bizi tanımaya bilərsiniz, çünki biz çoxuq, amma sizin kimi insanlar bizim həyatımızda çox deyil və biz sizin fəaliyyətinizi daim izləyirik." Məncə, bir müəllim ömrünün mənası da elə bundadır.

Roza xanım çox xoşbəxt insandır ki, belə bir həyat salnaməsi var, xoşbəxtdir ki, müəllimlik sənətini öz timsalında yaşadır, xoşbəxtdir ki, hər tələbəsinin həyatında onun da müdriklik payı var. Bu elə bir səadətdir ki, müəllim olmayan insan bunu bəlkə də yaşaya bilməz, amma Roza xanım müəllimlik səadətini yaşayan və yaşadan bir insandır.

**Ülviyyə İbrahimova,**
*BDU-nun dosenti,*
*atoshi@mail.ru*

## "WEB OF SCIENCE" PLATFORMASININ NÖVBƏTİ TƏDBİRİ

Aprelin 14-də dünyanın aparıcı informasiya agentliyi "Thomson Reuters"-in "Web of Science" platformasının Azərbaycanda ali təhsil müəssisələri üçün hazırlanan layihənin növbəti tədbiri Azərbaycan Dövlət Neft və Sənaye Universitetində keçirildi.

İki hissədən ibarət olan tədbirdə əvvəlcə "Thomson Reuters" Agentliyi Elm və təhsil departamentinin əməkdaşı Aygün Babazadə təmsil etdiyi agentlik və həmin qurumda yer alan elmi jurnallar haqqında ətraflı məlumat verdi.

Tədbirin ikinci hissəsində Xəzər Universitetinin Khazar Journal of Humanities and Social Sciences ("Xəzər humanitar və sosial elmlər jurnalı") beynəlxalq elmi jurnalının redaktor assistenti Xəyalə Məmmədova elmi jurnalın idarə edilməsi prinsipləri, "Web of Science" platformasına daxil olmaq üçün jurnallar, orada çap olunacaq məqalələr qarşısında qoyulmuş tələblər, elmi məqalələrin təqdimetmə qaydaları, seçim meyarları və digər praktiki məsələlərlə bağlı tədbir iştirakçılarını məlumatlandırdı. X. Məmmədova tədbirin sonunda iştirakçıların suallarını cavablandırıldı.

Layihə çərçivəsində bu cür silsilə tədbirlər Azərbaycanın digər ali təhsil müəssisələrində də davam edəcək.

## A NEW SESSION ON WEB OF SCIENCE PLATFORM HELD

On April 14, another event as a part of the project for higher education institutions based on the Web of Science platform of the world's leading news agency Thomson Reuters took place at the University of Azerbaijan State Oil and Industry University.

The event consisted of two parts. First, the representative of the Department of Science and Education at Thomson Reuters Agency, Aygun Babazadeh gave detailed information about the agency and all of its scientific journals. Then Khayala Mammadova, assistent to editor of Khazar Journal of Humanities and Social Sciences talked about journal's management principles, the requirements for scientific articles to be accepted to Web of Science platform, and informed the participants about the submission rules, selection criteria and other practical issues. Later she answered the questions of the participants.

A series of such events are planned to be held at other higher education institutions. It should be noted that the aim of the project is to contribute the development of science in Azerbaijan and promote international cooperation, through access to Thomson Reuters to increase the number of scientific publications of Azerbaijani researchers in indexed journals.

## ELMİ ŞURANIN İCLASI

Aprelin 14-də Xəzər Universitetinin rektoru Hassan Niknafsın sədrliyi ilə universitet Elmi şurasının növbəti iclası keçirildi.

İclasın gündəliyinə əsasən ümumi məsələlər haqqında rektor Hassan Niknafsın, məzunluq haqqında fakültə dekanları Hassan Niknafs, Cabir Xəlilov, Elza Səmədova, departament müdiri Ceyhun Məmmədovun, doktorant və dissertantların elmi tədqiqat məsələləri və elmi rəhbərləri, Tarix və arxeologiya departamentinin müəllimi Nuridə Qədirovanın dosent vəzifəsinə seçilməsi haqqında universitetin Magistratura, doktorantura və elmi işlər bölməsinin müdiri Eldar Şahgəldiyevin məlumatları dinlənildi.

Gündəlikdəki məsələlərlə bağlı müvafiq qərarlar qəbul edildi.

Elmi şuranın iclasında cari məsələlər də müzakirə olundu.

## MEETING OF ACADEMIC COUNCIL

On April 14, the meeting of the Khazar University Academic Council was held. The meeting was chaired by Dr. Hasan Niknafs, President of the University.

According to the agenda of the meeting reports were given by Dr. Hasan Niknafs, President of the University, on general issues; by faculty Deans Hassan Niknafs, Jabir Khalilov and Elza Samadova as well as department chair Jeyhun Mammadov, on the topic of graduation; by Dr. Eldar Shahgaldiyev, Head of the Division for Graduate Students and Research, on scientific research and scientific advisors of post-graduates, Nurida Gadirov`s, instructor of the Department of History and Archeology at Khazar University, being appointed assistant professor and related decisions were made.

Other current issues were also covered at the meeting.



## ELMİ-PRAKTİK KONFRANS: "ELEKTRON KATALOQ – YÜKSƏK İNFORMASİYA TEXNOLOGİYALARININ NƏTİCƏSİ KİMİ"

Aprelin 14-də BDU-da Azərbaycanda Kitabxana İşinin İnkişafı Assosiasiyasının təşkilatçılığı və BDU-nun Kitabxanaçılıq-İnformasiya fakültəsinin dəstəyi ilə "Elektron kataloq-yüksək informasiya texnologiyalarının nəticəsi kimi" mövzusunda elmi-praktik konfrans keçirildi.

Konfransın məqsədi ölkə kitabxanalarının məlumat axtarış sistemlərində elektron kataloqun rolu və avtomatlaşdırma proseslərinin tətbiqi idi.

Tədbirdə təqdimatlar keçirildi və çıxışlar dinlənildi.

Xəzər Universitetinin Kitabxana-İnformasiya Mərkəzinin (KİM) Kataloqlaşdırma şöbəsinin müdiri Samirə Orucova universitetdə avtomatlaşdırma proseslərinin tətbiqi, müasir vəziyyəti və əhəmiyyəti mövzusunda təqdimatla çıxış etdi.

Sonda təqdimat iştirakçıları mükafatlandırıldı.

## STUDENTS' SCIENTIFIC AND PRACTICAL CONFERENCE - "E - CATALOG - AS A RESULT OF HIGH INFORMATION TECHNOLOGIES"

On April 14, a scientific-practical conference, entitled "E-catalog -as a result of high information technologies" was held with the coordination of Association for Development of Library Work in Azerbaijan and the support of the faculty of Library science and information at Baku State University. The purpose of the conference was to shed light on the topics, such as the role of electronic catalog and application of automation in information retrieval systems in libraries in Azerbaijan.

Library heads and students made presentations and speeches in the event. The presentations on application, current situation and importance of automation processes at Khazar University Library and Information Center were also introduced. The presenters included Samira Orujova, Head of Cataloging Department of LIC, Khazar University.

## "SPRINGER" PUBLISHES ONE MORE KHAZAR UNIVERSITY STAFF MEMBER'S BOOK

Springer

On April 12, the well-known publishing house "Springer" confirmed to publish the book of Rovshen Abbasov, head of the Geography and Environment Department, Khazar University.

The title of the book is "Children and Disaster Risk Management: A Case Study of Gabala District, Azerbaijan".

Note that, the book was tendered to the publishing house in January, 2016 and was reviewed three times.

# GÖRKƏMLİ TARİXÇİ ALİM TADEUŞ SVYATOÇOVSKİNİN UNUDULMAZ XATİRƏSİ



*Görkəmli tarixçi, polyak əsilli amerikalı alim Tadeuş Svyatoçovski (Tadeusz Swietochowski) 2017-ci il fevralın 17-də etmişdir. O, 1934-cü il aprelin 28-də anadan olmuşdu.*

*T. Svyatoçovski Cənubi Qafqazın öyrənilməsi və xüsusən Azərbaycanın yeni tarixinin tədqiqi üzrə mütəxəssis idi. O, Xəzər Universitetinin Fəxri doktoru adına layiq görülmüş və əsas əsəri sayılan "Russia and Azerbaijan: a Borderland in Transition" adlı kitabı Xəzər Universiteti Nəşriyyatında Azərbaycan türkcəsinə çevrilmiş ("Rusiya və Azərbaycan: sərhədyanı bölgə keçid dövründə") və nəşr olunmuşdur.*

*T. Svyatoçovskinin parlaq xatirəsini yad edir və professor Hamlet İsaxanlının redaktor kimi onun kitabı haqqında giriş sözünü oxucularımıza təqdim edirik.*

## AZƏRBAYCANIN İKİ YOLU VƏ AZƏRBAYCAN KİMLİYİ HAQQINDA

*(Tadeuş Svyatoçovskinin "Rusiya və Azərbaycan" kitabınınAzərbaycan dilinə tərcüməsinin redaktorundan)*

Azərbaycan tarixi və azərbaycanlıların milli kimliyi məsələsi ictimaiyyətimizin həmişə diqqət mərkəzində olmuş, hər zaman müzakirə və mübahisə doğurmuşdur. Tarixin döngələrində və çoxsaylı "keçid mərhələ"lərində bu mövzu qızğın və həyəcanlı günlərini, illərini yaşamışdır.

Azərbaycan xalqının yaşadığı ərazilər, yarımmüstəqil Azərbaycan xanlıqları 18-ci əsrin sonlarında və 19-cu əsrin ilk otuz ilinə yaxın bir müddətdə Rusiya və İran arasında müharibələr meydanına çevrilmiş və nəticədə ikiyə bölünmüşdür. Şimal ərazilər Rusiyaya birləşdirilmiş, cənub hissə İranın ixtiyarında qalmışdır. Azərbaycan torpaqlarının daxili çayı olan Araz o zamandan iki Azərbaycanı bir-birindən ayıran sərhəd çayına çevrilmişdir. Beləliklə, azərbaycanlılar, azərilər və ya azəri türkləri adlanan xalq iki böyük dövlət - Rusiya və İran içərisində fərqli yollarla inkişaf etməyə başlamış, fərqli siyasi, iqtisadi, təhsil və mədəni mühitdə yaşamışlar. İki Azərbaycan arasında əlaqələr də məhz tarixin döngələrində artmış, azalmış və bir müddət, demək olar ki, qırılmışdır. Beləliklə, azərbaycanlıların tarixi də iki hissəyə bölünmüş, onların kimliyi, milli özünüdərki də haçalanmışdır.

Tanınmış Amerika azərbaycanşünası, Yaxın Şərq və Rusiya tarixinin bilicisi Tadeuş Svyatoçovski tədqiqatçı həyatını Azərbaycanın siyasi tarixinə, Azərbaycan xalqının özünüdərketmə məsələsinə həsr etmişdir. O, 1970-ci illərin ikinci yarısından bu günə qədər Azərbaycan mövzusunda araşdırmalarını məqalələr və kitablar şəklində çap etdirir, Azərbaycan üzrə ekspert kimi məsləhətlər verir, müxtəlif konfrans və görüşlərdə çıxış edir.

T.Svyatoçovskinin "Rusiya Azərbaycanı, 1905-1920" adlı ilk kitabı (Russian Azerbaijan, 1905-1920. The Shaping of National İdentity in a Muslim Community, Cambridge University Press) 1985-ci ildə nəşr edildi və geniş əks-səda doğurdu.

1905-ci il inqilabından Azərbaycanın Sovetləşməsinin başlanğıcına qədər nisbətən qısa, amma Azərbaycanda ideoloji və siyasi proqramların təşəkkül tapdığı bir dövrü əhatə edən bu kitab öz müəllifini Azərbaycan məsələsini daha geniş şərh etməyə həvəsləndirdi.

On il sonra Svyatoçovskinin Azərbaycan dilinə tərcüməsini hörmətli oxucularımıza təqdim etdiyimiz, "Russia and Azerbaijan. A Borderland in Transition" (Columbia University Press) kitabı nəşr olundu. Zənnimizcə, bu kitab

T. Svyatoçovskinin çox (ən?) uğurlu əsəri sayıla bilər. (O, 1999-cu ildə nəşr olunmuş "Azərbaycan tarixi lüğəti" adlı kitabın redaktorlarından biri və Viktor Savinkova həsr olunmuş kitabın iki müəllifindən biridir).

Geniş mənada Azərbaycan xalqı, Azərbaycan dövlətçiliyi həmişə Rusiya, İran və Osmanlı-Türkiyə kimi böyük dövlətlərin kölgəsində inkişaf etmişdir. Bu kölgə bəzən onu yandırıcı şüaların təsirindən qorumuş, bəzən də arzusunda olduğu ılıq şüaların qabağını kəsərək onu üşütmüşdür. Hər halda, Rusiyanın aşıladığı Avropa düşüncəsi və həyat tərzi, Türkiyənin aşıladığı türk özünüdərketmə hissi Rusiya Azərbaycanında daha güclü olmuş, İran azərbaycanlıları türkçülüyə tamam yad olmamaqla yanaşı, daha çox "iranlı" kimliyinə sahib olmuşdur. Avropa və Amerikaya mühacirətin, Şimalda müstəqil Azərbaycan Respublikasının yaranmasının İran azərbaycanlılarının kimlik düşüncələrinə nə dərəcədə təsir etdiyi hələlik ciddi araşdırılmamışdır. Lakin 20-ci yüzillikdə Şimalda və Cənubda baş verən hadisələr və dövrlərin digər tərəfdə diqqətlə müşahidə olunduğu, qeydə və nəzərə alındığı şübhəsizdir. Şimalda: a) ilk onillikdəki rus inqilabının təsiri, mətbuatın inkişafı, siyasi təşkilatlanma, kimlik axtarışı; b) 1917-20-ci illərin siyasi çalxalanmaları, muxtariyyət, dövlətçilik və müstəqillik sorağında axtarışlar; c) Azərbaycan dilinin, elminin və mədəniyyətinin uğurları, Azərbaycan kimliyinin türkçü və sovet boyalarına büründüyü, siyasi və mədəni təzyiqlərə məruz qaldığı sovet dövrü; və, nəhayət, ç) Son on ili əhatə edən Müstəqil Azərbaycan Respublikası dövrünü qeyd etmək olar.

Eyni ilə, Cənubda baş verən dörd inqilabi addım Şimalda da ciddi qarşılanmışdır: a) Səttarxanın mühüm rol oynadığı Məşrutə inqilabı; b) Xiyabani hərəkatı; c) Pişəvərinin başçılıq etdiyi Azərbaycan Demokratik Partiyasının hakimiyyəti; və, nəhayət; ç) Şahlığın devrilməsi ilə nəticələnən İslam inqilabı.

Tadeuş Svyatoçovski ikiyə bölünmüş Azərbaycan xalqının 19-cu və 20-ci yüzilliklərdə keçdiyi yolu peşəkarcasına və böyük məharətlə işıqlandırmışdır. Heç bir taleyüklü məsələ onun diqqətindən yayınmamış, həqiqəti hissiyyata tabe etməmiş, araşdırdığı məsələlərə hər tərəfdən baxmağa çalışmışdır. Təcrübə göstərir ki, xalqın tarixini yazarkən ona kənardan da baxmaq mühümdür. Bu baxımdan Gürcüstan, xüsusən də Ermənistanla müqayisədə Azərbaycanın bəxti o qədər də gətirməmişdir. Azərbaycan daha çox ümumrus, ümumqafqaz, ümumiran müstəvilərində gözə çarpmışdır. Lakin son zamanlar vəziyyət yaxşılığa doğru dəyişməkdədir. Azərbaycan mövzusu Avropa və Amerika tədqiqatçılarının diqqətini cəlb etməyə başlamışdır.

Xarici dillərdə, xüsusən ingilis dilində tarix və mədəniyyətimizə həsr olunmuş əsərlərin üstün cəhətləri nə ilə bağlıdır? Müəlliflərinin elmi əsaslara söykənmək istəyindən, Avropa arxivlərindən və memuar ədəbiyyatından daha asan istifadə etmək imkanından, mühacir ədəbiyyatı ilə yaxın tanışlıqdan, Yaxın Şərq ölkələri və Rusiyadan Qərbə gedən alimlərin müşahidə və araşdırmalarını ingiliscə və digər Avropa dillərində çap etdirməsindən və s. Əlbəttə, bu əsərləri ideallaşdırmaq da düzgün deyil, lakin onlara məxsus soyuqqanlı və düşünüb-daşınılmış yanaşma üsulu təqdirə layiqdir.

Azərbaycanın son iki yüz illik tarixinə yeni və konseptual baxış olan bu kitab, əslində, çoxcildli Azərbaycan tarixi üçün maraqlı bir plan rolunu da oynaya bilər.

T. Svyatoçovski Xəzər Universitetinin fəxri doktorudur. Nəşriyyatımızın onun kitabını tərcümə etmək fikrinə çox ciddi yanaşan müəllif kitabın son hissəsini yenidən işlədi, hadisələrin 1993-də tamamlanan şərhini 1997-ci ilə qədər çatdırdı.

Amerika Birləşmiş Ştatları hökuməti tərəfindən ayrılmış qrant bu tərcümə işini maliyyə cəhətdən təmin etdi, bizim nəşriyyatla bu birgə layihənin uğurla həyata keçməsinə xüsusi diqqətlə yanaşan Bakıdakı Amerika Səfirliyinin ictimaiyyətlə əlaqə şöbəsinə və doktor Craig Dicker-ə (Kreq Diker) minnətdarlığımı bildirirəm.

Azərbaycanda ingilis dilindən (və digər avropa dillərindən) Azərbaycan dilinə tərcümə təcrübəsi çox azdır, elmi, tədris və siyasi ədəbiyyat sahəsində isə yox dərəcəsindədir. Kitabın tərcüməsi və nəşri zamanı qarşılaşdığımız bir çox çətinliklər, əslində, bu işin ümumiyyətlə yeni olması, xüsusilə də tərcümə mədəniyyətinin hələ kifayət qədər inkişaf etməməsi ilə bağlıdır. Kitabın hazırlanmasında çox əməkdaşlarımızın əməyi var. Tərcüməçilər Lalə Mircəfərova və Bəylər Hacıyev, korrektura ilə məşğul olan Vahid Ömərli, Elza İsmayılova, Sədaqət Təhməzova, nəşriyyat və mətbəə işində əmək sərf etmiş Zakir N. Yusifoğlu, Rüfət İsayev, İsmət Əhmədov, İsaxan İsayev və başqalarına, mətnin son variantının hazırlanmasında mənə kömək edən Xumar Hüseynovaya öz təşəkkürümü bildirirəm.

***Prof. Hamlet İsaxanlı***

# XALQ RƏSSAMI ALTAY HACIYEVIN YUBİLEY SƏRGİSİ



Aprelin 15-17-də Azərbaycan Milli İncəsənət Muzeyində (AMİM) Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və AMİM-in birgə təşəbbüsü ilə Xalq rəssamı Altay Hacıyevin 85 illiyinə həsr olunmuş yubiley sərgisi keçirilmişdir. Sərgidə görkəmli firça ustasının 70-ə yaxın əsəri tamaşaçılara təqdim olunmuşdur.

Rəssamın sənət dostları, ictimaiyyət nümayəndələri və tələbələrin toplaşdığı açılış mərasimində Xəzər Universiteti "Xəzər Xəbər" jurnalının baş redaktor müavini, əməkdar jurnalist Əlirza Balayev də iştirak etmişdir.

Sərginin açılışında muzeyin direktorunun müavini Xədicə Əsədova, Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov və Xalq rəssamı Arif Hüseynov Altay Hacıyevin görkəmli rəssam, fəal ictimai xadim kimi böyük təcrübəsindən danışıblar.

Qeyd olunmuşdur ki, 1931-ci ildə Bakıda görkəmli rəssam Əmir Hacıyevin ailəsində dünyaya göz açmış Altay Hacıyev 1951-ci ildə Əzim Əzimzadə adına Rəssamlıq Məktəbini, 1959-cu ildə isə Kiyev Dövlət Rəssamlıq İnstitutunu bitirmişdir. 1959-cu ildən beynəlxalq və respublika əhəmiyyətli sərgilərin iştirakçısıdır. 1960-cı ildə SSRİ Rəssamlar İttifaqının üzvlüyünə qəbul edilmişdir. 1962-1967-ci illərdə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Mətbuat Komitəsinin baş rəssamı vəzifəsində çalışmışdır.

1982-ci ildə Altay Hacıyev Əməkdar rəssam, 2002-ci ildə isə Xalq rəssamı fəxri adlarına layiq görülmüşdür. Altay Hacıyev 2003-cü ildən Prezident təqaüdçüsüdür. Xalq rəssamı həm də bir sıra təltif və mükafatlara layiq görülüb.

Tədbirdə rəssamın oğlu, görkəmli kino rəssamı Addis Hacıyev çıxış edərək, yaradıcı insan kimi formalaşmasında atasının həm şəxsi keyfiyyətlərinin, həm də sənətinin böyük təsiri olduğunu söyləmişdir. Tədbirə toplaşanlara, sənət dostlarına təşəkkürünü bildirən Altay Hacıyev bundan sonra da var gücü ilə yaradıcılıq fəaliyyətini davam etdirəcəyini bildirib.



ŞUŞA



UZUN HƏSƏN



SARA XATUN



NIZAMI, "YEDDI GÖZƏL": İRAN GÖZƏLİ İLƏ GÖRÜŞ



# XƏZƏR UNİVERSİTETİNİN NÜMAYƏNDƏLƏRİ AESOP LAYİHƏSİNİN GÖRÜŞÜNDƏ

# REPRESENTATIVES OF KHAZAR UNİVERSITY ATTEND AESOP MEETING PROJECT

Aprelin 3-dən 7-dək Polşanın Varşava Universitetində Erasmus+ "Ombudsman vəzifəsi yaratmaqla tələbələrin təmsili təyin olunması" (AESOP) layihəsi çərçivəsində görüş keçirildi.

Görüşün məqsədi iştirakçıları Varşava Universitetinin Ombudsman ofisinin işləri ilə tanış etmək idi. Görüşdə Xəzər Universitetini Əlilliyi olan Tələbələr üçün Mərkəzin koordinatoru və AESOP layihəsinin Xəzər Universiteti üzrə layihə rəhbəri Rima Məmmədova və Qəbul və tələbə şöbəsinin müdiri Lamiyə Namazova təmsil etdirdilər.

Görüş Varşava Universitetinin ombudsmanı Anna Cybulko, Tələbə işləri və tədrisin keyfiyyəti üzrə prorektor professor Jolanta Choińska-Mika və Şərqi Avropa Araşdırmalar Mərkəzinin professoru Jan Malickinin nitqləri ilə başladı. Mübahisə və Münaqişələrin Həlli Mərkəzinin rəhbəri professor Ewa Gmurzyńska Varşava Universitetində, Georgia Dövlət Universitetinin (ABŞ) professoru Daug Yarn isə Amerika universitetlərində yaranan akademik münaqişələrin həllinə dair sistemli yanaşmalardan danışdılar

Görüş zamanı bütün regional tərəfdaşlar öz universitetləri haqqında təqdimatla çıxış etdilər. Rima Məmmədova Xəzər Universiteti haqqında geniş məlumat verdi. Xəzər Universitetinin Azərbaycan Respublikasının təhsil sahəsindəki mövqeyindən, tələbələrin həyat tərzindən və tələbələr üçün (yerli və xarici) təhsil səviyyəsinin inkişafı yollarından danışdı. Təqdimatla çıxış edənlər suallara cavab verdilər. Görüşün birinci günü Varşava Universiteti ilə tanışlıqla sona çatdı.

On April 3-7, a study meeting for the "Advocacy Establishment for Students through Ombudsman Position (AESOP)" Erasmus + project was held at Warsaw University in Warsaw, Poland.

The purpose of the meeting was to familiarize the participants with the work of the office of the Ombudsman at the University of Warsaw. Rima Mammadova, the project manager for the University and Coordinator of the Center for Students with Disabilities; and Lamia Namazova, Head of Admission Office, represented Khazar University at the meetings.

The meeting started with welcome speeches of Anna Cybulko, The Ombudsman of Warsaw University; Professor Jolanta Choińska-Mika, Vice-Rector for Student Affairs and Quality of Teaching; and Professor Jan Malicki, Center for East European Studies. Professor Ewa Gmurzyńska, Head of the Center of Dispute and Conflict Resolution spoke about systematic approach to academic conflict resolution in the perspective of Warsaw University. Professor Daug Yarn from Georgia State University (USA) also spoke about systematic approach to academic conflict resolution, but in the perspective of the universities in the USA. During the meeting, all regional partners made presentations about their universities. Rima Mammadova made a widely informed presentation about Khazar University, its importance for the education cycle in Azerbaijan Republic, student lifestyle and ways of improving the level of education for students (local and international) which was followed with the Questions & Answers session afterwards. The meeting ended with a guide tour of the University of Warsaw.

Görüşün ikinci günü Ombudsman ofisinin əməkdaşları, Anna Cybulko və Łukasz Modzelewski Ombudsman ofisinin təşkil olunması, ombudsmanın vəzifələri və öhdəlikləri haqqında təqdimatlarla çıxış etdilər. Təqdimatdan sonra Tələbə Məclisinin nümayəndələri tələbələrin hüquqlarının təmin olunmasında iştirakları və Ombudsman ofisi ilə Tələbə Məclisinin əməkdaşlığı haqqında danışdılar.

Üçüncü günü Ombudsman ofisinin universitetin digər səlahiyyətli nümayəndələri, inzibati şöbələri və bölmələri ilə birgə əməkdaşlığına həsr olundu. Tələbə Məclisinin nümayəndələri və rektorluq nəzdində Ayrı-Seçkiliyə Qarşı Komissiyanın nümayəndəsi öz fəaliyyətləri, məqsədləri və eləcə də, Ombudsman ofisi ilə əlaqələrindən danışdılar. Torun şəhərində yerləşən Bartłomiej Chludziński Nicolaus Copernicus Universitetinin ombudsmanı Nicolaus Copernicus Universitetində yerləşən Ombudsman ofisi haqda təqdimatla çıxış etdi. O, ofisin yaranma tarixi, fəaliyyətləri və ombudsmanın rolu barədə danışdı. Varşava Universitetinin Münaqişə və Mübahisələrin Həlli Mərkəzinin nümayəndəsi Agnieszka Siedlecka öz fəaliyyətlərindən və vasitəçilərin vəzifələri və öhdəliklərindən danışdı.

Görüş zamanı iki vorkşop təşkil olundu: Łukasz Modzelewski Ombudsman ofisinə aid olan vorkşopu, Katarzyna Drzazgowska isə Münaqişə və Mübahisələrin Həlli Mərkəzinə aid olan vorkşopu idarə etdi. Xəzər Universitetinin nümayəndələri hər iki vorkşopda iştirak etdilər və onların fəaliyyətləri ilə yerindəcə tanış oldular.

Rima Məmmədova, həmçinin Varşava Universitetinin Beynəlxalq Əlaqələr Ofisinin rəhbəri və Erasmus layihələr koordinatoru Sylwia Salamon və Azərbaycan ilə əməkdaşlığa məsul olan Katarzyna Kozdra ilə görüşdü. O, Xəzər Universitetinin beynəlxalq layihələrdə iştirakından, Erasmus+ proqramı çərçivəsində layihələrdə Xəzər Universiteti ilə gələcək əməkdaşlıqlarının mümkünlüyündən danışdı və onlara Xəzər Universitetinə aid materialları təqdim etdi.

On the second day of the meeting, staff of Ombudsman Office, Anna Cybulko and Łukasz Modzelewski made presentations on how to organize an Ombudsman office and what are the roles and duties of Ombudsperson. Following their presentations, representatives of Students' Unions spoke their roles on providing students' rights and their collaboration with Ombudsman Office.

The third day of the meeting dedicated to the cooperation of Ombudsman Office with other University authorities, administrations and units. Representatives of the Students' Office and representative of the Rector's Anti-Discrimination Commission spoke about their activities, mission and goals and as well as their relationship with Ombudsman Office. Bartłomiej Chludziński, Ombudsman of Nicolaus Copernicus University in Torun, made a presentation on Ombudsman Office at Nicolaus Copernicus University. He spoke about the history of the Office, its activities and the roles of Ombudsperson. Agnieszka Siedlecka from the Center of Dispute and Conflict Resolution of Warsaw University spoke their activities and explained the roles and duties of mediators.

During the meeting, two Job Shadowings (workshops) were organized: Ombudsman Office leaded by Łukasz Modzelewski and the Center of Dispute and Conflict Resolution leaded by Katarzyna Drzazgowska. Representatives from Khazar University attended both offices and got acquainted with the activities of the Office on the place.

Rima Mammadova also met with Ms Sylwia Salamon, IRO head and Erasmus Institutional Coordinator and Ms Katarzyna Kozdra, responsible for the cooperation with Azerbaijan. She provided information about international projects of Khazar University, possible future co-operation on projects within the Erasmus+ program and presented promotional materials of Khazar University to them.





## VARŞAVA UNİVERSİTETİNİN ƏLİLLİYİ OLAN ŞƏXSLƏR ÜÇÜN OFİSİNİN DİREKTORU İLƏ GÖRÜŞ

Aprelin 5-də Xəzər Universitetinin Əlilliyi olan Tələbələr üçün Mərkəzinin koordinatoru Rima Məmmədova Varşavada işgüzar səfərdə olarkən Varşava Universitetinin Əlilliyi olan Şəxslər üçün Ofisinin direktoru, görmə qabiliyyəti məhdud olan Pavel Vdovik ilə görüşdü. Görüş zamanı Pavel Vdovik ofisin yaranma tarixi, qarşılaşdığı çətinliklər və əldə etdikləri nailiyyətlər haqqında danışdı. O, əlilliyi olan tələbələr üçün göstərdikləri xidmətlər haqqında məlumat verdi.

Rima Məmmədova, həmçinin, əlilliyi olan tələbələr üçün yaradılmış mərkəzlə və təmin olunmuş avadanlıqlarla tanış oldu. Görüş zamanı qarşılıqlı əməkdaşlıq barədə müzakirələr aparıldı və razılaşma əldə olundu.

## MEETING WITH A DIRECTOR OF THE CENTER FOR PEOPLE WITH DISABILITIES

On April 5, Rima Mammadova, coordinator of the Center for Studens with Disabilities met with Pawel Wdowik, director of the Office for Persons with Disabilities while being on a business trip in Warsaw. Druing the meeting visually impairment Pawel Wdowik spoke about the history of establishment the Office, faced challenges and achievements. He gave information on provided supports and assistants by the Office for Persons with Disabilities. Rima Mammadova also got familair with the Center established and provided equipment for students with disabilities.

During the meeting, mutual coopreation was discussed and agreement were made.

## "SPRINGER" NƏŞRİYYATI "XƏZƏR"İN ƏMƏKDAŞININ DAHA BİR KİTABINI ÇAP ÜÇÜN QƏBUL EDİB

Springer

Aprelin 12-də "Springer" nəşriyyatı Xəzər Universiteti Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasovun daha bir kitabını çap üçün qəbul etmişdir.

Kitab "Children and disaster risk management: a case study of Gabala District, Azerbaijan" ("Uşaqlar və fəlakət riski menecmenti: Azərbaycanın Qəbələ rayonu nümunəsində") adlanır.

Qeyd edək ki, kitab 2016-cı ilin yanvarında təqdim olunmuş və 3 müstəqil yoxlamadan (review) keçmişdir.

TIME

# THE RICHEST AMERICANS LIVE 10 YEARS LONGER THAN THE POOREST



Apr 06, 2017

**Alice Park**

Money may not buy you happiness, but it may help buy you health, and ultimately a longer life. Researchers analyzing data on income disparities and health outcomes in the U.S. found that health gaps between the rich and poor are widening, and that's translating to bigger differences in how long people live.

In a study published in The Lancet, scientists from Boston University School of Public Health report that the richest 1% of Americans live an average of 10 to 15 years longer than the poorest 1%. Since 2001, those with the least income showed no increase in survival, while people in middle and high incomes groups have gained on average two years in life expectancy.

Poverty has always been linked to poorer health outcomes, because people in lower income groups cannot afford as much health care and also tend to adopt less healthy habits, such as smoking and eating an unhealthy diet. But in recent years, several trends have worsened this connection, the researchers say. Poverty rates have increased, along with obesity and chronic conditions such as diabetes and hypertension, which can contribute to early death.

This cycle keeps worsening for several reasons, the authors say. For example, the poor are less likely to take advantage of federally mandated health coverage in the form of Medicare, since they are the least likely to reach the age required to become eligible for benefits.

"Low-income Americans are increasingly left behind," writes co-author Jacob Bor, assistant professor of global health at Boston University, in the study.

Given the close links and negative feedback loop between health and income, Bor and his colleagues warn that if income gaps continue to widen, health disparities will follow suit. If current trends continue, they predict that in a single generation, the gap in longevity between the wealthiest and poorest 20% of Americans will extend to a decade. "Without interventions to decouple income and health, or to reduce inequalities in income, we might see the emergence of a 21st century health-poverty trap and the further widening and hardening of socioeconomic inequalities in health," they write.



# "BAHARIN DÖRD ANI"

Aprelin 17-də "Dünya" məktəbində rus bölməsi IVa sinif şagirdlərinin iştirakı ilə "Baharın dörd anı" adlı bayram tədbiri keçirildi. Tədbir ibtidai məktəbin başa çatmasına həsr olunmuşdu. Tədbirdə "Dünya" məktəbinin təsisçisi Nailəxanım İsayeva, məktəb rəhbərliyi və müəllimlər, valideynlər və qonaqlar iştirak edirdilər.

Şagirdlər şeir söylədilər, mahnı oxudular və rəqs etdilər. Onların hər çıxışı alqışlarla qarşılanırdı.

Səmaya göndərdikləri böyük ağ şarın üzərində isə şagirdlər öz arzularını yazdılar. Onların ilk müəllimi Hüsniyyə Şıxəliyeva öz yetirmələrini qürur hissi ilə təhsilin sonrakı pilləsinə yola saldı. Bayram şənliyi böyük ruh yüksəkliyi ilə başa çatdı.









# ŞAİRLƏ GÖRÜŞ



Filologiya üzrə fəlsəfə doktoru, 8 kitabın, o cümlədən, 6 şeirlər kitabının müəllifi, Azərbaycan və İraq yazıçılar birliklərinin üzvü şair Adilə Nəzər "Dünya" məktəbinin qonağı oldu. Görüşün məktəb kitabxanasında 23 aprel - Ümumdünya Kitab və Müəllif Hüquqları Gününün qeyd olunduğu bir vaxta təsadüf etməsi maraqlı məqamlardan biri oldu.

Tədbirdə məktəbin müəllimi Güntəkin Binnətova Adilə Nəzərin yaradıcılığı haqqında şagirdlərə ətraflı məlumat verdi. Məktəblilər şairin şeirlərini söylədilər və bu şeirlər əsasında hazırladıqları sualların cavabını Adilə xanımın dilindən eşitdilər.

Məktəbin şagirdləri Aytac Şirinova, Aişə Baxşıyeva və Arzu Təbrizi öz yazdıqları şeirləri oxudular və şairin tövsiyələrini dinlədilər. Sonra müəllimlər - Güntəkin Binnətova və Mədinə Karahan şairin şeirlərini söylədilər.

Maraqlı sual-cavab əsasında keçirilən tədbir qonaqlara və şagirdlərə xoş anlar yaşatdı.

# MULTİKULTURALİZM MÖVZUSUNDA İNŞA MÜSABİQƏSİ



Məlum olduğu kimi, "Dünya" məktəbi tədrisin keyfiyyətini daha da yüksəltmək, şagirdlərdə hər bir fənnə ayrı-ayrılıqda maraq yaratmaq məqsədilə bütün ixtisaslar üzrə ənənvi fənn ayları keçirir. Mart ayı məktəbdə Azərbaycan dili və ədəbiyyat fənninə həsr olunmuşdu.

Keçirilən digər tədbirlərlə yanaşı, 2017-ci il Azərbaycanda Multikulturalizm ili elan olunduğuna görə məktəbin Azərbaycan dili bölməsinin VIII-IX sinif şagirdləri arasında bu mövzuda inşa yazı müsabiqəsi keçirildi. Onlar müsabiqədə böyük həvəslə iştirak etdilər. Müsabiqənin şərtlərinə cavab verən yazılar seçildi və şagirdlər arasından qaliblər müəyyənləşdirildi.

Fatimə Xəlifəli, Gülarə Hüseynova və Humay Rəhimli inşa müsabiqəsinin qalibləri elan olundular.



**Vurğun Əyyub**
*Xəzər Universitetinin Azərbaycan dili və ədəbiyyatı departamentinin müdiri*

# "HƏPSİ RƏNGİDİR" ŞEİRİ

*Əziz oxucu! Türkiyənin Kafkas Universitetində çalışarkən bir çox kitablarla tanışlıq imkanı əldə etdim. Bunların içərisində Mehmet Kaplanın "Şeir təhlilləri" adlı kitabı çox xoşuma gəldi. Kitabda hər şairdən bir-iki şeir örnək olaraq alınmış, həmin şeirlər hər cür ideoloji yanaşmalardan uzaq durularaq, mətn baxımından araşdırılmışdı. Təəssüfləndim ki, indiyə qədər Azərbaycan ədəbiyyatşünaslığında bu tipli araşdırmalar yoxdur. Ona görə də şeir sevənlərə, tələbələrə, gənc araşdırıcılara yardım olması üçün mən də Azərbaycan poeziyasının örnəkləri əsasında təhlillər aparmaq istədim.*

*Bəllidir ki, hər hansı bir ədəbi nümunə yazılıb oxucunun ixtiyarına verildikdən sonra müəllifindən asılı olmayan bir müstəqil sənət obyektidir. Oxucunun bu obyekti necə qavraması, ona münasibəti artıq müəllifdən asılı bir məsələ deyil. Oxucunun əsəri düzgün qavraması, ondan estetik zövq ala bilməsi üçün təbii ki, onun estetik, elmi baxımından araşdırılmasına ehtiyac yaranır. Bu halda oxucunun köməyinə ədəbiyyat araşdırmaçısı gəlir. Amma ədəbiyyat araşdırmaçısının vəzifəsi bədii nümunənin ətrafında dolaşmaq, ideoloji, siyasi qəliblərlə onun mövzusu, məzmunu üzərində subyektiv yorumlar yapmaq deyil, bədii mətninin ruhuna daxil olub gözəllik sirlərini oxucuya anlatmaq, heç olmazsa, sezdirməkdir. Tənqidçinin əsas işi əsərin estetik dəyərini ortaya çıxara biləcək mətn təhlili olmalıdır. Mətn nədir? Hər hansı bir mövzunu, hadisəni anlatmaq üçün işlədilən kəlmə, deyim, cümlə, abzaslardan yaranan söz toplusu mətndir. Bu, Gəncə üsyanını anladan bir tarix mətni də, kəpənəklərin həyat tərzini incələyən bir bioloji mətn də, bir cinayəti təsvir edən istintaq mətni də ola bilər. Bədii mətn isə hər hansı bir duyğu, düşüncə, xəyal, hadisənin ədəbi bir biçimdə ifadəsindən yaranan söz toplusudur. Məzmun, forma, dil, üslub kimi dörd əsas ünsür üzərində dayanmadan ədəbiyyat tarixçiliyinin ümumi hökmləri ilə bədii mətnin ədəbi sirrini, estetik dəyərini ortaya çıxarmaq mümkünsüzdür. Mən də illərlə topladığım bilik, təcrübədən yola çıxaraq, məhz mətni əsas götürməklə hər hansı bir bədii əsərin estetik dəyərini anlamaq, araşdıra bilmək üçün oxuculara örnəklər vermək arzusu ilə bu təhlilləri aparmağa girişdim. Burada apardığım təhlillər mənim bir ədəbiyyat araşdırıcısı olaraq ayrı-ayrı şeirlər haqqında düşüncələrimdir. Bacardıqca ideolji ştamplardan, vulqar yanaşmalardan uzaq duraraq, şeir mətnlərini təhlil etməyə çalışdım.*

*Beləliklə, həmin silsilədən bu dəfəki araşdırmam talesiz şairimiz Səməd Mənsurun "Həpsi rəngidir" şeiri haqqındadır.*

Uyma könlüm, xəlqdə yoxdur sədaqət, rəngidir.
Məscidü meyxanə rəng, eyşü ibadət rəngidir.
Mey riya, məşuqə ğəşş, hüsnü vəcahət rəngidir.
Rəngidir hər dürlü matəm, hər məsərrət rəngidir.
Anla, ey əbnayi-xilqət, cümlə xilqət rəngidir.

Görmədim bir zərri-xalis buteyi-nasutdə,
Mənəvi min ləkkə gördüm ləldə, yaqutdə,
Biqərəz insan olur görmək, fəqət tabutdə,
Bilməzəm varmı sədaqət aləmi-lahutdə,
Azma fikrim, cümlə ecazü kəramət rəngidir.

Hər kəsin Cibrili kəndi qəlbidir, vicdanıdır,
Var isə insafi şəxsin – dinidir, imanıdır,
Bədnihad insanların öz nəfsi öz şeytanıdır,
Lövhi-qəlbi arifin ayatıdır, Quranıdır,
Mabəqi-övhamdır, şər'ü təriqət rəngidir.

Bir zaman vardı ki, mən həmfikr idim zöhhad ilə,
Sonra gördüm fərqi yoxmuş zahidin cəllad ilə,
Dedim əyyaş olmalı, ta gün keçə mötad ilə,
Cümlə eyşü nuşi gördüm müxtəlif fəryad ilə,
Anladım kim, zöhdü təqva, eyşü işrət rəngidir.

Qıl təsəvvür bir daha şairlərin xülyasını,
Aşiqi-zarın başında seyr qıl sevdasını,
Qəbri aç, göstər ona Şirinini, Leylasını,
Bir ayılsın da, düşünsün gördüyü röyasını:
"Bax, – deyər – həqqa, bütün eşqü məhəbbət rəngidir."

Tapmadım aləmdə bir həmdəm ki, olsun biriya,
Görmədim heç kəsdə bir niyyət qərəzdən maəda,
Külli-əbnayi-bəşər öz nəfsinə olmuş fəda,
Nəfsi uğrunda görərsə hər bəla, hər macəra,
Məsləkə isnad edər, məslək, dəyanət rəngidir.

Bilmədim neyçünmüş aləm, bunca da yəsü ələm,
Zövrəqi-ömrün mühiti vərtəban dəryayi-qəm,
Böylə halda kimsədən bihudədir ummaq kərəm,
Hər gələn bulmaq dilər öz nəfsinə asudə dəm,
Arxalanmam kimsəyə, ülfət, rəfaqət rəngidir.

İndi ki, mümkün deyil aləmdə olmaq kamyab,
Ey gözüm qurbanı, saqi, ver yenə sağər, şərab,
Ver yenə sağər şərab, ey saqiyi-alicənab,
Bəlkə badənlə edə Mənsuri rahət iktisab,
Yoxsa bu aləmdə yoxdur istirahət, rəngidir.

## Şeirin yazılma dövrü, şairin psixoloji durumu haqqında

Şeirin yazılma səbəbi, şeir yazılarkən Səməd Mənsurun hansı psixoloji, mənəvi və maddi durumda olduğunu, onların şeirin yaranmasına hansı təsiri göstərməsini dəqiq şəkildə söyləmək imkanından məhrumuq. Bu barədə sənəd və faktların ortada olmaması şeirin yazılma tarixi və dövrü haqqında mübahisəli fikirlərin ortaya çıxmasına səbəb olmuşdur. Bir qisim ədəbiyyatşünaslar bu şeirin 1918-1920-ci illər arasında yazıldığını, bir qismi isə Sovet hakimiyyəti dövründə, daha dəqiqi 1926-cı ildə yazıldığını söyləyir. Dolayısı yollarla, məntiqi dəlillərə və başqa şeirləri ilə aparılan paralellərə söykənərək deyə bilərik ki, ikinci tarix həqiqətə daha yaxındır. Bu qənaətə gəlmək üçün bir neçə səbəb var. Birincisi, bu şeir 1918-1920-ci illərdə yazılmış olsaydı, bolşeviklər mütləq ondan Xalq Cümhuriyyəti əleyhinə yazılmış bir şeir olaraq təbliğat üçün istifadə edərdilər. Amma bunun əksinə olaraq Azərbaycan Yazıçılar İttifaqının ikinci sədri olmuş Seyfulla Şamilov öz "Tarixi beş il" (23 aprel 1937-ci il. "Kommunist" qəzeti) yazısında bu şeiri "mürtəce" adlandıraraq yazmışdı: "Köhnə yazıçıları birləşdirən "Ədəbiyyat cəmiyyəti" isə əsas etibarı ilə mürtəce fikir daşıyan yazıçılardan ibarət idi. Bu cəmiyyətin sədri Böyükağa Talıblı, katibi isə Əhməd Cavad idi. Bu "cəmiyyət"də "marksist" fikri ifadə edən partiya kadrosu Tağı Şahbazi, Hənəfi Zeynallı və Talıblı kibi nasionalist və çürük liberallardan ibarət olmuşdur ki, sonra bunlar öz kontrrevolyusion mahiyyətlərini alçaqcasına göstərdilər. Bu adamlar Cavadların, Çobanzadələrin və Səməd Mənsurların təsirinə qul olmağa qədər enmişlərdi. Bunların sayəsində "Ədəbiyyat cəmiyyəti"nin orqanı olan "Ədəbi parçalar" jurnalının səhifələrində "Rəngdir" kibi (Səməd Mənsurun məşhur "Rəngidir" şeiri nəzərdə tutulur) açıq mürtəce şeirlər çap olunurdu."

İkincisi, S. Mənsurun "Rəngidir" şeiri Sovet hakimiyyəti illərində yazdığı aşağıdakı parçalarla yaxından səsləşir. Dostu aktyor Hacağa Abbasova müraciətlə yazılmış bu parçaların birində S. Mənsurun yaxın dostları hesab olunan və Sovet hakimiyyəti zamanı yüksək vəzifə tutan, ancaq çətin məqamlarında şairdən üz döndərən, problemlərinin həllində ona kömək göstərməyən Dadaş Bünyadzadə və Baba Əliyevdən narazılıq ifadə edilir. İkinci parça isə o zaman yüksək mövqe sahibi (xalq komissarı) olan Səməd Ağamalıoğlunu tənqid edən parçadır.

*Hacıağa! Böylə də bir aləm olar?*
*Bir ürəkdə bu qədər də qəm olar?*
*Hər kəsə yar dedim, mar oldu,*
*Bakı, Səlyan hamı biar oldu.*

Yaxud:

*Hər kəsə dost dedim*
*düşməni-can oldu mənə,*
*Düşmən öz bəxtim imiş,*
*indi əyan oldu mənə!..*

Bəzi misralarını göstərdiyimiz bu parçalardakı əhval-ruhiyyə, fikirlər, narazılıq motivləri "Rəngidir" şeirinin ümumi ruhu ilə yaxından səsləşir. Bu deyilənlərə əsaslanaraq "Rəngidir" şeirinin Sovet hakimiyyəti qurulduqdan sonra yazıldığını söyləyə bilərik.

## Şeirin məzmun və ideyası

Şeirin adı onun məzmun və ideyası ilə birbaşa bağlıdır. Şeirdə "rəngidir" sözü həqiqi mənasında, yəni boya, bir şeyin işıq tonu mənasında deyil, məcazi mənada işlənmişdir. "Rəngidir" sözü burada mövcudluğun, gerçəkliyin, var olanın əsl mahiyyətini gizlətmək, rəng çəkilərək gözü aldatmaq (insan bir şeyin varlığındakı təbiiliyi gizlətmək, bəzək-düzəkli görünməsi üçün ona rəng vurur), başqa cür yozulmaq, dondan dona girmək mənalarını özündə daşıyır, konkret olaraq daha çox hiylə, yalan anlayışına uyğundur.

Şeirin əsas məzmunu həyatdakı, mənəvi-əxlaqi aləmdə mövcud olan, lakin həlli imkanları insana qeyri-mümkün görünən faciəvi halların təsviri, sadalanmasıdır. Şair ümumi halda bütün xalqı, bütün insanları müqəddəs hesab olunan dəyərlərin arxasında gizlənib hiylə işlətməkdə ittiham edir. Şeirdə həyatdan, insanlardan əlini üzmüş, ümidsiz, bədbin bir insanın ruhi vəziyyətini görürük. Dünyanı, varlığı, insanlığı tamamilə yalan, riya, xəyanət məskəni kimi görən bir qəhrəman... və işıqdan, xeyirdən, gözəllikdən məhrum bir gerçəklik! Şeir başdan ayağa şər, yalan, eybəcərliklə qarşılaşan və sonunda məğlub olub ümidsizliyə qapılan qəhrəmanın etiraz, fəryad dolu inkarçılığı üzərində qurulmuşdur. Amma belə başa düşülməməlidir ki, əgər şair, məsələn, insanlar arasındakı sədaqəti yalan, riya, "rəng" hesab edirsə, o ümumən, sədaqət, dostluq kimi dəyərləri inkar edir. Şair "var olmalı"ları deyil, var olanları, bəşəriyyətin minillər boyu yaratdığı dəyərləri yox, onların arxasında gizlədilmiş hiylə, yalan, eybəcərliyi inkar etmişdir. Şeirin yazıldığı dövrü nəzərə alsaq, ictimai həyatın gündən günə gözəlləşdiyini, insanların şad-xürrəm yaşadığını, hər qarışın canlandığını söyləyən mədh tozanağı qarşısında bu qədər inkarçı bir mövqeyin ortaya qoyulmasını müəllifin mövcud quruluşa qarşı bir etirazı kimi də qiymətləndirmək və mənalandırmaq mümkündür. Ancaq şeir daha çox ümumifəlsəfi yanaşması ilə diqqəti cəlb edir. Bunlara əsasən güman etmək olar ki, bu şeiri yazarkən S. Mənsur psixoloji baxımdan çətin bir durumda olmuş, yaşadıqlarının və gördüklərinin təsiri altında dərin bir xəyal qırıqlığına düçar olmuşdur. Əlbəttə, dünyadan əl üzmək, mövcud mənəvi-əxlaqi eybəcərliklərə görə varlığı inkar etmək ideyası ədəbiyyatımız üçün yenilik deyildir. Üzü Xaqanidən tutmuş Nəsimi və Füzuli, Vidadi və Vaqif kimi klassik şairlərimizdə, romantik şeirimizin Hadi kimi görkəmli simasında həyatdan küskünlük, ondan üz çevirib "qaçmaq" motivlərinə sıx-sıx rast gəlirik. Lakin S. Mənsurun sufilər, yaxud klassik ədəbiyyatın başqa tərki-dünya şairləri kimi mövcud dünyadan, real gerçəklikdən əl üzüb, başqa bir aləm arayışında olmasının şeirdə izlərinə, o arzunu ifadə edəcək beytlərə, misralara rast gəlmirik. Bu dərd və qəmdən, həyatda və dünyada gördüyü eybəcərliklərdən qurtuluş yolunu şərabda, məst olub bu dünyanı, həyatı unutmaqda görən bir şair obrazı qarşımıza çıxır. (Hərçənd ki, o, şeirinin bir yerində eyş-işrətin də rəng olduğunu söyləyir. Əslində bu fikrində şair daha doğru və gerçəkçidir.)

Şeir Vahidin 1914-cü ildə yazdığı aşağıdakı misraları ilə də həmahəngdir:

*Olmadım bir ləhzə, ya rəb, bu vətən mülkündə şad,*
*Ömrüm əksildi günü gündən, qəmim oldu ziyad,*
*Bifəfa gördüm kimə dünyada etdim etimad...*

"Həpsi rəngidir" şeiri yanaşma, məzmun, ideya, forma baxımından M. P. Vaqifin "Görmədim" müxəmməsini xatırladır. "Görmədim"də olduğu kimi, bu şeirdə də biz həyatı bütün mürəkkəbliyi, təzadları ilə, inkarla təsdiqin, yaxşı ilə pisin vəhdətini, əxlaqi ilə qeyri əxlaqinin birlikdə yaşama imkanlarını görə bilmirik. Şair "qaranlıqda işığı", "tikanın yanında gülü" göstərmək yox, yalnızca qaranlıq və tikanı görmək və göstərmək yolu ilə getmişdir ki, bu da onun həyata, dünyaya obyektiv baxışını zədələmişdir.

## Şeirin sənətkarlığı

"Həpsi rəngidir" klassik müxəmməs janrında yazılmış, səkkiz bənddən ibarət, lirik-fəlsəfi lirikanın örnəklərindən olan bir əsərdir. Lirik qəhrəmanın öz könlünə müraciəti ilə ("uyma könlüm") başlayan şeirdəki "azma könlüm", "görmədim", "gördüm", "anladım", "tapmadım", "bilməzəm", "arxalanmam" və sair kimi ifadələr sübut edir ki, şeirin qəhrəmanı ilə şair eyni şəxsdirlər. Əsər gerçəkliyin obyektiv təsvirindən daha çox gerçəkliyin şair düşüncəsində və qəlbində yaratdığı subyektiv qənaət və duyğuların inikasıdır.

Dediyimiz kimi, şeir "rəngidir" fikri və ifadəsi üzərində qurulmuşdur. Bu klassik ədəbiyyatda, türk romantizmində və Hadi yaradıcılığında gördüyümüz şəkil və üslubdur. Şeirdəki misraların əksəriyyəti müstəqim, biri digərindən asılı olmayan bir cümlə olsa da, "rəngidir" təkriri onların hamısını bağlayır və tamamlayır. Fikirlərini, adətən, bir misra içərisinə yerləşdirən şair onları əsaslandırmağa heç bir ehtiyac duymamışdır. O, sadəcə olaraq, onu əhatə edən hər şeyin, qarşılaşdığı münasibətlərin yalan, riya, "rəng" olduğuna inanmış və onu şeir dili ilə ifadə etmişdir. Anlaşılan budur ki, şair dərin bir iztirab, kədər içində olmuş, görünməmiş bir yalan, riya və aldanışla üz-üzə qalmışdır. Şəxsi aldanışları onu kainat miqyasında ümumiləşdirmələr aparmağa sövq etmişdir. Bu ümumiləşdirmə düşüncəsi hər bəndin sonunda səslənən "rəngidir" sözü ilə ifadə olunmuşdur. Hər misrasından həyata, dünyaya, insanlara, inanışlara dərin bir kin, narazılıq, məyusluq yağan şeir oxucunu dərindən düşünməyə sövq edir.

Bu şeirdə S. Mənsurun klassik ədəbiyyatın ənənələrinə nə qədər dərindən bağlı olduğu açıq görünməkdədir. Bu bağlılıq həm həyata, dünyaya baxış, hadisələrə münasibətlə, həm də şeirin şəkli, vəzni, dilində ərəb-fars tərkiblərinin çox işlənməsi ilə şərtlənir.

Şeir ahəng, ritm baxımından cəlbedicidir. Vəzn, qafiyə, alletrasiya, təkrir kimi ifadə vasitələrindən ustalıqla istifadə edilməsi şeirin məzmun və ideyasının açılmasına böyük yardım etmişdir. Şeirdə "m", "n", "l" samitlərinin, "a" və "ə" saitlərinin yaratdığı alletrasiyalar şeirin məzmununa uyğundur. Şeirin qafiyə sistemində zəngin, tam qafiyələrlə (ələm, qəm, kərəm, dəm; zöhhad, cəllad, mötad, fəryad) bərabər zəif, yarımçıq qafiyələr (biriya, macəra; xülyasını, sevdasını) də nəzərə çarpır ki, bu da şeirin ritm və ahəng gözəlliyinə az da olsa, xələl gətirir. Şeirdə parlaq mübaliğə, bənzətmə və başqa mürəkkəb məcazlara az rast gəlsək də, istifadə edilmiş digər bədii vasitələr – qarşılaşdırmalar, təzadlar şeirin bədii təsir gücünü artırmışdır. Üslubdakı dərin bir lirizm, təlqinedicilik, sonsuz hüzn oxucunu öz sehrində saxlayır.

Quruluş baxımından da şeir ustalıqla qurulmuşdur. İstər bəndlər, istərsə də bəndlər daxilindəki misralar məntiqi bir ardıcıllığa və əlaqəyə tabedir. Ancaq bu da deyilməlidir ki, şeirin sonlarına doğru fikir də, onun ifadəsi də zəifləmişdir. Fikrimizcə, birinci bəndin sonuncu misrası sonuncu bəndin sonunda işlənsəydi, şeir öz məntiqi ardıcıllığının zirvəsinə çatmış olardı. Şairin sadalama texnikasının son vurğusu kimi "cümlə xilqət rəngidir" ifadəsi S. Mənsurun düşüncələrinin yekunu olaraq səslənərdi.

TIME

# HERE'S HOW TO BE LESS TIRED AFTER WORK

**Amanda MacMillan**

**Apr 05, 2017**

If you want to be more focused at work and feel less exhausted at the end of it, take a lunchtime walk, suggests a new study in the Journal of Occupational Health Psychology.

Researchers wanted to see if people could get more out of their half-hour lunch break by switching it up. They surveyed about 100 workers in a variety of fields about their normal lunch break routines, then told them to change what they did during that time for 10 work days in a row. Half of them took a leisurely walk through a nearby urban park and focused on their natural surroundings, while the other group found a quiet place inside their office building to do a series of relaxation exercises, including deep breathing and mindfulness techniques. Both activities took 15 minutes, and people did them after they ate a quick lunch.

In the weeks before, during and after the experiment, people rated their levels of wellbeing, how much they enjoyed their lunch breaks and how much they were able to detach from work during them.

Overall, people in both groups said they concentrated better, had less strain and had higher wellbeing on the afternoons they walked or relaxed, compared to when they followed their normal lunch routines. People enjoyed their breaks more on days they walked in the park. These higher levels of enjoyment were directly related to improvements in concentration and fatigue, the study authors say.

People in the other group didn't enjoy their breaks more on the days they did relaxation exercises, compared to when they had their usual lunch breaks. Instead, their benefits seemed to be driven by higher levels of detachment from work.

The effects of these interventions lasted. "We were not sure beforehand whether the benefits would be observable some hours after the break," said lead author Marjaana Sianoja, a psychology researcher at the University of Tampere, in an email. But the researchers found that the effects were evident into the late afternoon, about 30 to 60 minutes before people left work to head home. Recovery breaks may also help people leave work with more energy, says Sianoja, which could have benefits for their personal and social lives.

The study focused specifically on slow-paced walks in green or natural environments, and it may be difficult for people in large cities to get to this type of restorative space on their lunch break. In these cases, the researchers suggest, relaxation exercises may be easier to fit in on a regular basis.

For people who think their work day is just too hectic to take 15 minutes for themselves, Sianoja suggests that time lost might be made up for by better afternoon efficiency. "These types of activities might have potential in maintaining productivity throughout the working day," she says.

The research has inspired Sianoja to take walks or meditation breaks when she's particularly busy with work. "As soon as the weather gets nice, I like to take short walks in a nearby park," she says, "but for this to be beneficial I have to go alone, as the trick is to focus fully on the natural surroundings."






# XƏZƏR UNİVERSİTETİ MULTİMEDİA MƏRKƏZİ TƏQDİM EDİR

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev keçən ilin sentyabrında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində "ABAD" (Ailə Biznesinə Asan Dəstək) publik hüquqi şəxsin yaradılması haqqında fərman imzalamışdı. "ABAD" artıq fəaliyyətə başlamış, İçərişəhərdə satış-yarmarka təşkil etmişdir. Multimedia mərkəzinin əməkdaşı Fərid Ağalarovun satış-yarmarkadan fotoreportajını təqdim edirik.

















# İNSANI ÖLDÜRMƏK...

(*Hekayə*)

**Cek London**

*1876-1916*

ABŞ

Evi zəif gecə lampaları zorla işıqlandırsa da, qadın özünə yaxşı tanış olan böyük otaqlarda və geniş salonlarda sərbəst gəzir, yarımçıq qoyduğu şeirlər kitabını axtarırdı. Axşamtərəfi kitabı harasa qoymuş, indi isə xatırlamışdı. Qonaq otağına girib işığı yandırdı. Qadının çılpaq boynu və çiyinləri kənarları krujevalı, solğun qırmızı ipək donun içində üzürdü. Gecədən keçməsinə baxmayaraq, qadının barmaqlarındakı üzüklər bərq vururdu, qızılı saçları səliqəylə yığılmışdı. O çox gözəl, zərif qadın idi. Al dodaqlı yumru sifətində mavi gözləri parıltı saçırdı. Gözlər gah bakirə qız məsumluğu ilə geniş açılır, gah da qəddar, boz və soyuq olurdu, bəzən isə orada nəsə vəhşi, amiranə və inadkar əlamət sezilirdi.

Qadın qonaq otağının işığını söndürüb dəhlizə çıxaraq başqa otağa üz tutdu. Qapının yanında dayandı. Nəsə onu ehtiyatlı olmağa vadar edirdi. Zəif səs eşitdi. Yüngül bir xışıltı idi, sanki otaqda kimsə hərəkət edirdi. Qadın and içə bilərdi ki, heç nə eşitməyib, ancaq nəsə özünü ələ ala bilmirdi. Gecənin sükutu pozulmuşdu. Qadın öz-özündən soruşurdu ki, gecənin bu çağı xidmətçilərdən kim otaqlarda gəzə bilər? Eşikağası ola bilməzdi: o kişi erkən yatmaq vərdişini yalnız xüsusi hallarda dəyişirdi. Qulluqçu da ola bilməzdi: qadın özü o qıza bir gecəlik icazə vermişdi.

Yemək otağının yanından keçəndə qapının bağlı olduğunu gördü. Özü də bilmədən qapını açıb içəri daxil oldu.

Qulağına dəyib onu həyəcanlandırmış səsin məhz buradan gəldiyini bəlkə də hiss etmişdi. Otaq qaranlıq idi, amma o kor-koranə işığın düyməsini tapıb sıxdı. İşıq yanan kimi qadın qapıya tərəf çəkilib yavaşca ah çəkdi.

Onunla üzbəüz, işıq düyməsinin yanındakı küncə qısılmış bir kişi tapançasını qadına tuşlamışdı. Qorxu içində olsa da, qadın tapançanın qara rəngini və çox uzun olduğunu gördü. "Kolt"dur, – düşündü. Kişi bəstəboy idi, pis geyinmişdi, gündən qaralmış sifəti və qonur gözləri tamamilə sakit görünürdü. Tapança onun əlində titrəmirdi, düz qadının sinəsinə tuşlanmışdı.

– Ah, bağışlayın, ¬– qadın dilləndi. – Qorxuzdunuz məni. Sizə nə lazımdır?

– Burdan tez rədd olub getmək, – kişi dodaqlarını əyib dedi. – Sizin bu saysız-hesabsız otaqlarınızda əməlli-başlı azmışam, əgər siz müsaidə edib yolu göstərsəz, mən sizə heç bir pislik etmədən dərhal çıxıb gedərəm.

– Bəs bura necə gəlib çıxmısız? – qadın soruşdu, onun səsində həmişə amirliyə öyrəşmiş adamın kəskinliyi hiss edildi.

– Sadəcə olaraq, sizdən nəsə oğurlamaq istəyirdim, miss, vəssalam. Bura qalxdım ki, görüm götürəsi bir şey varmı? Əmin idim ki, evdə yoxsunuz, çünki sizi qocayla birlikdə maşına minən görmüşdüm. Yəqin ki, atanızdı, siz isə miss Setlifsiz, hə?

Miss Setlif kişinin səhvini anladı, sadəlövh komplimetini qiymətləndirdi, ancaq naməlum adamı hələlik çaşqınlıqda saxlamağı qərara aldı.

– Sizə kim dedi ki, mən miss Setlifəm – qadın soruşdu.

– Bu ki qoca Setlifin evidir?

Qadın təsdiq mənasında başını tərpətdi.

– Mən heç bilmirdim ki, onun qızı var. Hm, indi əgər çətin deyilsə, zəhmət olmasa, yolu göstərin, çıxım gedim, əvəzində sizə çox minnətdar olaram.

– Necə yəni, çıxım gedim? Axı siz quldursuz, oğrusuz.

– Bu işdə naşı olmasaydım, barmaqlarınızdakı üzükləri çıxarar, sizinlə də vaxt çürütməzdim, – kişi nırıldandı. – Ancaq mən qoca Setlifi soymağa gəlmişdim, qadını yox. Qapının qabağından çəkilsəniz, yolu özüm də taparam.

Miss Setlifin ağlı iti işləyirdi. Dərhal başa düşdü ki, bu adamdan qorxmağa dəyməz. Kişinin peşəkar cinayətkar olmadığı aydın idi, tələffüzünə görə isə şəhər adamı olmadığını düşünmək olardı. Kişidən hətta ucsuz-bucaqsız çöllərin təmiz havasının iyi gəlirdi.

– Mən qışqırsam necə? – qadın maraqlandı. – Köməyə çağırsam necə? Məgər siz məni güllələyə bilərsiz?.. Qadına əl qaldırarsız?

Kişinin tünd gözlərindəki çaşqınlıq qadının gözündən yayınmadı. O, düşüncəli tərzdə, yavaş-yavaş, sanki problemi həll edirmiş kimi cavab verdi:

– Güman ki, sizi boğardım, ya da şikəst edərdim.

– Qadını?

– Belə etməyə məcbur olcaqdım, – kişi dedi və qadın onun dodaqlarının bir-birinə sıxıldığını gördü. – Əlbəttə, siz köməksiz bir qadınsız, ancaq məsələ burasındadır ki, miss, mən həbsə düşə bilmərəm. Heç cür düşə bilmərəm. Dostum məni qərbdə gözləyir. Bədbəxtliyə düçar olub və oun dadına çatmalıyam. Məncə, bir elə ağrı vermədən sizi boğa da bilərəm.

Qadın gözlərini geniş açıb uşaq sadəlövhlüyü ilə kişiyə baxırdı.

– Ömrümdə quldur görməmişdim, – o dedi. – Heç təsəvvür edə bilməzsiz ki, sizinlə kəlmə kəsmək mənim üçün necə maraqlıdır.

– Mən quldur deyiləm, miss... Deyirəm, yəni əsl quldur deyiləm, – qadının açıq inamsızlıqla baxdığını görüb tez əlavə elədi. – Hə əlbəttə, madam ki, özgəsinin evinə soxulmuşam, elə düşünmək olar... Ancaq birinci dəfədir belə edirəm. Mənə mütləq pul lazımdır. Bir də, mən yalnız mənə çatası olanı götürmək istəyirəm.

– Heç nə başa düşmürəm, – qadın gülümsündü. – Oğurlamağa gəlmisiz, oğurluq məgər sizə çatası şeydir?

– Həm elədir, həm də yox... Hm... mən çıxıb getsəm yaxşıdır.

Kişi qapıya tərəf addımladı, ancaq qadın onun yolunu kəsdi. Özü də, necə canlar alan maneə idi! Kişi sol əlini uzadıb sanki ondan yapışmaq istədi, ancaq tərəddüd içində dayandı. Aydın görünürdü ki, qadının məsumluğu və gözəlliyi kişinin əl-qolunu bağlayır.

– Görürsünüzmü, – qadının qalibanə səsi eşidildi, – bilirdim ki, mənə toxunmazsız.

Kişi əməlli-başlı özünü itirmişdi.

– Ömrümdə qadın incitməmişəm, – o dedi. – Bunu etmək qərarına gəlmək də mənim üçün asan deyil. Ancaq siz qışqırsanız, mən buna məcbur olacam.

Qadın inadla dilləndi:

– Bir az da qalın. Söhbət eləyək. Elə maraqlıdır ki! İstəyirəm öyrənim, nə üçün oğurlamaq sizə çatacaq payı götürməkdir?

Kişi heyran nəzərlərlə ona baxırdı:

– Mənə həmişə elə gəlirdi ki, qadınlar oğrulardan qorxurlar, ancaq deyəsən, siz elələrindən

deyilsiz.

Qadın güldü.

– Bilirsiz, oğrudan oğruya fərq var. Mən sizdən qorxmuram, çünki başa düşürəm ki, siz qadın incidən adamlardan deyilsiz. Gəlin söhbət edək. Gəlin söhbət edək. Heç kim bizə mane olmaz. Evdə təkəm. Atam gecə qatarı ilə Nyu-Yorka gedib, xidmətçilər isə yatırlar. Sizi nəyəsə qonaq etmək istəyirəm, axı, qadınlar həmişə tutduqları oğruları nəyəsə qonaq edirdilər, hər halda, romanlarda belə yazılır. Ancaq heç bilmirəm yeməyi hardan tapım. Bəlkə nəsə içmək istəyirsiz?

Kişi tərəddüd içində dayanıb dillənmədi. Qadın onun xoşuna gəldiyini və bu istəyin anbaan artdığını yaxşı anlayırdı.

– Qorxursuz? – o soruşdu. – Sizi zəhərləmərəm, düz sözümdür. Sizi əmin etmək üçün, özüm də içərəm.

– Siz qeyri-adi dərəcədə gözəl qızsız? – kişi deyib ilk dəfə tapançasını aşağı saldı. – Bundan sonra dünyasında inanmaram ki, şəhər qızları qorxaq olurlar. Bax siz, zərif, balaca qadınsız, cəsarətiniz isə başdan aşır. Ən əsası isə, sadəlövhsüz. Görəsən, silahlı quldurla sakitcə söhbət edə bilən qadına çox rast gəlmək olar? Lap elə olsun kişi.

Sözlərin sehri altında qadın gülümsündü, ancaq təzədən danışanda səsi yenə ciddiydi:

– Ona görə ki, mənim xoşuma gəlirsiz. Siz tamamilə düz adama oxşayırsız, oğruya oxşatmaq olmur sizi. Atın daşını oğurluğun. Bəxtiniz gətirmirsə, iş axtarın. Yaxşı, bu zibil tapançanı bir qırağa qoyacaqsız, ya yox? Gəlin işdən danışaq. Hər şeydən qabaq, sizə münasib iş tapmaq lazımdır.

– Bu şəhərdə ay tapdın ha, – kişi acı-acı dedi. – Mən axtarmaqdan zara gəlmişəm. Sözün düzü, çox da pis adam deyildim ta… ta… Ta işsiz olana qədər.

Kişinin əsəbi sözləri şən gülüşlə qarşılandı, gülüş onun ürəyinə yağ kimi yayıldı, qadın isə bunu dərhal anlayıb əlverişli fürsəti əldən vermək istəmədi. Qapıdan aralanıb bufetə tərəf yeridi.

– Mən bufetdən bir şey tapanacan hər şeyi yerli-yataqlı danışın. Nə içirsiz? Viski?

– Bəli, madam, – hələ də əlində tapança sıxılmış kişi açıq və heç kimin qorumadığı qapıya tərəf baxaraq qadının arxasınca yeridi.

Qadın stəkana viski süzdü.

– Sizinlə içəcəyimə söz vermişdim, – qadın sözləri seçə-seçə danışdı. – Ancaq mən viski xoşlamıram. Çaxıra üstünlük verirəm.

Qadın çaxır şüşəsini qaldırıb icazə istəyirmiş kimi kişiyə baxdı.

– Əlbəttə, əlbəttə, viski kişi içkisidir. Sözün düzü, qadınların viski içməsini xoşlamıram. Çaxır isə başqa məsələ, çaxır olar.

Qadın baxışlarını kişiyə zilləyib stəkanını onun stəkanına vurdu.

– Sizin uğurlarınız naminə. Arzu edirəm, münasib bir iş tapasız…

Kişinin çöhrəsində nifrət və təəccüb sezən qadın qəflətən səsini kəsdi. Kişi bircə qurtum içib, stəkanı yerə qoydu.

– Nə oldu? – qadının qayğılı səsi eşidildi. – Viskidən xoşunuz gəlmir? Bəlkə səhv salmışam?

– Qəribə viskidir. Tüstü iyi verir.

– Gör bir necə səfehəm. Sizə şotland viskisi süzmüşəm, siz isə, əlbəttə, yerli viskiyə öyrəşmisiz. İndi dəyişərəm.

Az qala ana qayğısı ilə qadın stəkanı dəyişdirib lazımi şüşəni tapdı.

– Hə, bu necə, xoşunuza gəlir?

– Bəli, madam. Ondan tüstü qoxusu gəlmir. Əsl mən deyən viskidir. Bir həftədir dilimə bircə damcı da dəyməyib. Bu günəbaxan viskisidir. Dərhal görünür ki, təmizdir, qatışığı yoxdur.

– Çox içənsiz?

– Yox, madam, elə deməzdim Əvvəllər həddimi aşan çağlarım olub, onda da ildə-ayda bir

kərə... Bəzən bircə qədəh viski çox yerinə düşür – lap indiki kimi. Hə, madam, xeyirxahlığınız üçün çox sağ olun, mən daha tərpənim.

Ancaq miss Setlif öz oğrusunu belə tezliklə buraxmaq istəmirdi. Demək olmazdı ki, o, macəra romantikliyinə meyl edirdi, yox, miss Setlif yüngül söz-söhbət dalınca qaçan qadınlardan deyildi. Bu kişidə nəsə həyəcanlandıran qeyri-adi bir şey vardı və qadının marağı da onun ucbatından idi. Üstəlik, indi tam əmin idi ki, qorxmağa dəyməzdi. Kobud çənəsinə, qəddar baxışlarına baxmayaraq, bu adam təəccüblü dərəcədə sözəbaxan idi. Hardasa qadının qəlbinin dərinliklərində baş qaldırmış həvəsi ona pıçıldayırdı ki, tanışları eşidəndə onunla necə fəxr edəcəklər, ona necə həsəd aparacaqlar... Belə fürsəti əldən buraxmaq olmazdı.

– Siz heç izah eləmədiniz ki, nə üçün oğurlamaq sizə çatası nəyisə götürmək adlanır? – qadın dedi. – Bax burda, stolun arxasında oturun və bu barədə danışın.

Qadın özü də kişiylə üzbəüz oturdu. Kişi hələ də sayıqlığını itirməmişdi: gözləri diqqətlə dörd tərəfi müşahidə edirdi, sonra o baxışlar sakit bir heyranlıqla ani olaraq qadına dikilir, qadın danışanda isə onun səsindən çox kənar səslərə diqqət edirdi. Bir an da olsun stolun üstünə qoyduğu, sonra dəstəyi sağ əlinə tərəf çevrilmiş, indi isə əslində ikisinin arasında olan tapançası yadından çıxmırdı.

Kişi özünə tanış olmayan, özgə evindəydi. O, qərb tərəflərin oğluydu, onun qulaqları və gözləri daimi keşikdə idi, meşələrdə və çöllərdə cəsarətli axtarışları vaxtı qulaqları və gözləri onun dadına çatırdı, indi isə bilmirdi ki, stolun altında, üzbəüz oturduğu qadının ayaqları yanında elektrik çağırı zənginin düyməsi var. Kişi heç vaxt belə kəşf haqqında eşitməmişdi, onun sayıqlığı və ehtiyatlılığı burda aciz idi.

– Bilirsizmi, miss, – qadının israredici sualına cavab verməyə başladı, – haçansa qoca Setlif mənə kələk gəldi. Bir işimiz vardı. Hə, kələk gəlib bütün var-yoxumu əlimdən aldı. Kimin ki cibində yüz milyonlarla pulu var, o nə edirsə-etsin, hər şey qanunidir. Hər şey də onların əllərindən gəlir. Mən sədəqə diləmərəm və atanızdan intiqam almaq fikrim də yoxdur. O mənim barəmdə heç vaxt eşitməyib və əlbəttə, qətiyyən bilmir ki, məni dilənçiyə çevirib. Axı o, əlində milyonlar oynadan vacib şəxsiyyətdir, mənim kimi qarışqadan onun nə xəbəri olacaq? O, işbaz adamdır. Onun istifadəsində yüzlərlə müxtəlif mütəxəssis var; bu adamlar onun əvəzinə düşünür, onun əvəzinə işləyirlər. Eşitmişəm ki, onların bəzisi Birləşmiş Ştatların prezidentindən çox maaş alır. Mən isə sizin sevimli "atacığ"ınızın məhv etdiyi minlərdən yalnız biriyəm.

Bilirsinizmi, madam, mənim bircə at gücünə malik hidravlik qurğusu olan balaca idarəm vardı. Ancaq Setlif və onun şərikləri bütöv Aydaho torpaqlarını ələ keçirib əritmə təsərrüfatını təzədən qurandan və Tuin Payns yaxınlığında nəhəng hidravlik qurğunu yaradandan sonra, əlbəttə, mənim işim bitdi, mən heç öz işimə qoyduğum pulu çıxara bilmədim. Mitilimi atdılar bayıra. Ona görə də, bu gecə cibində bircə qəpiyimdə də olmayanda və dostumun necə ehtiyacı olduğunu biləndə bura gəlib sizin atacığınızın əmlakına azacıq əl gəzdirmək qərarına gəldim. Mənə pul lazımdır, ona görə də, əgər atanızdan mənə çatası nəsə qopara bilsəm, bu, Allah yanında günah sayılmaz.

Miss Setlif etiraz etdi:

– Bütün dediklərinizi həqiqət olsa belə, oğurluq oğurluq olaraq qalır. Məhkəmədə bundan ötrü sizə bəraət verməzlər.

– Bilirəm, – kişi qısaca razılaşdı. – Ədalətli olan hər şey çox vaxt qanuni olmur. Bax ona görə də mən indi burda sizinlə narahat oturub söhbət edirəm. Bu heç də o demək deyildir ki, sizinlə oturmaq ürəyimcə deyil. Əsla! Siz mənim çox xoşuma gəlirsiz, ancaq mən heç cür polisin cənginə keçə bilmərəm. Yaxşı bilirəm ki, onlar mənim başıma hansı oyunu açarlar. Keçən həftə bir oğlanın belinə beş il qoydular, özü də nəyin üstündə? Küçədə bir nəfərdən iki dollar səksən beş sent pul çırpışdırdığına görə. Bu barədə özüm qəzetdə oxumuşam. İş olmayan çətin vaxtlarda insanlar ümidsizləşir, qəddarlaşır və əlinə keçən hər kəsin başında bu qəddarlığı partlatmağa imkan axtarır. Əgər bu dəqiqə tutul-

sam, on ildən aşağıya ümid bəsləyə bilərəm. Ona görə, tez çıxıb getmək istəyirəm.

– Yox, dayanın, – qadın əlinin hərəkəti ilə onu saxlamağa çalışdı, eyni anda ayağını elektrik zənginin düyməsindən götürdü, neçə dəfə idi ki, o zəngi basırdı. – Siz heç demədiz ki, adınız nədir.

Bir anlıq tərəddüddən sonra kişi dedi:

– Məni Deyv çağıra bilərsiz...

– Məsələ burasındadır ki... Deyv, – qadın istəkli bir utancaqlıqla güldü, – sizin üçün nəsə eləmək lazımdır. Siz hələ cavansız, hesab edəcəyiniz hər şeyi götürsəniz, sonralar elə öyrəşəcəksiz ki, heç payınıza düşməyənləri də çırpışdıracaqsız. Bütün bunların axırı bilirsiz necə olur? Yaxşısı budur, sizin üçün münasib iş tapaq.

– Mənə pul lazımdır, özü də, bu dəqiqə lazımdır, – kişi inadla dilləndi. – Özüm üçün istəmirəm, dostum üçün. Əgər dərhal kömək olunmasa, getdi onun qatarı.

Qadın cəld danışdı:

– Mən sizin üçün iş tapa bilərəm... Qaldı sizin dostunuzun məsələsi... Bilirsiz nə var? Sizə borc verərəm, göndərərsiz ona. Sonra öz maaşınızdan mənim pulumu qaytararsız...

– Üç yüz dollar bəs edərdi, – kişi sakitcə dedi. – Hə, üççə yüzə o, canını qurtarar. Bundan ötrü, bir də adicə sup, hə, bir də tütün üçün bir-iki sent pula bir il nəfəs dərmədən işləməyə hazıram.

– Ah, siz çəkirsiniz? Heç ağlıma gəlməyib.

Qadın tapançanın üstündən əlini uzadıb siqaret çəkənlərin barmaqlarında olan məlum sarı ləkələrə işarə etdi və həm də, nəzərləri ilə silaha qədər olan məsafəni ölçdü. Cəld hərəkətlə tapançanı götürmək istəyirdi. Qadın əmin idi ki, silahı götürə bilər, ancaq yenə də tərəddüd edirdi. Nəhayət, özünü birtəhər saxlayıb əlini geri götürdü.

– Çəkmək istəyirsiniz?

– Bağrım çatlayır lap.

– Mən etiraz etmirəm, çəkin, buyurun, çəkin. Birisi çəkəndə mənim xoşum gəlir, əlbəttə, siqarət çəkəndə.

Kişi sol əlini yan cibinə salıb əzik-üzük bir siqaret kağızı çıxararaq, onu sağ əlinə tərəf olan tapançanın yanına qoydu. Təzədən əlini cibinə salıb iri, qıvrım tütünü kağızın üstünə tökdü. Sonra hər iki əlini tapançanın üstünə qoyub siqareti bükməyə başladı.

– Bu iyrənc silahdan elə yapışmısız ki, sanki məndən qorxursuz, – qadın coşqunluqla dedi.

– Sizdən qorxmuram, madam, ancaq nəsə bir az narahatam.

– Mən isə sizdən qorxmadım.

– Siz nədən qorxasıydız ki?

– Bəs canımdan qorxmayım? – qadın etiraz etdi.

– Hə, elədir, – kişi dərhal razılaşdı. – Ancaq qətiyyən qorxmadınız. Bəlkə də mən çox ehtiyatlı davranıram.

– Qorxmayın, məndən heç bir pislik görməzsiz, – qadın bu sözləri deyə-deyə ciddi və səmimi nəzərlərini kişiyə dikmişdi, ayağını isə təzədən elektrik zənginin düyməsi üstünə basmışdı. – Görürəm ki, adamları yaxşı tanımırsız. Xüsusilə qadınları. Çalışıram ki, cinayət aləminin daşını atıb, ağıllı bir işin qulpundan yapışasız, siz isə...

Kişini qeyrət boğdu.

– Çox-çox üzr istəyirəm, madam, – kişi mızıldandı, – hm, şübhəyə düşməyim heç insafdan deyil.

Sağ əlini tapançanın üstündən götürüb siqaretinə bir-iki qullab vurdu, sonra silahı dizi üstünə qoydu.

– İnandığınız üçün çox sağ olun, – qadın az qala pıçıltıyla dedi və gözlərini tapançadan çəkib bir daha zəngin düyməsini basdı.

– Bu üç yüz dolları isə günü bu gün teleqrafla qərbə göndərə bilərəm, – kişi dedi. – Əvəzində isə bir il işləməyə razıyam, təkcə yeməyim verilsə…

– Daha da çox qazanacaqsınız. Sizə vəd edirəm ki, ayda yetmiş beş dollardan az almayacaqsız. Əlinizdən mehtərlik gəlir? Atlarla aranız necədir?

Kişinin tutqun sifəti açıldı, gözlərində qığılcım parıldadı.

– Çox gözəl, ya mənim, ya da atamın yanında işləyərsiz. Dəxli yoxdur, onsuz da xidmətçiləri adətən mən götürürəm. Mənə ikinci bir arabaçı lazımdır…

– Frak geyinəcəm? – kişi kəskin tərzdə onun sözünü kəsdi, qərbin azad oğlunun səsində və təbəssümündə nifrət var idi.

Qadın şəfqətlə gülümsündü:

– Deməli, ürəyinizcə deyil. Qoyun fikirləşim… Dayçalara baxa bilərsiz?

Kişi başını tərpətdi.

– Bizdə cins atlar zavodu var və orada sizin üçün iş tapılar. Necədir?

– Necədirmi, madam? – kişinin səsində sevinc və təşəkkür birləşmişdi. – Deyin görüm, hardadır o zavod? Günü sabah başlamağa hazıram. Bir şeyi sizə vəd edə bilərəm, madam, heç vaxt təəssüflənməyəcəksiz ki, bədbəxtliyə düçar olmuş Hyuqi Lyuka kömək əli uzatmısınız.

– Siz gərək ki, adınızın Deyv olduğunu demişdiz, – qadın incə məzəmmətlə dedi.

– Elədir, madam, yalan demişdim. Əsl adım Hyuqi Lyukdır. İndi mənə desəniz ki, cins at zavodunuz hardadır və yolpulu versəniz, səhər tezdən düz ora yollanacam.

Bütün bu söhbət uzunu qadın fasiləsiz olaraq zəngin düyməsini basırdı. O, müxtəlif işarələr verirdi: üç qısa və bir uzun, iki qısa və uzun, axırda isə dalbadal beş dəfə. Sonra isə çoxlu qısa zənglərdən bezib, üç dəqiqə idi ki, ayağını zəng düyməsindən çəkmirdi. Ya qış yuxusuna getmiş eşikağasını qınıyır, ya da zəngin işləməməsindən şübhələnirdi.

– Sizin razı olmanıza elə sevinirəm, elə sevinirəm ki, – qadın dilləndi. – İşə düzəlməyiniz çətinlik törətməz. İndisə icazə verin, qalxım yuxarı, pulqabını gətirim.

Kişinin baxışlarında şübhə əlaməti hiss edib cəld əlavə elədi:

– Mən ki sizə üç yüz dollar pul etibar edirəm.

– Sizə inanıram, madam, – kişi ehtiramla dilləndi. – ancaq heç cür özümü ələ ala bilmirəm.

– Yaxşı, pul üçün yuxarı qalxa bilərəm?

Kişi cavab verməmiş qadın hardansa bir səs eşitdi. Bu hardasa açılan qapı cırıltısıydı, ancaq bu səs o dərəcədə zəif idi ki, daha çox yüngül hava axınına bənzəyirdi və əgər qadın var gücüylə həmin səsi dinləməsəydi, qətiyyən eşitməzdi. Ancaq Hyuqi Lyuk da o səsi duymuşdu.

– Nədir o? – kişi təşviş içində soruşdu.

Cavab əvəzinə qadın cəld sol əlini uzadıb tapançanı qamarladı. Onun hərəkəti Lyuk üçün tamamilə gözlənilməz idi və qadın məhz buna ümid bəsləyirdi. Bircə an sonra kişinin əli bayaq silah qoyduğu boş yerə toxundu.

– Oturun! – qadın elə sərt əslə əmr etdi ki, kişi bu səsi hələm-hələm tanımadı. – Tərpənməyin! Əllər stolun üstünə!

Kişinin tapançanı necə tutmasını qadın yaxşı yadında saxlamışdı. Ağır tapançanı irəli uzanmış əlində saxlamamaq üçün, qadın dirsəyini stola dayayıb, kişinin başını yox, sinəsini nişan almışdı. Kişi sakitcə oturmuşdu və tapançanı almaq ehtimalın qətiyyən olmadığını, ya da açılacaq atəşin yan getməyəcəyini anlayaraq, qadının bütün əmrlərini itaətlə yerinə yetirirdi. Kişi tapançanın da, onu tuşlamış əlində əsmədiyini görür, güllənin sinəsində açacaq yaranın ölçülərini təsəvvüründə canlandırırdı. İndi kişi qadına deyil, tapançanın çağmağına baxırdı; qadın barmağını yüngülcə tətiyə basmış, çaxmaq hədələyici tərzdə gərilmişdi.

– Siz allah, yadda saxlayın ki, silahın tətiyi çox həssasdır. Bərk basmayın, yoxsa bədənimdə yu-

nan qozu boyda dəlik açarsız.

Qadın barmağını azacıq boşaltdı.

– Bax belə yaxşıdır, – kişi dedi. – Lap yaxşı olar ki, ağzını yana döndərəsiz... Çox həssas silahdı. Lazım gəlsə, yüngülcə tətiyi çəkmək onu kükrədib qaldıracaq və aşağı salacaq, sizin güzgü kimi işıldayan döşəmənizin üstündə qan gölü yaranacaq.

Kişinin arxasındakı qapı açıldı və o, kiminsə içəri girdiyini eşitdi. Kişi heç qımıldanmadı da, o, yalnız qarşısındakı qadına baxır və tamamilə başqa adamın çöhrəsini görürdü: bu çöhrə qəddar, soyuq, amansız eyni zamanda ifrat dərəcədə gözəldi. Qadının gözləri də amansız olmuşdu və indi soyuq alov saçırdı.

– Tomas, – qadın əmr etdi, – zəng vurun polisə. Bu qədər vaxtı hardasınız?

– Mən zəng səsini eşidən kimi gəldim, madam.

Oğru bir an da gözünü qadından çəkmirdi, qadın da kirpik vurmadan ona baxırdı. Zəng haqda danışılanda oğrunun baxışlarında nəsə bir anlaşılmazlıq oxundu.

– Bağışlayın, madam, – eşikağası dilləndi, – bəlkə yaxşı olar ki, mən də silah götürüb nökərləri oyadım?

– Yox, polisə zəng vurun. Bu adamı özüm burada saxlayaram. Gedin, cəld dediklərimə əməl eləyin.

Eşikağası gecə ayaqqabılarını sürüyə-sürüyə otaqdan çıxdı, üz-üzə oturmuş kişi və qadın isə bir-birindən gözlərini çəkmirdi. Beyninə dolmuş fikirlər indidən qadına həzz verirdi; indi o, tanışlarının təntənəli təriflərini eşidirdi, gözəl miss Setlifin təkbaşına silahlı qulduru tutması haqqında qəzetlərdəki xəbərləri oxuduğunu təsəvvür edirdi. Qadın əmin idi ki, bu əhvalat mütləq sensasiyaya çevriləcək.

– Məhkəmədə siz dediyiniz o hökmü oxuyanda, – o, soyuq səslə dedi, – daha doğrusu, oxuyandan sonra sizin düşünmək üçün xeyli vaxtınız olacaq; onda oturub fikrləşərsiz ki, başqasının əmlakına göz dikəndə və qadının üstünə silah çəkəndə necə səfehlik eləmisiz. Bu dərsi həyatınızın sonuna qədər yadda saxlamaq üçün xeyli vaxtınız olacaq. İndi mənə düzünü deyin, axı, sizin köməyinizə ehtiyacı olan heç bir dostunuz yoxdur, elə deyilmi? Özü də, dediklərinizin hamısı yalandır, düzdür?

Kişidən səs çıxmadı, qadına dikilmiş baxışlardan da heç nə oxumaq mümkün deyildi. Sanki onun gözləri qarşısına hansı dumansa pərdə çəkmişdi və bu pərdə arxasından üzbəüz oturmuş qadın zorla seçilirdi; o dumanlıqda günəş şəfəqlərində çimən qərbin nəhayətsiz çölləri, şərqin çürük şəhərlərinin sakinlərindən mənən qat-qat uca olan qərbin qadın və kişiləri görünürdü.

– Niyə susursuz? Nə üçün təzədən nəsə quraşdırmaq istəmirsiz? Niyə xahiş etmirsiz ki, sizi buraxım gedəsiniz?

– Xahiş edərdim, – kişi qurumuş dodaqlarını yalayıb dedi, – xahiş edərdim əgər...

– Əgər nə? – qadın hökmlə soruşdu.

– Mən sizin yadıma saldığınız söz barədə düşünürəm. Əgər siz ləyaqətli qadın olsaydınız, mən xahiş edərdim.

Qadının bənizi ağardı:

– Ehtiyatlı danışın! – o, xəbərdarlıq etdi.

– Əh, məni öldürməyə sizin cəsarətiniz çatmaz! – Kişi nifrətlə gülümsündü. – Bizim bütün bu aləm cinayət yuvasıdır, ancaq sizin kimilər orada meydan sulayanda gərək bilsinlər ki, dünya o qədər də ayaq altına atılmayıb ki, mənim kimisini o dünyaya göndərəndə sizi cəzasız buraxsınlar. Siz alçaq və yaramaz qadınsınız, ancaq bədbəxtliyiniz orasındadır ki, zəifsiniz. İnsanı öldürmək o qədər də çətin deyil, ancaq sizin buna cəsarətiniz çatmaz. O ürəyin sahibi deyilsiz.

– Sözlərinizə diqqət edin! – Qadın təkrar etdi. – Sizi xəbərdar edirəm, axırı pis olar! Sizə sərt, ya yumşaq cəza veriləcəyi məndən asılıdır.

Kişi birdən coşdu:

– O necə allahdır ki, sizin kimilərə hər cür alçaqlıq eləməyə, əvəzində isə cəzasız qalmağınıza imkan verir?! Heç başa düşmürəm ki, zavallı bəşəriyyəti ələ salıb alçaltmaq allahın nəyinə gərəkdir?.. Mən allah olsaydım…

Eşikağasının gəlişi onun söhbətini yarımçıq kəsdi.

– Telefona nəsə olub, madam, – o dedi. – Ya naqillər qırılıb, ya da nəsə başqa şey. Stansiya cavab vermir.

– Nökərlərdən birini oyadın, – qadın əmr elədi. – Göndərin polis dalınca, özünüz isə qayıdın bura.

Onlar yenidən tək qaldılar.

– Mənim bir sualıma cavab verərsinizmi, madam? – Lyuk dedi. – Sizin xidmətçi bayaq zəng haqqında nəsə dedi. Bütün vaxtı mən sizə göz qoyurdum, amma haçan zəng vurduğunuzu görmədim…

– Zəng düyməsi stolun altındadır, səfehin biri! Mən onu ayağımla basırdım.

– Təşəkkür edirəm, madam. Mənə elə gəlirdi ki, sizin kimi adamlarla əvvəllər qarşılaşmışam, indi əminəm ki, belədir. Sizə inanıb, qəlbimi, ürəyimi açdım, siz isə bütün vaxt ərzində məni əclafcasına aldadırmışsınız.

Qadın istehzayla güldü:

– Davam edin, Nə istəyirsinizsə, danışın. Çox maraqlıdır.

– Siz mənim gözlərimi bağladınız, özünüzü xeyirxah və məlahətli göstərdiniz, şalvar yox, yubka geyindiyinizdən məharətli istifadə edərək məni barmağınıza doladınız. Və bütün bu vaxt ərzində ayağınızla zəngin düyməsini basdınız. Eybi yox, bunun özündə bir təskinlik vardır. Sizin kimi olmaqdansa, mən kasıb Hyuqi Lyuk kimi on il həbsdə yatmağa üstünlük verirəm! Sizin kimi qadınların yeri isə cəhənnəmdədir, madam.

Sükut çökdü, kişi bir an da gözünü qadından çəkmirdi. Sanki qadını daha dərindən öyrənmək, sonra qərar vermək istəyirdi.

– Davam edin, – qadın israr etdi, – Yenə nəsə deyin.

– Bəli, madam, deyəcəm. Mütləq deyəcəm. Bilirsiz mən nə etməyə hazıram? İndi stuldan qalxıb qapıya tərəf gedəcəm. Sizdən tapançanı ala bilərdim, ancaq birdən səfehlik edib tətiyi basarsız. Eybi yoxdu, qoy tapança sizdə qalsın. Heyif, gözəl silah idi. Hə, mən qapıya tərəf gedəcəyəm. Siz isə atəş açmayacaqsınız. İnsanı öldürmək üçün cəsarət lazımdır, sizdə isə o yoxdur. Hə, indi isə hazırlaşın, baxaq görək siz atəş aça bilərsinizmi? Mən sizə heç bir ziyan vurmadan qapıdan çıxıb gedəcəyəm. Mən gedirəm.

Qapıdan gözünü çəkmədən stolu itələyib qalxdı. Tapançanın çaxmağı dikəldi. Hər ikisi tapançaya baxırdı.

– Bərk basın, – kişi məsləhət verdi. – Çaxmaq heç yarıyacan qalxmayıb. Hə-hə, insan öldürməyə bir cəhd göstərin görək. Onun bədənində yumruq boyda bir deşik açın görək, qoy onun beyni parçalanıb sizin döşəməyə səpələnsin. Bax, adam öldürmək budur.

Çaxmaq yavaş-yavaş qalxırdı. Kişi arxasını qadına çevirib aram addımlarla qapıya sarı getdi. Qadın tapançanı qaldırıb Lyukun belini nişan aldı. Çaxmaq iki dəfə qalxdı, sonra tərəddüd içində yerinə qayıtdı.

Qapının yanından getmədən öncə Lyuk arxaya çevrildi. Nifrət içində gülə-gülə, sakitcə, bu qadına olan nifrətini cəmləşdirib iyrənc bir söyüş söydü.

*Tərcümə edən:* **Yusif Hansen**



# WORLD'S MOST VISITED TOURIST ATTRACTIONS

## EPCOT

## WALT DISNEY WORLD RESORT, LAKE BUENA VISTA, FL

### ANNUAL VISITORS: 11,229,000

Built to honor the late Walt Disney's utopian ideal of the innovative future (the name is an acronym for Experimental Prototype Community of Tomorrow), Epcot attracts guests who skew a little older than those of its neighbor, the Magic Kingdom. Restaurants are aimed at more sophisticated palates, and annual celebrations include a flower and garden show and an international food and wine festival. Perennial favorite rides like Soarin', Mission: SPACE, and The Seas with Nemo & Friends keep the kids and kids-at-heart happy. Expect visits to the Norway pavilion to spike when a Frozen-themed ride debuts in 2016.






Opened in 2001 and a near twin to its Orlando sibling—albeit one with more sushi—this popular movie theme park is one of four operated by Universal in Japan. Highlights include a Jaws-like shark encounter, Jurassic Park roller-coaster ride, Sesame Street in 4-D, and now the Wizarding World of Harry Potter. Interesting fact: investment banking firm Goldman Sachs is the park's largest shareholder.

## HOLLYWOOD WALK OF FAME, HOLLYWOOD, CA

Nothing says Hollywood like the (literally) star-studded Walk of Fame, with each star bearing the name of a celebrity with enough cachet to be immortalized on the street. That means stars from James Dean and Marilyn Monroe to, more recently, Tina Fey and Neil Patrick Harris.





# DÜNYANIN ƏN GÖZƏL KİTABXANALARI

*TUT.BY xəbər portalı memarlıq nöqteyi nəzərindən dünyanın 28 ən gözəl və qeyri-adi kitabxanasını təqdim etmişdir. Oxucularımızı onlarla tanış edirik.*

## TRİNİTİ KOLLECİNİN KİTABXANASI

Kitabxana bir neçə binadan ibarədir. Burada təxminən 5 milyon çild kitab saxlanılır. Kollecin tələbələri bir zamanlar Conatan Svift, Oskar Uayld və Brem Stokerin vərəqlədikləri kitablardan istifadə edirlər.



# XƏZƏR UNİVERSİTETİNİN DÜNYA MƏKTƏBİ

## BAKIDA VƏ SUMQAYITDA ŞAGİRD QƏBULU ELAN EDİR



Azərbaycan bölməsi üzrə I-IX
Rus bölməsi üzrə I-IX
İngilis bölməsi üzrə I-IV siniflərə
Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir.
Azərbaycan və rus bölmələrində ingilis ikinci dil kimi tədris olunur.İngilis dili beynəlxalq dil tədrisi standartlarına uyğun tədris olunur.
VII sinifdən başlayaraq şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.
Məktəbdə təcrübəli pedaqoqlar, o cümlədən xaricdən dəvət edilmiş mütəxəssislər çalışırlar.Burada biliklə yanaşı, şagirdlərin hərtərəfli inkişafına da böyük əhəmiyyət verilir. Dünya məktəbi Beynəlxalq Bakalavr Təşkilatının (İnternational Baccalaureate Organization-IBO), yəni Beynəlxalq Məktəb Şəbəkəsinin üzvüdür.Məktəbdə IB Diplom Proqramı fəaliyyət göstərir.
X sinif şagirdləri tam orta təhsillə yanaşı, öz istəkləri ilə Beynəlxalq Bakalavr Təşkilatının Proqramında təhsil ala bilərlər.Digər məktəblərin şagirdləri də imtahan verməklə Diplom Proqramına qəbul edilirlər. Diplom proqramında təlim ingilis dilindədir, təhsil müddəti iki ildir.Beynəlxalq Bakalavr Diplomu əldə edən şagirdlər dünyanın tanınmış universitetlərində təhsillərini davam etdirmək imkanı qazanırlar. IB Diplom proqramında təhsil almaq istəyən IX sinif şagirdləri üçün PRE IB, yəni IBDP-yə hazırlıq sinfi təşkil edilir.

**Ünvan:**

**Bakı, Əcəmi Naxçıvani 9**
**Tel.: (+994 12) 563 59 40 /47 /48**
**Mob.: (+994 70) 844 08 88**

**Sumqayıt, 44-cü məhəllə, Bakı küçəsi**
**Tel.: (+994 18) 642 30 97**
**Mob.: (+994 55) 669 96 33**

**E-mail: info@dunyaschool.az**
**http: // dunyaschool.az**

XƏZƏR UNİVERSİTETİ

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

# NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

## TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq,
təhsildən zövq almaq və
yadda qalan tələbə
həyatı yaşamaq istəyirsən?
**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1 QRUP

- Kompüter elmləri
- Kompüter mühəndisliyi
- Neft-qaz mühəndisliyi
- İnşaat mühəndisliyi
- Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi
- Kimya mühəndisliyi
- Mexanika mühəndisliyi
- Riyaziyyat və informatika müəllimliyi
- Fizika müəllimliyi

### 2 QRUP

- Mühasibat uçotu və audit
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Turizm və otelçilik
- Regionşünaslıq (Avropa)
- Beynəlxalq münasibətlər
- Coğrafiya müəllimliyi

### 3 QRUP

- İngilis dili və ədəbiyyatı
- Azərbaycan dili və ədəbiyyatı
- Tərcümə (ingilis dili)
- Politologiya
- İngilis dili müəllimliyi
- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Tarix müəllimliyi

### 4 QRUP

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Kimya və biologiya müəllimliyi
- Psixologiya

### 5 QRUP

- Dizayn